# XOCALIYA ƏDALƏT

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 37 (10057) 26 fevral 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Güclü olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də bölgələrə səfər edib. İlk olaraq Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib. Bu mərkəzin təməli 1969-cu ildə Lənkəran Texniki Peşə Məktəbi kimi qoyulub. 2018-ci ildə Lerik Peşə Məktəbi və Lənkəran Peşə Liseyi birləşdirilərək onların bazasında Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Mərkəz 2024-cü ildən etibarən publik hüquqi şəxs kimi fəaliyyət göstərir.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocavənd rayonunun Xocavənd kəndində və Xocavənd şəhərində görülmüş işlərlə tanış olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşüb söhbət ediblər.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalı rayonunun Xanabad kəndində görülmüş işlərlə tanış olublar.

2-4

## Prezident İlham Əliyevin sosial media hesablarında Xocalı soyqırımının ildönümü ilə bağlı paylaşım edilib




## Xocalı: unudulmayan tarix, bərpaolunan gələcək

Prezident İlham Əliyevin Xocalıya mütəmadi səfərləri regionda aparılan bərpa-quruculuq işlərinə birbaşa nəzarətin həyata keçirildiyini, dövlət suverenliyinin möhkəmləndirilməsini və sosial-iqtisadi inkişafın sürətləndirilməsini əks etdirir. Bu səfərlər çərçivəsində infrastruktur layihələrinin icrası, iqtisadi fəaliyyətin genişləndirilməsi, əhalinin məskunlaşdırılması və tarixi-mədəni irsin qorunması istiqamətində görülən tədbirlər dövlət siyasətinin prioritetlərini nümayiş etdirir. Eyni zamanda bu fəaliyyətlər Xocalının yenidən dirçəldilməsi və regionun uzunmüddətli inkişaf strategiyasının həyata keçirilməsi baxımından mühüm siyasi və praktiki əhəmiyyət kəsb edir.

6

## Azərbaycan dövləti öz gücü hesabına ədaləti bərqərar etdi

Ali Baş Komandanın müdrik sərkərdəliyi, ordumuzun gücü və xalqımızın sarsılmaz iradəsi, birliyi nəticəsində ədalət bərpa olundu. Tarixi torpaqlarımız işğalçılardan təmizləndi, ərazi bütövlüyümüz və dövlət suverenliyimiz tam bərpa olundu.

Bu gün bütün şəhidlərimizin, Xocalı qurbanlarının ruhları rahatdır. Artıq Xocalıda üçrəngli bayrağımız qürurla dalğalanır. Xalqımıza qarşı cinayətlər törətmiş şəxslər Azərbaycanın ədalət mühakiməsi qarşısında cavab verdilər və layiqli cəzalarını aldılar. Azərbaycan xalqı və dövləti öz gücü hesabına ədaləti bərqərar etdi.

7

## Birinci vitse-prezident Mehriban Əliyeva Xocalı soyqırımının ildönümü ilə bağlı paylaşım edib




## Azərbaycan-Küveyt dövlətlərarası münasibətləri qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edir



### Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əl-Sabaha

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edən Azərbaycan-Küveyt dövlətlərarası münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ali səviyyədə qarşılıqlı anlaşmanın və fəal dialoqun mövcudluğu müxtəlif sahələrdə əməkdaşlığımızın genişləndirilməsi üçün əlverişli şərait yaradır.

Əminəm ki, Azərbaycan ilə Küveyt arasında ənənəvi dostluq əlaqələri, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək və daha da dərinləşəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizi və dost xalqınızı mübarək Ramazan ayının başlaması münasibətilə də ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Küveyt Dövlətinə daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2026-cı il*

◆ **Prezident İlham Əliyevin Lənkəran, Xocavənd və Xocalı rayonlarına səfəri**

# Güclü olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq

## Prezident İlham Əliyev Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib

**Fevralın 25-də Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərkəzin açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına mərkəzdə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, bu mərkəzin təməli 1969-cu ildə Lənkəran Texniki Peşə Məktəbi kimi qoyulub. 2018-ci ildə Lerik Peşə Məktəbi və Lənkəran Peşə Liseyi birləşdirilərək onların bazasında Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Mərkəz 2024-cü ildən etibarən publik hüquqi şəxs kimi fəaliyyət göstərir.

Müasir infrastrukturla təmin olunan mərkəzdə tədris, idman, yataqxana, kulinariya təlim korpusları, təlim-qonaq evi, əkinçilik və emalatxana laboratoriyaları, istixana, həmçinin avtotəmir və CNC (dəzgahların kompüterləşdirilmiş idarəetmə sistemi) emalatxanaları yaradılıb. Burada eyni zamanda informatika kabinetləri, müasir sinif otaqları, hərbi hazırlıq kabineti, kitabxana, 300 nəfərlik akt zalı və yeməkxana fəaliyyət göstərir. Ərazidə 53 nəfərlik yataqxana binası inşa edilib və yenidənqurmadan sonra korpusların sayı 7-yə çatdırılıb.

2025/2026-cı tədris ilində mərkəzdə 42 ixtisas üzrə 55 qrupda 962 tələbə təhsil alır. Onların 385-i qadındır. Müəssisədə turizm, kənd təsərrüfatı, sənaye, xidmət, IT texnologiyaları və alternativ enerji istiqamətləri üzrə kadr hazırlığı həyata keçirilir.

Mərkəzdə yeni maddi-texniki baza formalaşdırılandan sonra bir çox müasir ixtisaslar, o cümlədən elektrik və hibrid avtomobillərinin texniki qulluğu və təmiri üzrə texnik, kompüter şəbəkələri və şəbəkə inzibatçılığı, proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı, kibertəhlükəsizlik, kompüter sistemlərində proqramlaşdırma, binaların tikintisi və istismarı, elektrik xətlərinin, Günəş panellərinin quraşdırılması və təmiri üzrə mütəxəssis və texnik ixtisasları tədris olunur.

Burada tələbələrə ilk peşə, texniki peşə və yüksək texniki peşə təhsili pillələri üzrə biliklər verilir. Hazırda mərkəzdə 138 nəfər çalışır.

Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi kadr hazırlığı istiqamətində dövlət və özəl sektoru təmsil edən 30-a yaxın müəssisə ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlığa özəl sektorla birgə kadr hazırlığı, mütəxəssislərin tədrisə cəlb olunması, istehsalat təlimləri, ustad dərsləri, həmçinin sosial və innovativ layihələrin icrası daxildir.














## Xocavənd kəndində görülmüş işlərlə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd rayonunun Xocavənd kəndində görülmüş işlərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə həyata keçirilmiş sosial layihələr barədə məlumat verdi.

Bildirildi ki, Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxil olan bu kənd 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimizin antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Burada ümumilikdə 278 fərdi ev var. Onlardan 128-i yararsız, 150-si isə qismən yararlıdır. Qismən yararlı evlərin 20-si artıq təmir olunub, bu il daha 130 evdə təmir işləri aparılacaq.

Bu ilin fevralında Xocavənd kəndinə 20 ailə - 94 nəfər qayıdıb. Cari ilin mart-dekabr aylarında kəndə daha 130 ailə - 533 nəfərin qayıtması planlaşdırılır.

Ötən müddət ərzində kənddə bir sıra sosialyönümlü işlər görülüb. Belə ki, 5 kilometr uzunluğunda daşıyıcı qaz xətti çəkilib, 1500 metr uzunluğunda mövcud xətt bərpa edilib. Bundan başqa, 2100 metr uzunluğunda 0,4 kV-luq mövcud xətlər və 2 transformator məntəqəsi bərpa olunub.

Kənddaxili yollar asfaltlanıb, piyada yolları çəkilib. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Görülmüş işlərlə tanışlıqdan sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva kəndə köçmüş sakin Rizvan İbrahimovun evində oldular və söhbət etdilər.

**Prezident İlham ƏLİYEV:** Salamaleyküm.

**Qadın sakin:** Salam, xoş gəlmisiniz.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Xoş gördük.

**Digər qadın sakin:** Xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Salam.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Xoş gördük, salam, gözəl.

**Prezident İlham ƏLİYEV:** Necə yerləşmisiniz?

**Kişi sakin:** Çox əla, hər şey əladır. Allah sizdən razı olsun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Qadın sakin:** Keçin içəri.

**Prezident İlham ƏLİYEV:** Ev şəraiti necədir?

**Kişi sakin:** Çox əladır, hər şey əladır.

**Prezident İlham ƏLİYEV:** Yaxşı, razısınızmı?

**Kişi sakin:** Allah sizdən razı olsun. Allah sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təbrik edirəm sizi, doğma Vətənə qayıtmaq münasibətilə.

**Kişi sakin:** Çox sağ olun, Allah Sizi var eləsin.

**Prezident İlham ƏLİYEV:** Siz özünüz buralısınız?

**Kişi sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Bu kənddə yaşamısınız?

**Kişi sakin:** Bəli. O vaxt rəhmətlik Ulu Öndər də gəlmişdi buraya.

**Prezident İlham ƏLİYEV:** Bu kəndə gəlmişdi?

**Kişi sakin:** Bəli. Səhv etmirəmsə, 1979-cu ildə.

**Prezident İlham ƏLİYEV:** İşğal dövründə harada yaşamısınız?

**Kişi sakin:** Bakıda.

**Prezident İlham ƏLİYEV:** Şərait necə idi?

**Kişi sakin:** Belə də, şükür. Amma burada olsaydıq, daha yaxşı olardı.

**Prezident İlham ƏLİYEV:** İndi 35 ildən sonra buradasınız. Sizi neçənci ildə buradan çıxardıblar, 1991-də?

**Kişi sakin:** Vertolyot partlayan gün, həmin gün bizi çıxartmışdılar. Sonra vertolyotla gələndə onları da şəhid etdilər.

**Prezident İlham ƏLİYEV:** Buraya yaxınlıqda idi?

**Kişi sakin:** Bəli, Qarakənddə idi.

**Prezident İlham ƏLİYEV:** Buradan oraya məsafə nə qədərdir?

**Kişi sakin:** 17 kilometrdir.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm sizi. Xoşbəxt yaşayın doğma Qarabağ torpağında, doğma kəndinizdə.

**Qadın sakin:** Çox sağ olun, minnətdarıq.

**Kişi sakin:** Çox sağ olun, hamısı Sizin sayənizdə. Allah Sizi var eləsin. Allah şəhidlərimizə rəhmət eləsin.

**Qadın sakin:** Çox sevinirik, sevincimizin həddi-hüdudu yoxdur.

**Kişi sakin:** Siz bizə dünyanı bəxş etmisiniz, Quran haqqı. Nə deyiriksə, ürəkdən deyirik, elə-belə yox. Siz bizə yeni həyat vermisiniz.

**Qadın sakin:** Sizin, Mehriban xanımın bizim ailənin qonağı olmağınız bizim sevincimizi ikiqat artırıb. Bu qayğıya görə Sizə minnətdarıq, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, siz buna layiqsiniz. Uzun illər köçkün həyatı yaşamısınız əzab-əziyyət içində. Artıq o dövr tarixdə qaldı.

**Kişi sakin:** Allah köməyiniz olsun, Allah Sizi var eləsin.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Gəlin, birlikdə şəkil çəkdirək.

**Prezident İlham ƏLİYEV:** Bəli, gedək.

Burada maldarlıq üçün yaxşı şərait var. Su necə?

**Kişi sakin:** Var, buranın hər yeri münbitdir. Allah Sizdən razı olsun.

**Prezident İlham ƏLİYEV:** Həyətyanı sahə də var?

**Kişi sakin:** Var, 15 sot torpaq var.

**Prezident İlham ƏLİYEV:** Torpaq yəqin ki, ayrılacaq.

**Kişi (rəsmi şəxs):** Həyətyanı sahə 20 sotdan çoxdur.

**Prezident İlham ƏLİYEV:** Mal-qaran da var, yoxsa yox?

**Kişi sakin:** İnşallah, olacaq.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, olmalıdır.

**Kişi (rəsmi şəxs):** Burada heyvandarlıq kompleksləri, fermalar var.

**Prezident İlham ƏLİYEV:** Yəni dolanışıq burada yaxşı olacaq.

**Qadın sakin:** İnşallah.

**Prezident İlham ƏLİYEV:** Artıq sizdən asılıdır, dövlət nə lazımdırsa edib.

**Kişi sakin:** Əlbəttə, Allah dövlətimizi qorusun, Sizi qorusun, ailənizi qorusun, nəvələrinizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, cansağlığı arzulayıram. Xoşbəxt yaşayın.









◆ Prezident İlham Əliyevin
Lənkəran, Xocavənd və Xocalı rayonlarına səfəri

# Güclü olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq

## Prezident İlham Əliyev Xocavənd şəhərində görülmüş işlərlə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd şəhərində görülmüş işlərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma şəhərdə görülmüş işlər barədə məlumat verildi.

Qeyd edək ki, Xocavənd şəhəri 1992-ci ildə ermənilər tərəfindən işğal edilib. Şəhər 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimiz tərəfindən həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində işğaldan azad olunub. Elə həmin il oktyabrın 15-də Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Xocavənd şəhərində Dövlət bayrağımızı ucaldıb.

Xocavənd rayonunun ərazisi 1,51 min kvadratkilometrdir. Əhalisinin sayı isə 12 min 500 nəfərdir. Rayonun ərazi vahidinə 1 şəhər, 2 qəsəbə və 80 kənd daxildir.

Prezident İlham Əliyevə Xocavənd şəhərində əsaslı təmirdən sonra istifadəyə verilmiş fərdi evlər barədə məlumat verildi.

Xocavənddə 980 fərdi ev mövcuddur ki, onlardan da 133-ü yararsız, 847-si isə qismən yararlıdır. Qismən yararlı evlərdən 55-i artıq istismara hazırdır. Bu il ərzində daha 792 ev təmir ediləcək.

Xatırladaq ki, bir neçə gün əvvəl Xocavənd şəhərinə 50 ailə - 194 nəfər qayıdıb. Ötən ilin sentyabrından indiyədək isə Xocavəndin 5 yaşayış məntəqəsinə - Xocavənd şəhərinə 50 ailə (194 nəfər), Qırmızı Bazar qəsəbəsinə 142 ailə (604 nəfər), Sos kəndinə 85 ailə (360 nəfər), Hadrut qəsəbəsinə 58 ailə (233 nəfər), Xocavənd kəndinə isə 20 ailə (94 nəfər) olmaqla, ümumilikdə 1485 nəfər - 355 ailə qayıdıb.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocavənd şəhərinə köçmüş İlqar Həsənovun evində oldular və söhbət etdilər.

**Prezident İlham ƏLİYEV:** Salam-əleyküm.

**Sakinlər:** Xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Qadın sakin:** Mehriban xanım, bizə şərəfdir ki, evimizə təşrif buyurmusunuz.

**Kişi sakin:** Fəxr edirəm ki, Sizin komandanlığınız altında döyüşlərdə iştirak etmişəm.

**Prezident İlham ƏLİYEV:** Füzuli və Xocavənd… Buranı azad etmisən?

**Kişi sakin:** Hazırda da Müdafiə Nazirliyində hərbi xidmətimi davam edirəm.

**Qadın sakin:** Xoş gəlmisiniz. Bizim üçün şərəfdir ki, bu gün Siz bizim evimizdəsiniz. Yəni böyük gündür, həqiqətən. Həmişə danışırdım, deyirdim, Xocavəndi o qədər həsrətlə gözləyirəm, orada yaşamağı çox həsrətlə istəyirəm. İndi çox şadam ki, mənim övladlarım burada böyüyəcəklər.

**Prezident İlham ƏLİYEV:** İnşallah. Çox gözəl. Şərait də yaxşıdır. Eviniz necədir?

**Kişi sakin:** Minnətdarıq. Çox gözəldir, Ali Baş Komandan.

**Prezident İlham ƏLİYEV:** Sən özün harada doğulmusan?

**Kişi sakin:** Xocavənd rayonunun Axullu kəndində.

**Prezident İlham ƏLİYEV:** Axullu. Uzaqdır buradan?

**Kişi sakin:** Xeyr, buradan çox uzaq deyil.

**Digər qadın sakin:** Xoş gəlmisiniz. Nə böyük şərəf.

**Kişi sakin:** Anamdır. İsti çörəyimiz var, təzə.

**Digər qadın sakin:** Xoş gəlmisiniz, Mehriban xanım, bizi şərəfləndirdiniz.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Allah sizə cansağlığı versin.

**Digər qadın sakin:** Allah Sizi də saxlasın. Sizin sayənizdə öz torpaqlarımıza qayıtmışıq, minnətdarıq.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm sizi.

**Digər qadın sakin:** Biz də Sizi təbrik edirik, çox sağ olun. Nəvələrim burada böyüyəcək, ən böyük şərəfdir. Xoş gəlmisiniz Siz də.

**Prezident İlham ƏLİYEV:** İşğal dövründə harada yaşamısınız?

**Kişi sakin:** İşğal dövründə Xəzər rayonunun Buzovna qəsəbəsində qaçqınlar üçün salınmış düşərgədə.

**Prezident İlham ƏLİYEV:** Bakıda, Buzovnadakı düşərgədə?

**Kişi sakin:** Bəli.







**Prezident İlham ƏLİYEV:** Sən də orada doğulmuşdun?

**Kişi sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Ev şəraiti necədir?

**Qadın sakin:** Çox gözəl, hər şey yaxşıdır, təşəkkür edirik Sizə.

**Prezident İlham ƏLİYEV:** Siz də dadına baxın, təndir çörəyidir.

**Qadın sakin:** Nuş edin, nuş olsun.

**Prezident İlham ƏLİYEV:** Sən də hərbi hissədə xidmət edirsən?

**Kişi sakin:** Bəli, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Siz nə işlə məşğul olursunuz?

**Qadın sakin:** Mən Azərbaycan dili və ədəbiyyat müəllimiyəm.

**Digər qadın sakin:** Mehriban xanım, gəlişinizdən çox şərəf duyuram.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Mən də çox xoşbəxtəm sizi görməyimə.

**Digər qadın sakin:** Biz də çox xoşbəxtik Sizi görməyə.

**Prezident İlham ƏLİYEV:** Əsas odur ki, doğma Qarabağ torpağındasınız.

**Qadın sakin:** Əsas odur ki, bu gün bu azadlığı yaşayırıq, bu müstəqilliyi yaşayırıq. Qalan şeylər hamısı düzələcək. Təmirdir, məktəbdir - hamısı olacaq, bəli.

**Digər qadın sakin:** Allah canınızı sağ eləsin.

**Kişi sakin:** Düşməni də qovmuşuq.

**Digər qadın sakin:** Allah canınızı sağ eləsin. Sizin sayənizdə.

**Prezident İlham ƏLİYEV:** Düzdür, qovmuşuq.

**Qadın sakin:** Amin. Allah Sizi qorusun, xalqımıza çox görməsin. Həmişə sülh olsun, əmin-amanlıq olsun.

**Prezident İlham ƏLİYEV:** Bundan sonra sülh olacaq.

**Digər qadın sakin:** Allah ömür versin Sizə.

**Qadın sakin:** Bizim eşitdiyimiz o bomba səsini, güllə səsini bu uşaqlar bir daha eşitməsinlər.

**Prezident İlham ƏLİYEV:** Eşitməyəcəklər.

**Kişi sakin:** Ali Baş Komandanımız onlara elə bir dərs verdi ki, onlar bir daha ayağa qalxan deyillər.

**Prezident İlham ƏLİYEV:** Bu, şanlı tariximizdir. Əlbəttə, Zəfər tarixi qürur mənbəyimizdir. Elə igidlər hesabına biz torpaqlarımızı azad etdik.

**Kişi sakin:** Sizin sayənizdə, "dəmir yumruğ"un sayəsində.

**Qadın sakin:** Mən daha çox qürurluyam. Çünki həm hərbçi bacısıyam, həm də şəhid bacısıyam.

**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin.

**Qadın sakin:** Həm də həyat yoldaşım hərbçidir.

**Prezident İlham ƏLİYEV:** Xocavəndin, Füzulinin azad olunmasında iştirak edib və yüksək təltiflərlə də mükafatlandırılıb.

**Qadın sakin:** Bəli, Sizin imzanızla. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** İndi Azərbaycan elə güclüdür, əminəm ki, bundan sonra heç kim bizə qarşı torpaq iddiası ilə çıxış edə bilməz. Ona görə sülh, əmin-amanlıq olmalıdır, heç bir itki olmamalıdır. Amma güclü ordumuz da hər zaman olmalıdır ki, bunu biz təmin edək. Onu da edirik.

**Qadın sakin:** Sayənizdə, cənab Prezident. Bunların hamısı sayənizdə oldu.

**Prezident İlham ƏLİYEV və birinci xanım Mehriban ƏLİYEVA:** Gəlin, birlikdə şəkil çəkdirək.

❖ ❖ ❖

Sonra xatirə şəkilləri çəkdirildi.

❖ ❖ ❖

**Kişi sakin:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm sizi, sağ olun.

**Qadın sakin:** Evimizə qonaq olun. Çox sağ olun, cənab Prezident. Şərəfdir bizim üçün.

## Prezident İlham Əliyev Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşüb söhbət ediblər.**

AZƏRTAC xəbər verir ki, sakinləri salamlayan **Prezident İlham ƏLİYEV dedi:** Necəsiniz?

**Kişi sakin:** Şükür bu günümüzə.

**Prezident İlham ƏLİYEV:** Xoş gəlmisiniz.

**Qadın sakin:** Çox şükür.

**Digər qadın sakin:** Xoş gəldiniz Xocavəndə.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm.

**Qadın sakin:** Çox şükür bu günümüzə, qədəmləriniz mübarək olsun.





**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm.

**Digər qadın sakin:** Çox sağ olun, özümüzü xoşbəxt hiss edirik.

**Kişi sakin:** Sizin sayənizdə alınan bu torpaqlara xoş gəlmisiniz, biz də xoş gəlmişik.

**Prezident İlham ƏLİYEV:** Bəli, siz məndən bir qədər tez gəlmisiniz - bir neçə gün.

**Kişi sakin:** Sağ olun, Allah Sizi var eləsin.

**Qadın sakin:** Amin!

**Kişi sakin:** Ən böyük xoşbəxtlikdir ki, Siz rəhmətlik atanızın vəsiyyətini yerinə yetirdiniz.

**Prezident İlham ƏLİYEV:** Elədir, düzdür.

**Kişi sakin:** Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Hamısı medallardır - Cəbrayıl, Şuşa, Füzuli, Xocavənd. Bütün torpaqları azad etmisiniz.

**Vətən müharibəsinin iştirakçısı:** Bəli, Sizin sayənizdə, Allah canınızı sağ eləsin.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm.

**Vətən müharibəsinin iştirakçısı:** Çox sağ olun.

**Qadın sakin:** Xoş gəlmisiniz, cənab Prezident. Çox sevinirik ki, bu xoşbəxt günü bizə yaşatdınız.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Kişi sakin:** Xoş gəlmisiniz, cənab Ali Baş Komandan.

**Prezident İlham ƏLİYEV:** Salam-əleyküm.

**Kişi sakin:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Xoş gördük.

**Kişi sakin:** Allah Sizi qorusun, cənab Prezident, yaşasın güclü Azərbaycan! Allah qorusun Sizi, ailənizlə birlikdə.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Kişi sakin:** Sağ olun, cənab Prezident, təşəkkür edirik Sizə ki, bu torpaqları qaytardınız.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Doğma Qarabağ torpağına qayıtmağınız münasibətilə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, burada rahat yaşayacaqsınız, xoşbəxtlik içində, sülh, əmin-amanlıq içində yaşayacaqsınız.

**Sakinlər:** Sizin sayənizdə, inşallah.

**Prezident İlham ƏLİYEV:** Siz buna layiqsiniz.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Uzun illər əzab-əziyyət içində yaşamısınız. Köçkün həyatı ağır həyatdır, həm mənəvi əzablar, həm fiziki çətinliklər, öz doğma torpağını tərk edib başqa yerə, hətta Azərbaycanın içində olsa belə getmək və əzab-əziyyət içində yaşamaq böyük sınaqdır. Siz bu sınaqdan şərəflə çıxmısınız. Əminəm ki, bütün Azərbaycan xalqı, siz də hər zaman inanırdınız ki, bu gün gələcək və bu torpaqları biz azad edəcəyik, ədaləti bərpa edəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Bildiyiniz kimi, vaxtilə işğal edilmiş torpaqların böyük hissəsi beş il bundan əvvəl Vətən müharibəsi zamanı azad olunsa da, Xocavənd hələ də işğal altında qalmışdı və xocavəndlilər də hesab edirdilər ki, nə vaxtsa vəziyyət dəyişəcək. Əminəm, cəmiyyətdə inam var idi ki, bir qarış torpaq da düşmənin tapdağı altında qalmayacaq və biz buna da nail olduq. Artıq iki ildən çoxdur ki, bütün əraziyə - Azərbaycan dövlətinin suveren ərazisinə biz nəzarət edirik. Düşmənin sonuncu yuvasını da dağıtmışıq, separatçıları da qovmuşuq, onları da məhkəmə qarşısında cavab verməyə məcbur etmişik və ədaləti tam bərpa etmişik. Ona görə artıq o ağır dövr geridə qaldı, arxada qaldı, bir daha qayıtmayacaq. Bu gün dövlətimiz güclüdür, ordumuz güclüdür və xalqımız bu illər ərzində artıq bütün dünyaya öz böyüklüyünü göstərmişdir. Son 80 il ərzində Azərbaycan qədər belə tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır.

İndi isə quruculuq vaxtıdır və burada artıq dövlət sizin üçün şərait yaradıb. Evlərin bəziləri bərpa edilib, yenidən qurulub. Bu proses davam etdiriləcək. On minlərlə Azərbaycan vətəndaşı artıq azad edilmiş torpaqlarda yaşayır və onlardan təqribən 30 minə yaxını keçmiş köçkünlərdir. Bildiyiniz kimi, biz əsas bu son 4-5 il ərzində infrastruktur layihələrinə vəsait ayırırdıq. Çünki yaşamaq üçün əsas ilkin şərtlər olmalıdır - elektrik, qaz, su, yollar, körpülər, tunellər. İndi isə daha çox yaşayış evlərinin tikintisi, bərpası məsələlərinə vəsait ayrılacaq. Ona görə Böyük qayıdış prosesi daha sürətlə gedəcək.

Burada iş yerləri də yaradılır, həm dövlət xətti ilə, həm ictimai təşkilatların xətti ilə və əlbəttə ki, özəl sektor. Burada yaşayan insanların əksəriyyəti vaxtilə kənd təsərrüfatı ilə məşğul idi. Siz yaxşı bilirsiniz ki, bu bölgənin çox gözəl təbiəti var, münbit torpağı var, suyu var, bulaqları var, hər şey var. Əsas odur ki, insanlar artıq burada rahat yaşasınlar və tam əmin olsunlar ki, bir daha xalqımızın başına belə fəlakətlər gəlməyəcək.

*Ardı 4-cü səh.*

◆ Prezident İlham Əliyevin
Lənkəran, Xocavənd və Xocalı rayonlarına səfəri

# Güclü olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq

## Prezident İlham Əliyev Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşüb

*Əvvəli 3-cü səh.*

**Sakinlər:** Amin, inşallah!

**Prezident İlham ƏLİYEV:** Bunun üçün də hər zaman güclü olmalıyıq, ayıq olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq. Necə ki, inamla baxırıq və yaşayırıq.

Sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı arzu edirəm.

**Sakinlər:** Çox sağ olun.

**Qadın sakin:** Bu günümüzə şükür. Həmişə yığıncaqlarımız olanda deyirdim ki, belə yığıncaqlarımız Qarabağda olsun. Bu gün arzumuza çatmışıq. Özümüzü o qədər xoşbəxt hiss edirik ki, biz öz torpağımıza, Vətənimizə gəlmişik. Beş gündür burada yaşayırıq. Vallah, heç acmırıq, təmiz oksigenlə nəfəs alırıq.






**Prezident İlham ƏLİYEV:** Hava görün necə gözəldir.

**Qadın sakin:** Çox sağ olun, şəhidlərimizin canı bahasına, qazilərimizin, hərbçilərimizin qanı bahasına, Sizin sayənizdə, siyasətiniz sayəsində torpaqlarımız azad olub, bu gün biz burada yaşayırıq. Özümüzü çox xoşbəxt hiss edirik.

**Prezident İlham ƏLİYEV:** Çox şadam.

**Qadın sakin:** Çox sağ olun, Ulu Öndərin vəsiyyətini yerinə yetirmisiniz, Allah ona rəhmət eləsin, Allah Sizi qorusun, övladlarınızı qorusun!

**Sakinlər:** Amin.

**Prezident İlham ƏLİYEV:** Bəli, buranın təbiəti çox gözəldir, havası təmizdir.

**Kişi sakin:** Bura Qarabağdır, cənnətdir.

**Prezident İlham ƏLİYEV:** Siz işğal dövründə harada məskunlaşmışdınız?

**Kişi sakin:** Ağcabədidə.

**Prezident İlham ƏLİYEV:** Ağcabədidə, dövlət tərəfindən verilmiş evdə?

**Kişi sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Siz də gəlin.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Şəkil çəkdirək?

**Prezident İlham ƏLİYEV:** Bəli, çəkdirək.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Hamımız yerləşəcəyik?

**Prezident İlham ƏLİYEV:** Bəli, gəlin.

❖ ❖ ❖

Sonra xatirə şəkilləri çəkdirildi.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Evlər necədir, yaxşıdır? Qaz var, işıq var, su var.

**Sakinlər:** Əladır, heç bir problem yoxdur, hər şey var.

**Prezident İlham ƏLİYEV:** Həyətyanı sahələr də var.

**Kişi sakin:** Hamısı gözəldir. 15 sot həyətyanı sahə var, bundan artıq nə olmalıdır?

**Prezident İlham ƏLİYEV:** 15 sot, hər şey əkə bilərsiniz.

**Kişi sakin:** Bəli, sağ olun. Mənim də adım İlhamdır.

**Prezident İlham ƏLİYEV:** Eləmi? Çox yaxşı.

**Qadın sakin:** Amma bizim sakinlər həqiqətən qoçaq camaatdır. Hər bir şərait də yaradacaq, əkin-biçin, camaatımız çox qoçaq camaatdır.

**Prezident İlham ƏLİYEV:** Bura təbii cənnətdir.

**Kişi sakin:** Allah Sizi qorusun, əsas məsələ odur ki, irəli gedək, amin!

**Prezident İlham ƏLİYEV:** Elədir, elə də olacaq, ancaq irəli.

**Sakinlər:** Allah Prezidentimizi qorusun!

**Qadın sakin:** Cənab Prezident, neçə illər arzusunda olduğumuz, həsrətini çəkdiyimiz Xocavənd torpağında salamlayıram Sizi. Elimizə-obamıza, dədə-baba yurdumuza xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təşəkkür edirəm.

**Qadın sakin:** Bu gün biz çox xoşbəxtik, ən xoşbəxt günlərimizi yaşayırıq.

**Prezident İlham ƏLİYEV:** Elədir, siz layiqsiniz buna. Bu torpaqlar 35 il işğal altında qalıb.

**Qadın sakin:** Amma ümidlə yaşayırdıq ki, nə vaxtsa qayıdacağıq.

**Prezident İlham ƏLİYEV:** İnanırdınız.

**Qadın sakin:** Bəli, inanırdıq.

**Kişi sakin:** Azərbaycan torpağı nə qədər varsa, Siz də, ailəniz də o torpağın üstündə var olasınız. Allah Sizi Azərbaycan xalqının başı üstündən əskik etməsin, amin!

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Bundan sonra xalqımız sülh içində yaşayacaq, inşallah. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram, xoşbəxt yaşayın.

**Sakinlər:** Sağ olun.

**Kişi sakin:** Cənab Prezident, şəkil çəkdirə bilərik?

**Prezident İlham ƏLİYEV:** Hə, çəkdirək.

**Kişi sakin:** 35 ildir gözləyirdik.

**Prezident İlham ƏLİYEV:** Harada yaşamısınız işğal dövründə?

**Kişi sakin:** Şəhər tərəfdə.

**Prezident İlham ƏLİYEV:** Bakıda?

**Kişi sakin:** Bakıda. Onun havasından qurtardıq, tıxacdan qurtarmışıq.

**Prezident İlham ƏLİYEV:** Tıxac, toz-torpaq, külək. Siz harada yaşamısınız işğal dövründə?

**Kişi sakin:** Ağcabədidə.

**Qadın sakin:** Ağcabədidə ona görə yaşamışıq ki, Qarabağa yaxındır, 50 kilometr, tez qayıtmaq üçün.

**Prezident İlham ƏLİYEV:** Hə, buradan çıxanda Ağcabədiyə köçdünüz?

**Qadın sakin:** Bəli, elə əvvəldən Ağcabədidə olmuşuq.

**Prezident İlham ƏLİYEV:** Orada şərait necə idi?

**Qadın sakin:** Yaxşı idi, amma bilirdik ki, nə vaxtsa qayıdacağıq.

**Digər qadın sakin:** Torpağımızın yerini heç nə vermir.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə.

**Qadın sakin:** Dərman atanlar da dərman atmır buraya gələndən.

**Prezident İlham ƏLİYEV:** Bax, burada hava dərmandır.

**Qadın sakin:** Həqiqətən elədir. Allah Sizi qorusun, övladlarınızı qorusun!

**Prezident İlham ƏLİYEV:** Bütün Qarabağ böyük bir kurort zonasıdır.

**Qadın sakin:** "Dəmir yumruq" həmişə yerində olsun!

**Prezident İlham ƏLİYEV:** Olacaq!

**Sakinlər:** Sağ olun, fəxr edirik ki, Sizin kimi Prezidentimiz var.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, sizə cansağlığı arzulayıram, xoşbəxt yaşayın.

**Sakinlər:** Sağ olun.

**Kişi sakin:** Yaxşı yol. Mən 59 təvəllüdəm, Siz 62.

**Prezident İlham ƏLİYEV:** Mən 61-əm.

**Qadın sakin:** Mən də 61-əm.

**Prezident İlham ƏLİYEV:** Həm adaşıq, həm yaşıdıq.

**Qadın sakin:** Nəvəmin də adı İlhamdır. Allah İlhamları qorusun!

**Kişi sakin:** Allah Sizi qorusun! Yaxşı yol, sağ-salamat.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

## Prezident İlham Əliyev Xocalının Xanabad kəndində görülmüş işlərlə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocalı rayonunun Xanabad kəndində görülmüş işlərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma kənddə görülmüş işlər barədə məlumat verdi.

Xanabad Xocalı rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxildir. Kənd Silahlı Qüvvələrimizin 2023-cü ildə həyata keçirdikləri antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

İşğaldan əvvəl kənddə orta məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Burada ölkə əhəmiyyətli XIII əsrə aid kilsə və IX əsrə aid "Aslan qalası" memarlıq abidələri var.

Kənddə ümumilikdə 276 ev var ki, onlardan da 115-i yararsız, 161-i isə qismən yararlıdır. İndiyədək 120 ev təmir olunub. Bu ilin sonunadək daha 41 ev istismara hazır olacaq. Bir neçə gün əvvəl 38 ailə - 154 nəfər kəndə qayıdıb.

Xanabadda bir sıra sosial layihələr icra olunub. Belə ki, mövcud 3 transformator məntəqəsi, elektrik və qaz xətləri bərpa edilib, eyni zamanda yeni elektrik, qaz və optik xətlər çəkilib, subartezian quyularında və su anbarında təmir işləri aparılıb, 2 yeni su anbarının qurulması işlərinə başlanılıb. Kəndin su təminatı üçün Əsgəran qəsəbəsinin ərazisində nasos stansiyası inşa edilib, kənddaxili yollar bərpa olunub. Kəndin girişində "Xanabad" kompozisiyası quraşdırılıb, Xanabad gölünün sahilində park salınıb, estakada inşa edilib və Dövlət bayrağı ucaldılıb.





❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva kəndə köçmüş Əmrah Sahiblinin evində oldular.

**Prezident İlham ƏLİYEV:** Salam.

**Qadın sakin:** Salam, xoş gördük.

**Nümayəndə:** Cənab Prezident, kənd buradan görünür elə. Arxasında yardımçı sahələr də var.

**Prezident İlham ƏLİYEV:** Necə yerləşmisiniz burada?

**Sakin:** Çox gözəl, Allah Sizdən razı olsun.

**Prezident İlham ƏLİYEV:** Gəlin, gəlin, uşaqlar. Ev necədir?

**Sakin:** Çox gözəl, Allah razı olsun.

**Prezident İlham ƏLİYEV:** Neçə gündür buradasınız, 5 gündür?

**Sakin:** 5 gün olar.



❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Adın nədir?

**Uşaq sakin:** Duyğu.

**Prezident İlham ƏLİYEV:** Duyğu? Gəl, gəl, Mehriban xanımla görüş.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Gəl buraya, görüşək.

**Sakin:** Xoş gəlmisiniz.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Harada yaşayırsan, göstər, hanı sənin otağın?

**Prezident İlham ƏLİYEV:** Şəraitiniz necədir?

**Sakin:** Salam. Çox yaxşıdır.

**Prezident İlham ƏLİYEV:** İşin var?

**Sakin:** Təmin ediblər.

**Prezident İlham ƏLİYEV:** Gəlin. İşlə təmin etmək üçün təkliflər verərsiniz.

**Nümayəndə:** Bəli, cənab Prezident İlham Əliyev. Artıq müraciət edib. Sürücü işləyir. Ümumiyyətlə, çalışırıq məşğulluqla bağlı Sizin tapşırığınızı yerinə yetirək.

**Prezident İlham ƏLİYEV:** Bəli, əlbəttə.

**Nümayəndə:** Xocalıya köçən əhalinin 4100 nəfərindən 1230 nəfəri daimi işlə təmin olunub. Müəssisələr də çoxdur. Açılışlarında Siz də iştirak edirsiniz.

**Prezident İlham ƏLİYEV:** Bəli, müəssisələr çoxdur. Məktəb də var. Müəllimlər necədir?

**Digər nümayəndə:** Biz 110 ailəni köçürəndən sonra müəllim kontingenti buraya yığılacaq. Çünki az əhali ilə açə bilmirik. Novruz bayramına qədər buraya 110 ailəni köçürəcəyik. Evlər hamısı hazırdır.



**Prezident İlham ƏLİYEV:** Sənin neçə yaşın var?

**Kişi sakin:** Otuz iki.

**Prezident İlham ƏLİYEV:** Sən işğaldan sonra anadan olmusan?

**Kişi sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Valideynlərin sağdır?

**Kişi sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Harada yaşayırlar?

**Kişi sakin:** Xanabad kəndində.

**Prezident İlham ƏLİYEV:** Bir daha təbrik edirəm.

**Sakin:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Gedək, bayırda şəkil çəkdirək. Əlini ver.

**Sakin:** İlham dayıya əlini ver. Afərin.

**Prezident İlham ƏLİYEV:** Sözəbaxan uşaqdır.

**Sakin:** Çox yaxşı uşaqdır, çox ağıllı oğlandır.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm.

**Sakin:** Çox sağ olun.

**Uşaq sakin:** Mən Sizi televizorda görəndə çox sevinirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Sağ olun.

# Baş nazir Əli Əsədov Türkiyə Böyük Millət Məclisinin komitə sədri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 25-də Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Bakıda keçirilən Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin onuncu üçtərəfli iclasının əhəmiyyəti vurğulanıb.

Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, xüsusilə parlamentlərarası əməkdaşlığın yüksək səviyyəsi təqdir edilib.

Görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin müxtəlif sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

# Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

**Fevralın 25-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin videokonfrans formatında iclası keçirilib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda əvvəlcə Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Müdafiə haqqında", "Veteranlar haqqında","Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Polis haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə təqdim edilib.

Komitənin sədri Arzu Nağıyev diqqətə çatdırıb ki, qanun layihəsi Azərbaycan Respublikasının qanunvericilik sisteminin təkmilləşdirilməsi və mövcud idarəetmə strukturuna uyğunlaşdırılması məqsədilə hazırlanıb. Layihəyə əsasən, hərbi komissarlıqların ləğvindən sonra yaradılmış Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə bağlı səlahiyyət bölgüsünün qanunvericilikdə aydın şəkildə təsbit edilməsi, terminoloji uyğunluğun təmin olunması və hüquqi tənzimləmənin daha dəqiq və səmərəli tətbiqi nəzərdə tutulur.

Daha sonra komitə sədri gündəliyin növbəti məsələsi - "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda müzakirəyə təqdim edib. Bildirilib ki, qanun layihəsinin əsas məqsədi müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilən qadın hərbi qulluqçuların xidmətə uyğunlaşma prosesinin daha səmərəli təşkili və bu sahədə mövcud praktiki çətinliklərin aradan qaldırılmasıdır. Qanun layihəsinə nəzərdə tutulan dəyişikliklərə əsasən, qadınlarla bağlanan ilkin müqavilə müddətinin 3 ildən 6 ayadək azaldılması təklif olunur. Komitə sədri vurğulayıb ki, dəyişiklik qadın hərbi qulluqçuların xidmətə uyğunlaşmasını asanlaşdıracaq və hərbi xidmətin təşkilinin səmərəliliyini artıracaq.

Onlayın iclasda iştirak edən Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi Elçin Əliyev və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Hüquq idarəsinin rəisi Bəxtiyar Hacıyev qanun layihələrinin mahiyyəti, məqsədi və nəzərdə tutulan dəyişikliklərin tətbiqi mexanizmləri ilə bağlı məlumat veriblər.

Müzakirələrdə komitənin üzvləri Hikmət Məmmədov, Səbinə Salmanova, Qaya Məmmədov, Ramid Namazov, Azər Kərimli, Samir Vəliyev, Rizvan Nəbiyev, Mahir Süleymanlı, Kamal Cəfərov, Parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid təqdim olunan məsələlər barəsində fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Sonda qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# YAP və AK Parti sədrlərinin müavinləri arasında görüş

**Fevralın 25-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə keçiriləcək tədbirdə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlunun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**



Görüşdə Azərbaycan ilə Türkiyə arasındakı bütün dünyaya nümunə olan sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində uğurla inkişaf edərək keyfiyyətcə yeni mərhələyə - strateji müttəfiqlik səviyyəsinə yüksəldiyi məmnunluqla vurğulanıb. Bu gün iki ölkənin bir-birinə qətiyyətli dəstək ifadə etdiyi, Böyük Öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətdir" kəlamlarının öz əməli təsdiqini tapdığı vurğulanıb.

2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn öhdəliklərin ardıcıl olaraq yerinə yetirilməsinin istər ikitərəfli əlaqələrin, istərsə də regionda çoxşaxəli işbirliyinin genişləndirilməsi kontekstində önəmi diqqətə çatdırılıb. Müstəqil, milli maraqlara və beynəlxalq hüquq normalarına əsaslanan siyasət həyata keçirərək dünyada söz və nüfuz sahibinə çevrilən iki müttəfiq dövlətin qlobal miqyasda bir-birini fəal şəkildə dəstəkləməsinin ortaq strateji hədəflərin gerçəkləşdirilməsi baxımından əhəmiyyəti xüsusi qeyd olunub.

Azərbaycanın ərazi bütövlüyünün və mütləq suverenliyinin bərpasından sonra regionda yeni reallıqların yarandığı, bu tarixi mərhələnin ölkələrimiz və partiyalarımız üçün milli prioritetlərdən irəli gələn mühüm vəzifələr müəyyənləşdirdiyi vurğulanıb.

Azərbaycan ilə Türkiyənin birgə təşəbbüslərinin bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etdiyi, ölkələrimizin birliyinin daha geniş coğrafiyada, o cümlədən türk dünyasında təhlükəsizlik və əməkdaşlıq faktoru olduğu, eləcə də son illərdə yüksələn güc mərkəzinə çevrilən Türk Dövlətləri Təşkilatının beynəlxalq münasibətlər sistemində mövqelərinin möhkəmlənməsinə mühüm töhfələr verdiyi bildirilib.

Görüşdə türk dövlətləri, o cümlədən etibarlı strateji müttəfiqlər olan Azərbaycan ilə Türkiyə arasında münasibətlərin inkişafı xüsusunda partiyalararası əlaqələrin gücləndirilməsinin zəruriliyi də vurğulanıb. 2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolunda əksini tapan vəzifələrin uğurla icra olunduğu qeyd edilərək aktual çağırışlar fonunda ortaq hədəflərə və yeni perspektivlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Partiyalar arasında fikir və təcrübə mübadiləsinin genişləndirilməsi üçün qarşılıqlı səfərlərin önəminin vurğulandığı görüş zamanı AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini Kürşad Zorlu Yeni Azərbaycan Partiyasının nümayəndələrini cari ildə Türkiyədə keçirilməsi nəzərdə tutulan Türk Dünyası Birinci Siyasət Forumuna dəvət edib.

*"Azərbaycan"*

# Nəsimi rayonunda Xocalı sakinləri ilə görüş olub

**Xocalı faciəsinin ildönümü respublikamızın hər yerində olduğu kimi Bakı şəhərinin Nəsimi rayonunda da geniş şəkildə qeyd olunur. Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən hazırlanmış tədbirlər planına uyğun olaraq rayonun idarə və təşkilatlarında, orta və ali təhsil müəssisələrində faciə ilə bağlı müxtəlif tədbirlər təşkil edilir.**



Faciənin 34-cü ildönümü ilə əlaqədar Nəsimi Rayon İcra Hakimiyyətində keçirilən görüşdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Görüşdə çıxış edən Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov Azərbaycan xalqının qan yaddaşı olan Xocalı faciəsi, ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri vəhşiliklər və bu soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində görülmüş işlər barədə ətraflı məlumat verib. Bildirilib ki, faciənin beynəlxalq miqyasda tanıdılması istiqamətində Ulu Öndər Heydər Əliyevin mühüm xidmətləri olub. Məhz onun təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisində ilk dəfə bu məsələyə siyasi qiymət verilib və faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində sistemli işlərə başlanılıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Xocalı faciəsinin ildönümü hər il həm respublikamızda, həm də ölkə hüdudlarından kənarda geniş şəkildə qeyd olunur.

Xüsusi vurğulanıb ki, Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsi dövlətimizin və xalqımızın iftixar mənbəyinə çevrilib. Bu müharibədə Azərbaycan xalqı milli həmrəyliyini və gücünü bütün dünyaya nümayiş etdirərək 30 ildən artıq işğal altında olan torpaqlarını azad etdi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu.

Bildirilib ki, 2020-ci il Vətən müharibəsindən və 2023-cü il birgünlük antiterror tədbirindən sonra yaranmış yeni reallıqlar Xocalıya qayıdış üçün şərait yaradıb. "Böyük qayıdış" proqramı çərçivəsində Xocalı şəhərinin bərpası, yaşayış evlərinin və infrastrukturun yenidən qurulması istiqamətində işlər davam etdirilir. Bu gün Xocalı sakinlərinin mərhələli şəkildə doğma yurdlarına qayıdışı dövlət strategiyasının əsas prioritetlərindən biridir.

Tədbirdə çıxış edən Xocalı sakinləri Sahibə Şahmuradova, Tacəddin Səfərov və Məlahət Məmmədova onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

*"Azərbaycan"*

# AMEA: Ramiz Mehdiyevin həqiqi üzvlükdən xaric edilməsi məsələsi qanunvericiliyin tələblərinə riayət olunmaqla həll ediləcək

**Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ibtidai istintaqı davam etdirilən və barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş Ramiz Mehdiyevin Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlüyündən çıxarılması məsələsi ilə bağlı akademiya tərəfindən ictimaiyyətə bir neçə dəfə rəsmi açıqlama verilib. Akademiyanın rəhbərliyi bir daha Ramiz Mehdiyevin dövlət əleyhinə törətdiyi əməlləri qətiyyətlə pisləyir və bağışlanmaz olduğunu bildirir.**

Akademiyadan AZƏRTAC-a bildirilib ki, Ramiz Mehdiyevin akademiyanın həqiqi üzvlüyündən xaric edilməsi məsələsi qüvvədə olan qanunvericiliyin tələblərinə riayət olunmaqla həll ediləcək: "Ona qarşı irəli sürülmüş ittihamlar üzrə təqsirliliyi məhkəmə hökmü ilə təsdiq edildiyi halda, məsələ Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı üzvlərinin müzakirəsinə çıxarılacaq və müvafiq qərar qəbul ediləcək.

Azərbaycan Milli Elmlər Akademiyası fəaliyyətində hüququn aliliyini, qanunçuluq prinsiplərini və hüquqi prosedurların şəffaflığını əsas kimi rəhbər tutduğunu bir daha vurğulayır".

# Xocalı faciəsini törədənlərin hamısı ədalət məhkəməsi qarşısında cavab verəcəklər

**Bəşər tarixində, cəmiyyətin inkişaf mərhələlərində "ədalət" mövhumu, cəzanın labüdlüyü məsələləri daim diqqət mərkəzində olmuş və qədim filosofların, müasir mütəfəkkirlərin fikir bildirdikləri, müzakirə və mübahisə etdikləri bir paradiqma olmuşdur.**

Törədilən cinayət əməllərinə görə cinayətkarlara cəza verilməsi, onların dövlət adından tənbeh edilməsi, ictimai qınağa məruz qalmaları, beləliklə, sosial ədalətin bərpası müxtəlif ictimai-siyasi formasiyalarda həmişə fərqli yanaşma ilə təmin edilmişdir. Ayrı-ayrı ölkələrdə, müxtəlif dini baxışlar, müxtəlif hakim cərəyanlar, müxtəlif baxışlar cəzaların rəngarəngliyi, müxtəlifliyi baxımından həmişə fərqli olmuş və bu gün də müxtəlif dövlətlərdə fərqli yanaşmalar mövcuddur. Lakin yazılmamış bir qanun, bir prinsip həmişə mövcud olmuşdur. Bu gün də gündəmdədir ki, o da "ilahi ədalət" prinsipidir. Yəni törədilən cinayətlərə görə hökmən cəza veriləcəkdir. Və cinayəti törətmiş şəxslərin kimliyindən, şəxsiyyətlərindən asılı olmayaraq cəzanın labüdlüyü prinsipinin təntənəsi həmişə qalib gəlmişdir. Bax, bu təntənə isə "ilahi ədalət" adlanır. 1992-ci il 26 fevralda Xocalı soyqırımını törətmiş və bu günədək cəzasız qalmış cinayətkarların bu gün, nəhayət ki, ədalət mühakiməsi qarşısında dayanmaları və cəzanın labüdlüyünü hiss etmələri həmin "ilahi ədalət"in təntənəsinin bariz nümunəsidir.

Bir az tarixi baxımdan geriyə qayıdaraq 1992-ci ilin soyuq, şaxtalı 26 fevralında erməni separatçılarının dinc Xocalı sakinlərinə qarşı törətdikləri soyqırımı cinayətinin təfərrüatlarını yada saldıqda günü bu gün də insanı dəhşət bürüyür. Təəccüblənirsən ki, nə qədər vəhşiləşmiş, qaniçən, insani keyfiyyətlərdən uzaq, insanlığa nifrət hissi ilə zəhərlənmiş düşüncəyə malik olasan ki, günahsız, silahsız, köməksiz insanlara, qocalara, qadınlara, məsum körpələrə qarşı insanların şüuruna sığmayan, vəhşi üsul və vasitələrlə cinayət törədilməsinə, insanların qətlə yetirilməsinə əl atasan. 1992-ci ildən bu günədək Xocalı soyqırımını törətmiş şəxslərin məhkəmə məsuliyyətinə veriləcəklərinə, layiqli cəza alacaqlarına, torpaqlarımızın ərazi bütövlüyünün təmin ediləcəyinə bir gün də olsun şübhə etməmişdim. Və bu günlərdə separatçıların barəsində keçirilən Bakı Məhkəmə Kompleksinin məhkəmə iclas zalında əyləşərkən, bir zamanlar özlərini qəhrəman hiss edən, silahsız insanlara qarşı ağlasığmaz cinayətləri törədən həmin cinayətkarların rəzil görkəmlərini müşahidə edərkən tamam fərqli hislər yaşadım və həmin "ilahi ədalət"in mövcudluğuna, labüdlüyünə bir daha inandım, əmin oldum.

Dövlətimizin bu "ilahi ədalət"i həyata keçirmək qüdrətinə görə qürur hissi keçirdim. Azərbaycan Respublikasının adından Azərbaycan Respublikasının ərazi bütövlüyünə, onun ictimai-siyasi quruluşuna, Azərbaycan Respublikası vətəndaşlarına qarşı cinayət törətmiş şəxsləri mühakimə edən hakimlərin ədalətli, obyektiv, qərəzsiz mühakimə icraatı apardıqlarının şahidi oldum. Azərbaycan xalqına, sadə vətəndaşlara qarşı soyqırımı törətmiş silahsız insanları, köməksiz qocaları, məsum körpələri qətlə yetirərkən özlərini qəhrəman hesab edən xəstə xislətli erməni millətçilərinin, onların döyüşçülərinin, dırnaqarası "rəhbərlərinin", "psevdoliderlərinin" aciz, müti, kölə simalarını görəndə bir daha "ilahi ədalət"in təntənəsinə inandıq. Lakin bu "ilahi ədalət"in təntənəsini görmək üçün dövlətimiz tərəfindən keçən müddət ərzində titanik çoxsahəli işlər görülmüşdür. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü ilin may ayında erməni silahlı birləşmələrini atəşkəs rejiminin imzalanmasına məcbur edən ilkin əkshücum əməliyyatı həyata keçirilmişdir. Ulu Öndərin uzaqgörənliyi və siyasi iradəsi ilə dövlətimizin iqtisadi qüdrətinin möhkəmləndirilməsinin və bilavasitə ordu quruculuğunun maddi-texniki təminatının əsasını qoymuş 1994-cü ilin sentyabr ayında "Əsrin müqaviləsi"nin bağlanmasıdır. 12 noyabr 1995-ci ildə müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsi və dövlətimizin bütün ictimai-siyasi həyatının yenidən qurulması, 2001-ci ilin 27 yanvar tarixində Ulu Öndərin tövsiyəsi ilə Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməyimiz və bu platformadan Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Ulu Öndər tərəfindən Birləşmiş Millətlər Təşkilatının ali kürsüsündən "Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasının" bəyan edilməsi, eyni zamanda intensiv ordu quruculuğu, dövlətimizin "Hərbi doktrina"sının işlənib hazırlanması, müasir tipli müdafiə və hücum silahlarının alınması, dövlət-ordu-xalq birliyinin yaradılması həyata keçirilmişdi. Ölkədə ictimai-siyasi sabitlik, ordunun döyüş ruhu, vətəndaşlarımızın yüksək vətənpərvərlik həmrəyliyi təmin edilmişdir.

Bunun məntiqi nəticəsi Azərbaycan Respublikası Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi İlham Əliyevin birbaşa rəhbərliyi ilə 2020-ci ilin 27 sentyabrında erməni təxribatı nəticəsində başlayan Vətən müharibəsinin 44 gün ərzində qələbə ilə başa çatmasıdır. Xankəndi, Şuşa, Füzuli, Cəbrayıl, Laçın, Qubadlı, Zəngilan, Ağdam, Kəlbəcər rayonları işğaldan azad edilmiş, dövlətimizin ərazi bütövlüyü təmin olunmuşdur. Və bu hadisələr fonunda erməni millətindən olan separatçıların bir qisminin müəyyən edilərək tutulması, istintaqa cəlb edilməsi, Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən istintaqın yüksək peşəkarlıqla, qanunauyğun surətdə, intensiv aparılaraq başa çatdırılması və cinayətkarların məhkəmə məsuliyyətinə verilməsi təmin edilmişdir. Separatçıların dayanmaq bilməyən köhnə və yeni havadarlarının yenə insan haqlarının pozulmasına, separatçıların guya istintaq gedişində hüquqlarının pozulmasına dair əsassız iddiaları İnsan Haqlarına dair Avropa Məhkəməsi və BMT-nin müvafiq qətnamələri ilə təkzib edilmişdir.

Separatcılardan beş nəfəri -Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, David İşxanyan, David Babayan ömürlük həbs cəzasına, digərlərisə uzunmüddətli azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişlər.

Cənab Ali Baş Komandan İlham Əliyev tərəfindən aparılan daxili və xarici siyasət nəticəsində Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunun artması, dövlətimizin başçısının sülhsevər, xalqımız tərəfindən sevilən və dəstəklənən, öz xalqına, ordumuzun gücünə inanan bir lider olması və Azərbaycanın dövlət maraqlarını hər şeydən uca tutması inam verir ki, nəinki Xocalı sakinlərinə qarşı, hətta bütün soydaşlarımıza, - Bağanıs Ayrım, Qaradağlı, Ağdaban, Başlıbel sakinlərinə qarşı cinayətlərin törədilməsində iştirakı olan və hələlik məsuliyyətdən yayınan Robert Köçəryan, Serj Sarkisyan, Serqey Ohanyan və digərləri də tutulub Azərbaycana gətiriləcək və onların məhkəməsi artıq azad Qarabağda - Xankəndidə keçiriləcəkdir.

Eyni zamanda bizim hər birimizin vətəndaş borcumuzdur ki, çalışdığımız iş və tutduğumuz vəzifədən asılı olmayaraq vətəndaş mövqeyi sərgiləyək, dövlət-xalq-ordu birliyinə öz töhfəmizi verək, dövlətimizin müasir təhdidlərdən qorunmasında cənab Ali Baş Komandan İlham Əliyevin daxili və xarici siyasətini dəstəkləyək. Bununla da ilahi ədalətin bərqərar olmasına, xalqımıza qarşı soyqırımı cinayəti törətmiş bütün şəxslərin tutulub gətirilərək məhkəmə məsuliyyətinə verilməsinə yardımcı olaq.

***Zahid VƏLİYEV,***
***Qarabağ müharibəsi veteranı***




# XX əsrin faciəsi - Xocalı soyqırımı



# Xocalı: unudulmayan tarix, bərpaolunan gələcək

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində Azərbaycan tarixinin ən dəhşətli faciələrindən biri baş verdi. Ermənistan silahlı qüvvələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının dəstəyi ilə şəhərə hücum edərək dinc azərbaycanlı əhaliyə qarşı kütləvi qırğın törətdilər.**



Şəhəri tərk etməyə məcbur olan sakinlər erməni hərbi postlarının pusqusuna düşmüş, onların əksəriyyəti amansızcasına qətlə yetirilmişdir. Yüzlərlə insan sərt qış şəraitində donaraq həyatını itirmiş, öldürülənlər arasında qadınlar, uşaqlar və qocalar da olmuşdur. Əhaliyə qarşı işgəncələr və qeyri-insani rəftar faciənin miqyasını daha da ağırlaşdırmışdır.

Xocalı soyqırımı nəticəsində 63 uşaq, 106 qadın, 70 qoca olmaqla ümumilikdə 613 nəfər xüsusi qəddarlıqla qətlə yetirilmiş, 8 ailə tamamilə məhv edilmişdir. Bu faciə yalnız insanlara qarşı deyil, eyni zamanda mədəni irsə qarşı törədilmiş cinayət idi. Şəhərdə 3200 fərdi yaşayış evi, 105 sosial-məişət obyekti, 14 məktəb, 21 klub, 29 kitabxana və digər mədəniyyət ocaqları dağıdılmış, tarixi abidələr, qəbiristanlıqlar və türbələr yerlə yeksan edilmişdir.

Xocalı soyqırımına dövlət səviyyəsində siyasi-hüquqi qiymətin verilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul etmişdir. Ulu Öndərin 25 fevral 1997-ci il tarixli sərəncamına əsasən isə hər il fevralın 26-sı saat 17:00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir.

Xalqımızın XX əsrdə üzləşdiyi bu dəhşətli faciə yalnız Holokost soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı hadisə ilə müqayisə oluna bilər. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.

"Soyqırımı" anlayışının hüquqi mənası BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 A (III) saylı qətnaməsi ilə qəbul etdiyi "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında" Konvensiya ilə müəyyən edilmişdir və hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi niyyəti ilə bir qrupun üzvlərinin qətlə yetirilməsi, onlara ciddi bədən xəsarətləri və əqli pozğunluq yetirilməsi, qəsdən onun tam və ya qismən məhvinə hesablanmış həyat şəraitinin yaradılması, uşaq doğumunun qarşısının alınmasına hesablanmış tədbirlər, uşaqların zorakılıqla bir insan qrupundan digərinə verilməsi kimi hərəkətləri ehtiva edir. Bu konvensiyaya əsasən, Xocalıda baş verən qətliam soyqırımı cinayətinin bütün meyarlarına uyğundur.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verənlər mülki əhaliyə qarşı törədilmiş ən dəhşətli vəhşiliklərdən biri idi. Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən 366-cı motoatıcı alayın dəstəyi ilə şəhəri işğal edərək, yüzlərlə dinc sakini amansızlıqla qətlə yetirdi. Rəsmi istintaq nəticəsində müəyyən edilib ki, bu hücumlar beynəlxalq hüquq baxımından soyqırımı cinayətinin öldürmə və ağır fiziki-mənəvi işgəncələr, xüsusi mühafizə olunan etnik qrupun məhv edilməsi, azərbaycanlıların irqi, etnik və milli mənsubiyyətinə görə qəsdən hədəfə alınması kimi elementləri özündə birləşdirərək beynəlxalq hüquqda "soyqırımı cinayəti" anlayışına tam uyğun gəlir.

Xocalı soyqırımı bir çox ölkənin parlament aktlarında tanınmış və qınanmışdır. Bu faciə Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstan kimi ölkələrin qanunverici orqanları tərəfindən qəbul edilən qətnamələrdə qeyd olunmuşdur. Bundan əlavə, 2012-ci ildə İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurası Xocalı faciəsini soyqırımı kimi tanımışdır. 2013-cü ilin fevralında Qahirədə keçirilmiş İƏT İslam Zirvə Konfransında qəbul edilən yekun sənəddə üzv dövlətlər Xocalı soyqırımının tanınması üçün səylər göstərməyə çağırılmışdır.

"Xocalıya ədalət!" kampaniyasının təşəbbüskarı və müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevadır. Bu beynəlxalq maarifləndirmə kampaniyasına 2008-ci ildə start verilmişdir. Kampaniya bir çox ölkədə səmərəli şəkildə fəaliyyət göstərir.100 minlərlə şəxs və 115 təşkilat kampaniyanın fəaliyyətini dəstəkləyir. Sosial şəbəkələrdə təşviqat, sərgilər, toplantılar, müsabiqələr, konfranslar, seminarlar və digər tədbirlər kampaniyanın məqsədlərinə çatmaq üçün istifadə olunan səmərəli vasitələri təşkil edir.

Justice for Khojaly informasiya portalı və "Xocalıya ədalət!" beynəlxalq kampaniyası Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması, ona hüquqi-siyasi qiymət verilməsi və məsul şəxslərin cəzalandırılması istiqamətində sistemli informasiya və təbliğat fəaliyyətini həyata keçirən mühüm platformalardır. Bu təşəbbüslər dünya ictimaiyyətinin məlumatlandırılması, tarixi ədalətin bərpası, qurbanların xatirəsinin yaşadılması və beynəlxalq hüquq normalarına əsaslanan məsuliyyət mexanizmlərinin formalaşdırılması kimi strateji məqsədlərə xidmət edir.

Xocalı hadisələri ilə bağlı xarici media orqanlarının - o cümlədən "The Times", "Financial Times", "Le Monde" və "İzvestiya" kimi nüfuzlu nəşrlərin yaydığı məlumatlar faciənin beynəlxalq informasiya məkanında geniş əks-səda doğurduğunu göstərir. Bu materiallar Xocalıda baş verənlərin miqyasını və mahiyyətini beynəlxalq ictimai rəyə çatdırmaqla hadisələrin qlobal humanitar və siyasi problem kimi qiymətləndirilməsinə töhfə vermişdir.

2020-ci il Vətən müharibəsi xalqımızın 30 illik doğma yurd həsrətinə son qoydu. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmən üzərində qəti qələbə qazanaraq, torpaqlarımızı işğaldan azad etdi. 44 günlük müharibədə göstərilən qəhrəmanlıq və vətənpərvərlik nəticəsində Xocalı şəhidlərinin də qanı yerdə qalmadı. Azərbaycan Ordusu "dəmir yumruq" əməliyyatı ilə düşmənə layiqli cavab verdi, Xocalı soyqırımını törədənlərin arzuladığı "cəzasızlıq" dövrü bitdi. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal antiterror əməliyyatı nəticəsində Xocalı şəhəri separatçılardan tamamilə təmizləndi. Bununla da xalqımız üçün böyük tarixi ədalət bərpa olundu.

2023-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı şəhərində dövlət bayrağını ucaldaraq bu müqəddəs torpaqların artıq əbədi olaraq dövlətimizin tərkibində olduğunu dünyaya bəyan etdi.

Xocalı faciəsi hər il 26 fevralda Azərbaycan xalqı tərəfindən dərin ehtiramla anılır. 1993-cü ildən bəri paytaxt Bakıda "Ana harayı" abidəsi önündə minlərlə insanın iştirakı ilə anım mərasimləri keçirilir. 2022-ci ildə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Bakıda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə ümumxalq yürüşü təşkil olundu. Bu tədbir Xocalı faciəsinin heç vaxt unudulmayacağını və xalqın vahid mövqedə olduğunu bir daha sübut etdi.

Xocalı şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması dövlət səviyyəsində tarixi yaddaşın qorunması və Xocalı faciəsinin beynəlxalq miqyasda tanıdılması istiqamətində həyata keçirilən mühüm addımlardan biridir. İlham Əliyevin imzaladığı sərəncama əsasən, həyata keçirilən bu layihə soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və Xocalı faciəsinin miqyasının dünya ictimaiyyətinə təqdim olunmasına xidmət edir. Heydər Əliyev Fondunun iştirakı ilə yaradılan kompleks həm tarixi faktların nümayişi, həm də kollektiv yaddaşın formalaşdırılması baxımından mühüm ideoloji və mədəni əhəmiyyət daşıyır.

Xocalı şəhəri və rayonun kəndlərinə əhalinin mərhələli şəkildə köçürülməsi işğaldan azad edilmiş ərazilərdə həyatın bərpası, sosial-iqtisadi inkişafın təmin olunması və regionda dayanıqlı məskunlaşmanın formalaşdırılması siyasətinin tərkib hissəsidir. Bu proses dövlətin postmünaqişə dövründə ərazilərin yenidən qurulması, infrastrukturun bərpası və əhalinin doğma torpaqlarına qayıdışının təmin edilməsi istiqamətində həyata keçirdiyi strateji tədbirlərin davamlı xarakter daşıdığını göstərir.

Prezident İlham Əliyevin Xocalıya mütəmadi səfərləri regionda aparılan bərpa-quruculuq işlərinə birbaşa nəzarətin həyata keçirildiyini, dövlət suverenliyinin möhkəmləndirilməsini və sosial-iqtisadi inkişafın sürətləndirilməsini əks etdirir. Bu səfərlər çərçivəsində infrastruktur layihələrinin icrası, iqtisadi fəaliyyətin genişləndirilməsi, əhalinin məskunlaşdırılması və tarixi-mədəni irsin qorunması istiqamətində görülən tədbirlər dövlət siyasətinin prioritetlərini nümayiş etdirir. Eyni zamanda bu fəaliyyətlər Xocalının yenidən dirçəldilməsi və regionun uzunmüddətli inkişaf strategiyasının həyata keçirilməsi baxımından mühüm siyasi və praktiki əhəmiyyət kəsb edir.

Bununla belə, 5 fevral 2026-cı il tarixində Ermənistan tərəfindən Azərbaycana qarşı həyata keçirilmiş hərbi təcavüz nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanun və qaydalarının pozulması, habelə terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, hakimiyyətin zorla ələ keçirilməsi və zorla saxlanılması kimi çoxsaylı cinayətləri törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları barəsində məhkəmə prosesi başa çatmışdır.

Nəticə etibarilə Xocalı soyqırımının iştirakçıları olan Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərləri barəsində açıq məhkəmə iclaslarında baxılan cinayət işləri üzrə yekun qərar qəbul edilmiş və həmin şəxslər törətdikləri əməllərə görə müvafiq qaydada cəzalandırılmışlar.

Xocalı faciəsi Azərbaycan xalqının yaddaşında sağalmaz bir yara olsa da, bu torpaqların azad edilməsi və bərpası xalqımızın qürur və qətiyyət simvoludur. Müzəffər Azərbaycan Ordusu Xocalı şəhidlərinin qisasını aldı, onların qanı yerdə qalmadı. Bu gün Xocalı artıq qara xatirələr şəhəri deyil, Azərbaycanın əzəmətinin və yenilməzliyinin rəmzi kimi yenidən qurulur. Xocalıya qayıdış sıradan bir qayıdış deyil, bu, xalqımızın tarixi ədaləti bərpa etməsinin, gücünün və iradəsinin sübutudur. Azərbaycan xalqı və dövləti Xocalını yenidən qurmaqda, orada həyatın bərpa olunmasında və keçmişin acı xatirələrini gələcək nəsillər üçün şanlı qələbəyə çevirməkdə qətiyyətlidir. Xocalıya ədalət bərpa olundu! Xocalını unutmadıq, unutdurmadıq və heç vaxt unutmayacağıq!

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini***

# Xocalı şəhidlərinin qanı yerdə qalmadı

**Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən işğal siyasəti etnik təmizləmə, soyqırımı kimi insanlıq əleyhinə cinayətləri özündə ehtiva edir. 34 il əvvəl, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu.**



Faciə günü Xocalı şəhərini tərk edən əhali pusquya salındı, qətlə yetirildi və ya əsir götürüldü. Hücum başladıqdan sonra şəhərdə qalan 2500-ə yaxın əhali azərbaycanlıların nəzarətində olan ən yaxın məkana çatmaq məqsədilə şəhəri tərk etməyə cəhd göstərdilər. Əsasən, qadın və uşaqlardan ibarət əhalinin qalan hissəsi dağlarda təqibdən gizlənən zaman donvurma nəticəsində həlak oldular.

Bu soyqırımı nəticəsində uşaq, qadın və yaşlılar da daxil olmaqla, 613 nəfər vəhşicəsinə qətlə yetirildi. 150 nəfərin taleyindən bu vaxta qədər heç bir məlumat yoxdur. Beynəlxalq hüquqa görə hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi niyyəti ilə edilən hərəkətlər soyqırımı hesab olunur. Xocalıda baş verənlərin soyqırım olması faktlarla sübuta yetirilib. Burada mülki əhaliyə qarşı vəhşicəsinə xüsusi qəddarlıq, cinayətlər törədilib.

Bu illər ərzində Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması istiqamətində intensiv işlər aparılıb. Bu prosesdə təşəbbüskarı və müəllifi Leyla xanım Əliyeva olan "Xocalıya ədalət!" kampaniyası çərçivəsində dünyanın müxtəlif ölkələrində anım mərasimləri keçirilir, həqiqətlər dünya ictimaiyyətinə çatdırılır. 2008-ci ildən start götürən kampaniyanın fəaliyyəti yüz minlərlə şəxs və 115 təşkilat tərəfindən dəstəklənir. 20-yə yaxın ölkənin parlamenti, həmçinin ABŞ-nin 20-dən çox ştatı tərəfindən Xocalı soyqırımı ilə bağlı müvafiq parlament qətnamələri qəbul edilib.

Ulu Öndər Heydər Əliyev Xocalı faciəsini "bütün bəşəriyyətə qarşı tarixi cinayət", cənab Prezident İlham Əliyev isə "200 ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsi" adlandırıb.

Azərbaycan 28 ildən sonra - 2020-ci il 44 günlük Vətən müharibəsində ərazi bütövlüyünü bərpa etdi. Şanlı Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində Xocalı şəhidlərinin qanı yerdə qalmadı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şəhidlərimizin qisası alındı. Xocalı şəhəri isə 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror əməliyyatı nəticəsində separatçılardan təmizləndi. Cənab Prezident 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının dövlət bayrağını ucaltdı.



Prezident İlham Əliyevin söylədiyi kimi, İkinci Qarabağ müharibəsi 2020-ci ilin noyabrında dayanandan sonra yenə də bütün köçkünlər bilirdilər ki, Xocalı azad olunmayana qədər biz işimizi bitmiş hesab etməyəcəyik.

Xocalının azad edilməsindən sonra şəhərin yenidən qurulması dövlət səviyyəsində prioritet elan olunub. Bərpa prosesi mərhələli və kompleks şəkildə həyata keçirilir. Şəhərin müasir şəhərsalma standartlarına uyğun qurulması üçün yeni baş plan hazırlanıb. Keçmiş məcburi köçkünlərin mərhələli qayıdışı üçün fərdi evlər və çoxmənzilli binalar inşa edilir. Xocalının bərpası bu bölgənin sosial-iqtisadi həyatının dirçəldilməsi deməkdir. Əsas hədəf sakinlərin təhlükəsiz, rahat və ləyaqətli şəkildə doğma torpaqlarına qayıdışını təmin etmək və Xocalını inkişaf edən müasir məkana çevirməkdir.

Xocalı soyqırımı Azərbaycan xalqının yaddaşında sağalmaz yara olaraq qalır. Hər il fevralın 26-da ölkəmizdə faciə qurbanlarının xatirəsi ehtiramla yad edilir. Xocalı qurbanlarının xatirəsi daim yaşayacaq və gələcək nəsillərə ötürüləcək.

Dövlət başçımızın da söylədiyi kimi, "biz işğalı necə unuda bilərik?! Şəhidlərimizi necə unuda bilərik?! Xocalı qurbanlarını, digər günahsız insanların həlak olmasını necə unuda bilərik?! Heç vaxt unuda bilmərik və unutmamalıyıq".

***Nigar MƏMMƏDOVA,***
***Milli Məclisin deputatı***




# XX əsrin faciəsi - Xocalı soyqırımı



# Azərbaycan dövləti öz gücü hesabına ədaləti bərqərar etdi

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində bəşər tarixinin ən qanlı faciələrindən biri yaşandı. Azərbaycan tarixinə qanlı hərflərlə yazılan həmin gecə silahlı erməni dəstələri keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının ağır texnikası və şəxsi heyətinin köməyi ilə Azərbaycanın bu qədim şəhərinə hücum edərək dinc sakinlərimizə qarşı dəhşətli qırğın törətdi. Faciə günü Xocalı şəhərini tərk edən əhali pusquya salındı və Naxçıvanlı, habelə Pircamal kəndləri yaxınlığında erməni hərbi postları tərəfindən ya atəşə tutularaq qətlə yetirildi, ya da əsir götürüldü. Bu soyqırımı zamanı 613 nəfər öldürüldü, onlardan 63-ü uşaq, 106-sı qadın, 70 nəfəri isə qoca idi. Bu amansız qırğında 8 ailə tamamilə məhv edildi.**

Hücum başladıqdan sonra şəhərdə qalan 2500-ə yaxın əhali azərbaycanlıların nəzarətində olan ən yaxın məntəqəyə çatmaq məqsədilə şəhəri tərk etməyə cəhd göstərdilər. Əsasən qadın və uşaqlardan ibarət əhalinin qalan hissəsi dağlarda düşməndən gizlənən zaman donvurma nəticəsində həlak oldu.



İyirminci əsrin sonlarında bütün bəşəriyyətin gözü önündə törədilən bu cinayət erməni millətçilərinin təcavüzkar siyasətinin əyani sübutudur. Azərbaycan dövləti ötən illər ərzində bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün bütün zəruri addımları atdı. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etdi. Bu cinayətlə bağlı həqiqətlərin dünya birliyinə çatdırılması üçün davamlı fəaliyyət həyata keçirildi.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə başladılan "Xocalıya ədalət!" kampaniyası çərçivəsində dünyanın müxtəlif ölkələrində mühüm tədbirlər həyata keçirildi. Çoxsaylı sərgilər, toplantılar, müsabiqələr, konfranslar, seminarlar, aksiyalar və digər tədbirlər təşkil olundu, həmçinin sosial media üzərindən uğurlu təşviqat həyata keçirildi.

Ali Baş Komandanın müdrik sərkərdəliyi, ordumuzun gücü və xalqımızın sarsılmaz iradəsi, birliyi nəticəsində ədalət bərpa olundu. Tarixi torpaqlarımız işğalçılardan təmizləndi, ərazi bütövlüyümüz və dövlət suverenliyimiz tam bərpa olundu.

Bu gün bütün şəhidlərimizin, Xocalı qurbanlarının ruhları rahatdır. Artıq Xocalıda üçrəngli bayrağımız qürurla dalğalanır. Xalqımıza qarşı cinayətlər törətmiş şəxslər Azərbaycanın ədalət mühakiməsi qarşısında cavab verdilər və layiqli cəzalarını aldılar. Azərbaycan xalqı və dövləti öz gücü hesabına ədaləti bərqərar etdi.

Bu gün digər azad olunmuş ərazilərimiz kimi Xocalıda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, xocalılıların öz doğma torpaqlarına qayıdışı təmin olunur. Dövlətimizin gücü hesabına bölgəmizdə sülh, əmin-amanlıq təmin edilir.

Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, xalqımız bu ağır faciələri heç zaman unutmayacaq. Soyqırımı qurbanlarının, şəhidlərimizin əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

***Şahin İSMAYILOV,***
***Milli Məclisin Gənclər və idman komitəsinin sədri***

# Xocalı və Srebrenitsa: insanlığın dərs çıxarmadığı faciələr

**"1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verən faciə tarixə dünyanın ən dəhşətli və qanlı səhifələrindən biri kimi düşüb. Dinc əhaliyə qarşı törədilmiş bu kütləvi qırğın nəticəsində yüzlərlə günahsız insan həlak olub, minlərlə ailənin taleyi darmadağın edilib. Buna bənzər hadisələr təxminən eyni dövrdə Srebrenitsada da törədildi. Xocalı və Srebrenitsa hadisələri bu gün də beynəlxalq humanitar hüquq, mülki əhalinin münaqişələr zamanı qorunması və cinayətlərin hüquqi-siyasi qiymətləndirilməsi kontekstində aktual olaraq qalır. Bu soyqırımılar XXI əsrdə, bütün dünyanın gözü qarşısında baş verməsinə baxmayaraq, bəşəriyyətin hələ də keçmişdə yaşanan oxşar faciələrdən lazımi dərs çıxarmadığını açıq şəkildə göstərir".**




Bunu AZƏRTAC-a açıqlamasında Karabük Universitetinin müəllimi, beynəlxalq münasibətlər və sülh araşdırmaları üzrə ekspert İbrahim Fevzi Güvən bildirib.

"Sülh və münaqişə mövzusunda araşdırmalar göstərdi ki, həm soyqırımın icra mexanizmləri, həm də azərbaycanlıların və bosniyalıların müharibə zamanı və sonrasında yaşadıqları bu iki faciə arasında çox ciddi oxşarlıqlar mövcuddur. Təəssüf ki, aktorlar və tərəflər dəyişsə də, bu cür faciələrdə yaşanan ağrılar dəyişmir", - deyə o vurğulayıb.

İbrahim Fevzi Güvən qeyd edib ki, bu cür kütləvi qırğınlar ani nifrət partlayışları deyil, planlı siyasi və hərbi strategiyaların tərkib hissəsi kimi həyata keçirilir.

"Xocalı, Srebrenitsa və oxşar nümunələrdə ortaq məqam ondan ibarətdir ki, təcavüzkar tərəf beynəlxalq ictimaiyyətin müdaxiləyə hazır olmadığını və ya kifayət qədər güclü reaksiya göstərməyəcəyini gördükdə bunu hücum üçün yaşıl işıq kimi qiymətləndirir. Beynəlxalq ictimaiyyət bu günədək belə cinayətlərə mane ola biləcək təsirli mexanizmlər yarada bilməyib. Bu şəraitdə hər bir dövlət öz xalqını qorumaq üçün müdafiə imkanlarını gücləndirməyə məcburdur. Çünki bu cür soyqırımları mümkün edən əsas amillərdən biri beynəlxalq ictimaiyyətin passivliyi, digəri isə müdafiəsiz mülki əhalinin hədəf alınmasıdır", - deyə türk ekspert bildirib.

İbrahim Fevzi Güvən qeyd edib ki, əgər beynəlxalq ictimaiyyət təcavüzkarlara çəkindirici real mexanizmlər yarada bilsəydi bu gün Xocalı və Srebrenitsa soyqırımlarından danışmazdıq: "Bu cür cinayətləri təcavüzkar tərəf üçün "cəlbedici" edən əsas amillərdən biri də etnik təmizləmə və soyqırımı nəticəsində yaranan yeni demoqrafik reallıqların sonradan qəbul edilməsidir. Etnik təmizləmə və soyqırımı yolu ilə əldə edilən ərazilər və zorla dəyişdirilən əhali strukturları sülh danışıqlarında təcavüzkar tərəfə üstünlük qazandırmamalıdır. Müharibə cinayətləri və insanlığa qarşı cinayətlər nəticəsində əldə edilən heç bir "qazanc" beynəlxalq hüquq tərəfindən legitim sayılmamalıdır".

O xatırladıb ki, Azərbaycan da uzun illər oxşar ədalətsizliklə üzləşib və Xocalı soyqırımının baş verdiyi Birinci Qarabağ müharibəsindən sonra işğal edilmiş ərazilərin azad olunması üçün beynəlxalq ictimaiyyət effektiv addımlar atmayıb. Nəticədə Azərbaycan beynəlxalq hüquqa əsaslanan legitim özünümüdafiə hüququndan istifadə etməyə məcbur oldu.

Ekspert vurğulayıb ki, Xocalı və Srebrenitsa kimi faciələrin yaratdığı dərin ağrı yalnız həmin xalqların deyil, bütün bəşəriyyətin vicdan məsələsi olmalıdır. Bu məkanlar İkinci Dünya müharibəsindəki "Auschwitz" ölüm düşərgələri kimi, insanlığa qarşı cinayətlər barədə qlobal yaddaş mərkəzlərinə çevrilməlidir. Srebrenitsada yaradılan Soyqırımı Muzeyi və Azərbaycanın Xocalı soyqırımının tanıdılması istiqamətində dövlət və vətəndaş cəmiyyəti səviyyəsində görülən işlər mühüm əhəmiyyət daşıyır. Lakin təəssüf ki, Xocalı faciəsinə hələ də beynəlxalq səviyyədə ədalətli qiymət verilməyib. Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün akademik fəaliyyət, vətəndaş cəmiyyəti təşəbbüsləri və maarifləndirmə işi daha da gücləndirilməlidir.

# Xocalı soyqırımı bəşəriyyətin faciəsi idi

> **"Xocalı faciəsi 200 ilə yaxın bir müddət ərzində erməni millətçilərinin və onların havadarlarının xalqımıza qarşı etnik təmizləmə və soyqırımı siyasətinin davamı və qanlı səhifəsi idi".**
>
> **İlham ƏLİYEV**

Düşünürsən ki, dünyada baş verən heç bir hadisə səbəbsiz deyil. Amma ermənilərin xalqımıza qarşı patoloji nifrətinə səbəb tapmaq çox çətindir. Axı, təqribən, 200 il əvvəl onlar yoxsul, üzülmüş, məzlum halda bizə pənah gətirəndə və göz yaşı töküb kömək istəyəndə xeyirxah xalqımız səmimi qucaq açmış, tikəsini bölüşmüş, yurdsuz-yuvasızlara yurdundan yurd vermişdi. Deməli, səbəbi hayların xislətində və tarixində axtarmaq lazımdır.

Dünya xalqlarının dövlət qurmaq üçün qan töküb, ox atıb, qılınc çaldığı vaxtlar olub. Bax həmin çağlarda ermənilər - hay tayfaları qadınlarını irəli salaraq o ölkədə, bu ölkədə sülənir, qaraçı kimi dünyanı dolanırdılar. Bir də bəzi başbilənləri ayıldılar ki, ölkə yaratmaq, dövlət qurmaq fürsətini qaçırıblar. Ayılanlar din (xristianlığın qriqoryan məzhəbi) adamları idi. Bu, heç bir dinə bənzəməyən, xainliyi xislət seçən, qan tökməyi, namərdliyi qoçaqlıq sayan, başqa xalqlara tələ quran irticaçı bir məzhəbdir. İşləri düşəndə yalandan "müsəlman" olduqlarını elan etməkdən belə çəkinməyən qriqoryan keşişləri eyni zamanda yarandığı gündən öz qövmünün başını xarab edib, düşüncəsini pisliyə yönəldən, bir din pərdəsinə bürünmüş iblisvari düşüncə adamlarıdır. Onlar XV əsrdə yurd axtara-axtara Qaraqoyuluların son hökmdarı Cahanşah Həqiqiyə üz tutublar. Cavanşah Həqiqi dövlət adamından çox şair və çox da mərhəmətli idi. O üzdən keşişlərin timsah göz yaşları qarşısında ürəyi yumşalıb. Guya hayların hər yerdə incidildiyi, onların günahları olmaya-olmaya hər ölkədən qovub çıxardıqları yalanlarına inanıb. Onlar da müsəlmanlığı qəbul edərək Qaraqoyunlu dövlətinə sığınmaq qərarına gəliblər. Cahanşah Həqiqi icazə verib ki, bir qrup hay Eçmiədzində məskunlaşsın. Hər yerdə insanları dişlərinə vurmuş hayların bir dəstəsi isə köçlərini salıblar Azərbaycanın dilbər guşələrinə. Bu hadisədən sonra Azərbaycanı hər cəhətdən bəyənən haylar həmin torpaqların hamısını ələ keçirməyi qərara alıblar. Yüz illər o ölkəyə, bu ölkəyə müraciət ediblər, "Azərbaycan torpaqlarını alın, bizə verin, sizin üçün nə desəniz, edərik", - deyiblər. Amma hər yerdən qovulublar. Rus çarı I Pyotra qədər heç kəs onlara əhəmiyyət verməyib. Amma I Pyotrla ermənilərin məqsədləri üst-üstə düşüb. Özü edə bilməsə də, vəsiyyətini yazıb: "Qafqazda erməniləri məskunlaşdırın, onların vasitəsilə Qafqaza əlimiz çatsın, isti dənizləri əlimizə keçirək".

Rus-erməni gizli sövdələşməsi XIX əsrin əvvəllərindən etibarən Qafqazın işğal edilməsi ilə nəticələnib. Ermənilər Qafqazın işğalında, eyni zamanda rus-İran müharibələrində rusların xeyirinə casusluq etdiklərinə görə mükafatlandırılıblar - Türkiyədən və İrandan Azərbaycanın ən səfalı torpaqlarına köçürülüblər. Bu, beynəlxalq cinayət idi: Azərbaycanın etnik tərkibini dəyişməyə yönəlmiş gizli məqsədlər güdülürdü.

Ermənilər torpaqlarımıza köçən gündən xalqımıza qarşı xəyanətlərini əvvəllər gizli şəkildə aparırdılarsa, sonra aşkar soyqırımı və deportasiyalara rəvac verdilər. Xüsusən XX əsr belə hadisələrlə zəngindir. 1905, 1907, 1918-ci illərdə, sovet hakimiyyəti qurularkən və ondan sonra azərbaycanlıların kütləvi şəkildə qətliamı, dədə-baba torpaqlarından - Qərbi Azərbaycandan deportasiya edilməsi ilə, Azərbaycan SSR-in torpaqlarını yavaş-yavaş ələ keçirməklə ilk dövlət yaradanda əllərində olan 9 min kvadratkilometr ərazini 29 min kvadratkilometrə çatdırmaları və Azərbaycan torpaqları hesabına Göyçə mahalını, Qərbi Zəndəzuru "öz torpaqları"na qatmaqla, 1923-cü ildə Qarabağın dağlıq hissəsində qanunsuz muxtariyyat əldə etməklə həmişə xalqımıza düşmən münasibət bəsləyiblər. Sovet dönəmində Moskvada kök salmış erməni millətçiləri I Pyotrun vəsiyyətlərini bəhanə edib "imtiyaz"larından istifadə edirdilər. Azərbaycanlıların repressiyaya məruz qalmalarında həmin dövr respublikamızın hüquq-mühafizə orqanlarına dürtülmüş ermənilərin "işverənlik" etməsi də məkrli planın tərkib hissəsi idi.

Qarabağı Ermənistana qatmaq hayların çoxdankı arzusu idi. Muxtariyyətlə kifayətlənən deyildilər. Hətta sovet dövründə belə, beynəlxalq hüquqa zidd olaraq demoqrafik vəziyyəti dəyişmək üçün dünyanın hər yerindən ermənilər Ermənistana, Ermənistan erməniləri isə Qarabağa köçürülürdü. Paradoksa bax ki, azərbaycanlıların sayını azaltmaq üçün onları yurd-yuvalarından çıxarır, yerinə erməniləri yerləşdirirdilər.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana ilk hakimiyyəti dövründə ermənilər Qarabağı Ermənistana ilhaq etmək tələbi ilə Moskvaya müraciət etdilər, amma respublikamızın rəhbərinin qəti etirazı ilə qarşılaşdılar. Beynəlxalq ermənilik işə düşdü, erməni katalikosları, lobbiləri, mafiyaları qollarını çirmələdilər. 1987-ci ildə akademik Aqambekyan həmin məsələni Parisdə yenidən gündəmə gətirdi və beynəlxalq imperializmdən dəstək aldı. 1988-ci ildən Qarabağda - ovaxtkı Stepanakertdə (Xankəndidə) "miatsum" hərəkatı başladı. Münbit şərait yetişmişdi - SSRİ hakimiyyətinə ermənilərin öz adamları saydıqları M.Qorbaçov gəlmiş, Heydər Əliyev Azərbaycandan uzaqlaşdırılmış, çox çəkmədən Moskvadakı vəzifəsi də əlindən alınmışdı. Erməni millətçiləri "miatsum"a uzun illər hazırlaşmışdılar - silahlanmış, öz xalqlarının beynini yumuş, onları münaqişəyə hazırlamışdılar. Bu plandan bizim bəzi ziyalılarımız xəbər tutsalar da, Bakıda rəhbərlik heç bir tədbir görməmiş, verilən məlumatı qulaqardına vurmuşdu.




Nəticəsi ağır oldu. Ermənilər öncə qərbi azərbaycanlıların hamısını Ermənistandan qovdular. Ardınca təcavüzə başladılar və minlərlə soydaşımızı öz ölkəsində köçkünə çevirdilər. Mərkəz isə gözgörəsi tərəf tuturdu. Respublikada hakimiyyəti də xalqı yetərincə müdafiə etmir, meydanda müdafiəsiz buraxırdı. Sanki bu millətin sahibi yox idi. Münaqişə əvvəldən soyqırımı, etnik təmizləmə zəminində aparılırdı. Ermənistandan 300 mindən çox azərbaycanlı qovulandan sonra Sumqayıt hadisələri, ardınca 20 Yanvar qətliamı, Qarakənd faciəsi (20 noyabr 1990), 150 insanın şəhid olduğu Kərkicahanın boşaldılması (1991, 28 dekabr), Daşaltı faciəsi (1992, 25-26 yanvar), Malıbəyli faciəsi (1992, 10-11 fevral), Şuşa səmasında 40 nəfərin ölümü ilə nəticələnən vertolyot qəzası, Qaradağlı faciəsi (1992, 16-17 fevral) Xocalıdan əvvəl soydaşlarımıza qarşı həyata keçirilən soyqırımları idi. Qaradağlı hadisəsi miqyasına dörə Xocalı faciəsinə yaxın bir qətliam olmuşdu. Uşaqlı-böyüklü 174 nəfər öldürülmüş, silos quyularında basdırılmışdı. Xalqın qanı batırılır, dövlət öz vətəndaşını müdafiə etmirdi. SSRİ rəsmən süqut edəndən sonra 7-ci ordunun 366-cı motoatıcı diviziyası da silahları ilə bir yerdə ermənilərin ixtiyarına verilmişdi. Cinayətlər həmin diviziyanın əli, iştirakı, hətta rəhbərliyi ilə törədilirdi.

Amma həmin faciələr içərisində Xocalı soyqırımı miqyası etibarilə ən böyüyü idi. 1992-ci ilin fevralın 25-dən 26-na keçən qarlı-şaxtalı o məşum gecədə saat 23 radələrində iriçaplı silahlardan, tanklardan, qradlardan əliyalın, dinc, öz dövləti tərəfindən müdafiə edilməyən, yalnız kiçik könüllü ordunun primitiv silahlarla qoruduğu xalqın başına od-alov yağmağa başladı. Əhali başıaçıq, ayaqyalın çöllərə səpələndi. İki istiqamətdə (Əsgəran və Ağdam) qaçmağa başlayan sakinlər canlarını qurtarmağa çalışırdılar. Birinci istiqaməti düşmənlər əhalinin çıxması üçün dəhliz elan etsələr də, bu, bir tələ idi - əhalini atəşə tutdular. Ağdam istiqamətinə qaçanları da təqib edir, vəhşicəsinə öldürürdülər.

Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla 613 soydaşımız qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. 76-sı uşaq olmaqla 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü. 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi isə indiyədək məlum deyil. Milli Qəhrəman Allahverdi Bağırov 1003 əsiri danışıqlar yolu ilə əsirlikdən xilas edə bilmişdi.

Bakıda ilk günlər hadisəni gizlətmək istədilər, "2 nəfər ölüb" dedilər. Xalq Cəbhəsi və Müsavat partiyası isə ovaxtkı Prezident Ayaz Mütəllibovu devirmək üçün yaxşı fürsət tapmış oldu. Amma yeni hakimiyyət də cəbhədə dönüş yarada bilmədi. Çox çəkmədi ki, soyqırımlar silsiləsi davam etdi: Ağdaban (1992, 8 aprel), Başlıbel (1993, aprelin 2-dən başlayaraq, bir neçə gün), Şuşanın, Kəlbəcərin, digər rayonların süqutu, hərc-mərclik, qarşıdurmalar, orduda itaətsizlik ölkəni yox olmaq, xəritədən silinmək vəziyyətinə gətirdi. Çünki rəhbərlik yerində deyildi, yarıtmaz idi.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ordu quruculuğu, vahid komandanlıq məsələləri həllini tapdı. Uzun müddətli strategiya və taktika seçildi. Ölkə müəyyən strategiya və istiqamətlə irəliləyir, ərazilərimizin işğaldan qurtarması istiqamətində ardıcıl işlər görülürdü. Bu işləri isə 2003-cü ilin oktyabrından Ali Baş Komandan Prezident İlham Əliyev davam etdirdi. 2020-ci ilin sentyabrında Zəfərlə başa çatdırdı.

Bakıda Xocalı qurbanlarının xatirəsinə "Ana harayı" abidəsi ucaldılıb.

*Baxın, baxın, yaxşı baxın,*
*Gəlin yaxın, dönə-dönə bir də baxın.*
*O, anadır, Xocalıdan olan ana.*
*Görürsünüz, haray çəkir,*
*Fəryad edir yana-yana.*
*O ananın var kimsəsi, var bir kəsi.*
*Onun adı bu ölkədir: Ana Vətən - Azərbaycan!*
*Oğulları, igidləri, ərənləri*
*Onun üçün hər gün, hər an*
*Hazırdırlar verməyə can.*

Bu günlərdə qondarma artsaxın "rəhbər"ləri - xalqımızın başına o müsibətləri gətirənlərin bir sürüsü ədalət məhkəməsində layiqli cəzalarını aldılar. Gün olsun ki, digərləri - Ermənistanda gizlənənlər də cəzalarına çatçınlar və biz buna əminik. Çünki onların başladıqları müharibə adi savaş deyildi, əvvəldən sona kimi soyqırımı idi və yalnız xalqımıza qarşı deyil, bütün bəşəriyyətə qarşı cinayət idi.

Biz Xocalıya ədalət istəyirik və ona nail oluruq. Hazırda dünyanın 40 ölkəsi və ABŞ-nin 22 ştatı Xocalı soyqırımını tanıyıb. Bu yolda mübarizəmiz isə davam edir. Qoy erməni xalqı da gözünü açsın, dostunu, düşmənini tanısın, qonşularla sülh şəraitində yaşasın. Bilsin ki, xoşbəxtlik, əmin-amanlıq savaşda, işğalda yox, barışda, dinclikdədir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***




# XX əsrin faciəsi - Xocalı soyqırımı








## Şəhidlərimizin ruhu rahatlıq tapıb

**26 fevral nəinki Azərbaycan, dünya tarixində dərin iz buraxmış bir tarixdir. Lakin buna qədər də xalqımız əsrlər boyu erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalmışdır.**

Azərbaycanlılar tarixin müxtəlif dövrlərində öz dədə-baba torpaqlarından didərgin salınmış, qaçqına, məcburi köçkünə çevrilmişdir. Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması imperialist ambisiyaya xidmət edirdi. Bu həm də o amala xidmət edirdi ki, regionda revanşizmi körükləyən monoetnik bir dövlət yaratmaqla Cənubi Qafqazı daim idarə edə bilsinlər. Buna görə də 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı məqsədli şəkildə deportasiya olundu və Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirildi. 1988-ci ildə isə 250 min azərbaycanlı doğma yurdundan didərgin salındı. Beləliklə, Ermənistanın monoetnik dövlətə çevrilməsi, regiona yerləşdirilməsi planı baş tutdu. Bununla da bölgəyə yerləşdirilən erməni faktorunun və amilinin əsl məqsədi üzə çıxdı.

1988-ci ildə Qarabağ ətrafında başlayan hadisələr cızılmış böyük ssenarinin pik həddə çatdığı bir məqam idi. Beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan tarixi Azərbaycan ərazisi olan Qarabağı özünə birləşdirmək istədi və ölkəmizə qarşı ədalətsiz müharibə başlandı.

Ermənilər soyqırımı törətməklə azərbaycanlıların milli ruhunu öldürmək istəyirdilər. 1990-cı ilin 20 Yanvar hadisələri də məhz bu amala xidmət edirdi. Azərbaycanlılara qarşı planlı şəkildə törədilən cinayətlər, vəhşiliklər, insanlıqdan kənar davranışlar dünya tarixinin ləkəsidir.

Xocalıya hücum zamanı ermənilərin məqsədi şəhəri yer üzündən birdəfəlik silmək və azərbaycanlıların izini oradan kəsmək idi. Buna görə də 7 min nəfər əhalisi olan Xocalı şəhərində keçmiş sovet ordusunun 366-cı alayının dəstəyi ilə soyqırımı aktı həyata keçirildi. Ermənistan bütün bunları təkbaşına etməyə qadir deyildi.



Ermənininin xisləti nə qədər məlum idisə, onların havadarlarının hegemon iddiası da o qədər aydın idi. Məhz bu hegemonluq iddiası erməni arzularına işıq tuturdu. Ona görə də Seyran Ohanyanın komandanlığı altında 366-cı alayın batalyonları azərbaycanlılara qarşı Xocalıda soyqırımı törətdilər. Uşaqlara, körpələrə, qocalara, hamilə qadınlara verilən zülmün sərhədi yox idi. Bu, misli görünməmiş düşmənçilik idi. Xocalıda istifadəsi qadağın olunmuş güllələrdən, kimyəvi silahlardan da istifadə edilmişdi. Bütün bunlar da Ermənistanın Cenevrə Konvensiyasının protokollarını kobud şəkildə pozduğunu göstərir. Bu, bütün müharibə qaydalarının və qanunlarının üstündən xətt çəkilməsi demək idi.

Xocalı faciəsinə ilk siyasi qiymət 1994-cü ildə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən verilmişdir. Ulu Öndər bununla bağlı xüsusi fərman imzalamış və Milli Məclisin qərarı ilə 26 fevral "Xocalı soyqırımı" və "Milli matəm" günü elan edilmişdir.

Ötən dövrdə Xocalı faciəsinin dünyada tanıdılması istiqamətində ideoloji, mədəni sahələrdə hücum diplomatiyası həyata keçirilmişdir. Cənab Prezident İlham Əliyev Qarabağla bağlı Azərbaycan həqiqətlərini dünyaya çatdırarkən Xocalı faciəsini xüsusi diqqət mərkəzində saxlamışdır. O cümlədən Heydər Əliyev Fondu "Xocalıya ədalət!" kampaniyası həyata keçirərək xalqımızın səsini bütün dünyaya çatdırmışdır.

Cənab Prezident İlham Əliyev elə bir siyasət yürütdü ki, həm torpaqlarımız işğaldan azad olundu, həm də şəhidlərimizin qisası alındı. 44 günlük Vətən müharibəsi, 24 saatlıq lokal xarakterli antiterror əməliyyatları ilə Azərbaycan bütün dünyaya göstərdi ki, xalqımızın qüruru ilə oynamaq olmaz. Bəşəriyyətə zidd hərəkətlər azərbaycanlılar və insanlıq üzərində sınana bilməz. Buna görə Azərbaycanın şanlı zəfəri dünya xalqları üçün bir nümunədir.

Xocalı soyqırımından 34 il ötür. İllər ötsə də, bu hadisə unudulmur, Azərbaycan xalqının yaddaşında silinməz iz buraxmışdır. Azərbaycanın müzəffər ordusu döyüş meydanında Xocalı qətliamının və azərbaycanlılara qarşı digər amansız qətliamların qisasını aldı. Azərbaycanın ədalətli məhkəmə-hüquq sistemi amansız cinayətlər törətmiş canilərə öz layiqli cəzalarını verdi. Biz artıq bu gün deyə bilərik ki, bütün şəhidlərimizin ruhu əbədi rahatlıq tapıb. Lakin bu işdə son mərtəbə yoxdur. Çünki düşmən tək deyil. Xüsusi amansızlıqla və ağlasığmaz vəhşiliklə törədilən Xocalı qətliamını biz heç zaman unutmamalı və dünyada tanıdılmalıdır. Bu, bizim vətəndaşlıq, həmçinin insanlıq borcumuzdur.

*Azər BADAMOV,*
*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini*

## Xocalı harayı

### Keçmiş məcburi köçkün Zənurə Səlimova: "Məni yaşadan Xocalıya qayıtmağımdır"

**"Qapıdan çıxdıq, amma bilmirdik hara gedirik. Kənd camaatı hərə bir söz deyirdi. Bilmirdik nə edək?"**

Bu, qarlı, boranlı gecədə, əliyalın, ümidini ancaq Allaha bağlayan, nə edəcəklərini, hara gedəcəklərini bilməyən insanın çarəsizliyi idi. Sonunu bilmədikləri qaranlıq bir yola çıxmışdılar, o qarlı gecədə.

Həmin gecənin vəhşətlərini yaşayan, faciənin canlı şahidlərindən olan Zənurə Səlimova 34 il əvvəli belə xatırlayır: "O vaxt mənim 20 yaşım var idi, yenicə ailə qurmuşdum. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə bütün xocalılıların qəlbinə silinməz yara vuruldu. Yoldaşım Fərhad Səlimov və qaynım Faiq özünümüdafiə batalyonunda xidmət edirdilər. Həmin gecə isə Fərhadın növbəsi idi".

Fərhad Səlimov həmin gün baş verəcəklərdən xəbərsiz növbəyə yollanmışdı. Xocalılıların isə doğma evlərindən, isti ocaqlarından didərgin düşəcəkləri, uzun illər bu yerlərə həsrət qalacaqları ağıllarının ucundan belə keçməzdi. "Ermənilər pusquda duraraq hər axşam atəş açırdılar. Buna baxmayaraq, biz xocalılılar öz ev-eşiyimizi tərk etmirdik. Həmin gecə təxminən 12-1 radələrində səs-küyə ayıldıq. Yoldaşım qardaşını harayla-yaraq ermənilərin şəhəri hər tərəfdən mühasirəyə aldığını və buradan çıxmağın lazım olduğunu bildirdi. Çarəsiz, əliyalın xocalılılar nə edə bilərdilər? Qayınanamın ayaqları yer tutmurdu. Yoldaşım və qaynım analarını kürəklərinə alaraq, mən və baldızım isə onlara kömək edərək qapıdan çıxdıq", - deyə Zənurə Səlimova sözünə davam edir.

Digər xocalılılar kimi onlar da beşmərtəbəli binanın zirzəmisini xilas yeri bilərək bura pənah gətirirlər. Soyuq zirzəmidə dilləri buz tutmuş xocalılılar çarəsizliklərini yalnız göz yaşları ilə göstərirdilər.

#### Sonu bilinməyən yola doğru...

"Nə edəcəyimizi düşünə bilmirdik", - deyir Zənurə xanım. Onlara son vəziyyətlə bağlı xəbər gətirən həmyerlisi Murad Məhərrəmov Kətik meşəsinə çəkilməyi məsləhət görür.



Düşünürlər ki, ermənilər sakitləşəcək və onlar isti ocaqlarına qayıdacaqlar. Amma onları qarşıda daha dəhşətli hadisələrin gözlədiyini bilmirdilər.

Deyilən kimi də edirlər. Zirzəmiyə sığınan xocalılılar indi meşəni xilas yolu bilib yola düzəlirlər. Kətik meşəsinə yol isə Qarqar çayından keçirdi. Bu vəhşətli gecədə Qarqarçay da sanki qəzəbli idi. Xilaslarını meşədə görənlər sudan birtəhər keçərək canlarını qurtarmağa çalışırdılar.

Zənurə Səlimova sonra baş verənləri belə nəql edir: "Can Xocalımız... Düşünməzdik ki, ata-analarımızın əzab-əziyyətlə, dişi ilə, dırnağı ilə qurub yaratdığı isti evlərimizi tərk edərik. Çayı keçdikdən sonra meşə ilə yolumuza davam etdik. Düşmən isə meşədə də pusqu qurmuşdu. Qarşılarına çıxanları qoca, qadın, uşaq demədən gülləyə tuturdular. Bizə bələdçilik edən yox idi. Getdiyimiz yolu qayıdır, qayıtdığımız yolu gedirdik. Həmin gecə elə bil təbiət də qan ağlayırdı. Meşənin ortasına qədər güclə gəlib çıxmışdıq".

Bu anda onların imdadına yetişən Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyev olur: "O özünü təqdim etdikdən sonra bildik ki, Xocalımızın igid oğludur. Bizdən soruşdu ki, yolu tanıyan var? Dedik ki, yox. Ondan sonra o öndə, biz isə arxada yola düzəldik".

Əlif Hacıyev bələdçilik etdiyi xocalılıları yaddaşlarda "Qanlı qaya" kimi qalan Qaraqayanın yanına kimi gətirir. Orada onlara yolu tez keçmələrini tapşırır.

Birlikdə yola çıxan 80-90 nəfərdən cəmi 10-15 nəfər canını qurtara bilir. Qalanı ya meşədə, ya Qaraqaya adlı yerdə düşmən gülləşinə tuş gələrək həyatını itirir, ya da itkin düşür.

Zənurə Səlimovanın qayınanası Adilə Səlimova da həmin gecə itkin düşür və bugünədək tapılmayan şəxslər sırasındadır. Zənurə Səlimova bildirir ki, bəy qızı olan Adilə xanımın atasının Xocalıda böyük torpaq sahələri olub. "Amma bu gün o bəy qızının bu torpaqlarda tapşırmağa qalıqları belə tapılmayıb. Dəhşətli günlər yaşayıb. Dayım ağır işgəncələrə məruz qaldıqdan sonra cəsədi tanınmaz vəziyyətdə gətirilmişdi. Onu ancaq anam tanımışdı. Xalam və iki uşağı bu günədək itkindir. Günlər sonra bibimin tanınmaz meyiti və əmimin meyiti də gətirildi. Əmim oğlu anasının kürəyində güllələndi. Faciədən 5 gün sonra anamı və qardaşlarımı görə bildim. Onlar sağ-salamat gələnlər arasında idilər", - deyir Xocalı soyqırımının canlı şahidi.

#### Gözləri yolda qalanlar...

Sağ qalanlar Ağdamın Şelli kəndinə gəlib çata bilirlər. Ağdam camaatı əllərindən gələn köməyi edir. Gecədən şaxtada, ac-susuz, kürəklərinə qocaları, uşaqları alıb gələn xocalılılar taqətdən düşmüş vəziyyətdə idilər. Səhəri Ağdam məscidinə gələrək hər kəs yaxınından, qohum-əqrəbasından xəbər gözləyir. Kimisi sağ qayıdırdı, kiminsə meyiti gətirilirdi. Bir də gözləri hələ də yollarda qalanlar var idi...

Ağdam məscidinə durmadan meyitlər, yaralılar gətirilirdi. Onların içində meşədə balaca körpəni Zənurə xanıma tapşıran Cəmilə xala da var idi. Zənurə xanım bu dəhşətli gecədə bətnindəki körpəni itirsə də, əmanət edilən balaca canı sağ şəkildə təhvil verməк ona qismət olur.

Bu gün Zənurə Səlimova iki oğul anası, iki gəlin qayınanası, nənə kimi qayıdıb doğma yurduna. Həm də onlarla birlikdə. 20 yaşında, cəmi 4 aylıq gəlin ikən çıxdığı Xocalıya 33 ildən sonra - ötən ilin yanvar ayında geri qayıdıb.

O qayıdışını Zənurə bu sözlərlə ifadə edir: "Bu gün biz artıq Xocalıdayıq. Bir gözümüz gülsə də, bir gözümüzdə yaş var. Sevinirik, çünki artıq Xocalımız azaddır. Ağlayırıq ki, itirdiklərimiz geri qayıtmadı. Erməni mənfurları elə bir ev olmadı ki, faciə yaşatmasınlar".

#### Xocalılı günlər başlayıb

Artıq bir ildən çoxdur Xocalıya köçən Zənurə Səlimova və ailəsi qayıdış xəbərini sevinclə qarşılayıblar və 2024-cü ilin dekabr ayından hazırlıqlara başlayıblar. "Burada yaşamağa sevə-sevə gəlmişik. Xocalıma bağlıyam. Məni yaşadan bura köçməyimdir. Sevincimin həddi-hüdudu yoxdur. Sağ olsun Ali Baş Komandan, Prezident İlham Əliyev. Ailəmiz adından ona minnətdaram. Şəhid analarının qarşısında baş əyirəm. Onların əzab-əziyyətlə böyütdüyü oğulların canları, qanları bahasına bu gün Xocalıdayıq. Qazilərimizə Allahdan şəfa diləyirəm. Bu gün onların sayəsində buradayıq", - deyir Zənurə Səlimova.

Daha Qarqar çayı o gecəki kimi qəzəbli deyil, daha qar da elə yağmır. Son dəfə gördüyü müəllimi Adilə xanımın ailəsi də yoxdur. Onlara xəbər gətirən Murad Məhərrəmov da ailəsinin məhv olunmasına dözməyərək dünyadan köçüb, neçə-neçə qohumundan, yaxınından bu günədək heç bir xəbər yoxdur... Lakin onların hər birinin qisası düşməndən alınıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Məni Xocalı çağırdı

**1992-ci ilin 26 fevral gecəsi yalnız bir şəhərin deyil, minlərlə ailənin taleyini dəyişdi. Ana baladan ayrıldı, qardaş bacısını itirdi, uşaqlar valideynsiz qaldı. Qadın, körpə, yaşlı demədən insanlara qarşı törədilən qəddarlıqlar yaddaşlara qanla yazıldı.**

Bu faciə haqqında eşidərək böyüyən nəsillər üçün Xocalı yalnız bir tarix deyil. Bu, ailə xatirələrinin, göz yaşlarının və yarımçıq qalan ömürlərin nişanəsidir. Bu ağrını ürəyində daşıyanlardan biri də bu gün Xocalı rayonunun Ballıca kəndində yaşayan, özünə qismət olmasa da, övladlarını doğma torpaqda böyüdən Nərmin Əzimovadır.



#### Qanlı gecənin izləri

Nərminin ailəsi Xocalı soyqırımının ən ağır zərbəsini alanlardan sayılır. Həmin qanlı gecədə bu böyük ailə 28 şəhid verib. Xocalı müsibətləri dünyaya yayılarkən 25 uşağın ata-anasız qalmağından danışılırdı. Onların bəzisi hələ dil açmamışdı, lap körpə idilər. Bəzilərinin yaddaşına isə yaşanan dəhşətlər silinməz izlər kimi həkk olundu. Bu uşaqlar arasında Nərminin atası, əmisi, bibisi də vardı.



Nərminin atası Tofiq Əzimov Xocalının Ballıca kəndində yeddi uşaqlı bir ailədə böyümüşdü. Maddi imkanları məhdud olsa da, ailə sevgisi və birlik onların uşaqlığını xoşbəxt edirdi. Məktəb həyatı, şən oyunları, qonşu uşaqları ilə keçən qayğısız günlər onların dünyasını təşkil edirdi. Ta ki, bir gün tarixə düşəcək dəhşətli soyqırımına qədər...

1980-ci illərin sonlarından etibarən erməni qonşuları bu ailəyə evlərini satmaları üçün təzyiq göstərməyə başladılar. Onların məqsədi ikimərtəbəli, geniş həyətli evi ələ keçirərək obyektə çevirmək idi. Açıq şəkildə bildirirdilər ki, "tezliklə bu torpaqlar bizim olacaq". Təzyiqlər o həddə çatmışdı ki, uşaqları belə təxribatlara cəlb edirdilər. Küçələrdə "Qarabağ Ermənistanındır, buradan gedin" kimi şüarlar səsləndirilirdi.

1988-ci ildən sonra hücumlar intensivləşdi. Kənd sakinləri gecələri meşələrdə, qəbiristanlıq yaxınlığında keçirirdilər. Yaşamaq təhlükəli hala gəldiyi üçün Nərminin babası ailəsini müvəqqəti olaraq Xocalı şəhərinə köçürdü. Onların evdən çıxması ilə erməni qonşular evi yandıraraq yerlə yeksan etdilər.

Şəhərdə vəziyyət kənddən fərqli deyildi. Güllə səsləri gündəlik həyatın bir hissəsinə çevrilmişdi. Şəhər mühasirəyə alınmış, yollar bağlanmış, yalnız vertolyotlarla ərzaq gətirilirdi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə hər şey dəyişdi. Xocalıya hücum xəbəri yayıldı. Ailə tələsik evdən çıxaraq meşəyə qaçan insanlara qoşuldu. Qarlı, şaxtalı gecədə güllələr yağış kimi yağırdı. İnsanlar haraya getdiklərini bilmədən qorxu içində irəliləyirdilər.

Qaçan insanlar Qarqar çayı üzərindən keçərək meşəyə doğru yönəldilər. Bu yol onları təhlükədən uzaqlaşdırmalı idi, lakin ətraf alov və partlayış səsləri ilə dolu idi. Birdən yaxınlıqda partlayış baş verdi. İnsanlar pərən-pərən oldu. Qışqırıqlar, yaralıların səsləri, itən uşaqların fəryadı gecənin səssizliyini parçaladı.

Nərminin atasının altıyaşlı əmisi oğlunun güllə yaraları içində can verməsi ailənin yaddaşına həkk olunan ən ağır xatirələrdən biri oldu. Həmin gecə Tofiq və bacı-qardaşları valideynlərini son dəfə canlı gördülər.

Səhərə yaxın sağ qalanlar Ağdama aparıldılar. Oradan qohumlarının yaşadığı kəndlərə yerləşdirildilər. Valideynlərinin ölümü uşaqlardan bir neçə gün gizlədildi. Soruşanda yaralı olduqları deyildi. Cənazələr təhvil verilən gün böyük qardaş göz yaşları içində həqiqəti açıqladı.

Sonradan öyrənildi ki, Nərminin nənəsi güllə yarasından həlak olub, babası isə yaralı halda meyitlərin arasında qalıb. Ermənilərin meyitlərə qarşı qəddarlığını gördükdə silah götürərək müqavimət göstərib, lakin sonradan özü də işgəncələrə məruz qalanlardan biri olub.

Valideynlərini dəfn etdikdən sonra ailə müxtəlif bölgələrdə məskunlaşdı. Uzun müddət qorxu və travma içində yaşadılar. Böyük qardaş Hüseyn bacı-qardaşlarını böyüdərək valideynlərini əvəz etməyə çalışdı.

#### Doğma torpaqda yenidən başlayan həyat

Torpaqlarımız işğaldan azad edildikdən sonra Əzimovlar ailəsi illərlə yuxularında gördükləri yerlərə qayıtmaq imkanı qazandı. Ailə valideynlərinin məzarını ziyarət etmək üçün geri döndü. Lakin məzar daşlarının dağıdıldığını gördükdə acıları bir daha təzələndi. Uzun axtarışdan sonra məzarları taparaq ziyarət edə bildilər.

Nərmin deyir ki, haqqında uşaqlıqdan yalnız ailə üzvlərinin xatirələrindən eşitdiyi Xocalını ilk dəfə görəndə göz yaşlarını saxlaya bilməyib. İndi həmsöhbətim ömrünün 28-ci baharında valideynləri, qardaşları, həyat yoldaşı və övladları ilə Ballıca kəndində yaşayır. İllərlə yataqxanalarda, çətin şəraitdə yaşayan ailə üzvləri indi doğma torpağa dönməyin sevinci içərisindədirlər. Ancaq şad günlərdə belə onların sevincinə kədər qarışır. İtirdikləri doğmalarının yoxluğu ürəklərini sızladır.

Bu gün Nərmin üç uşaq anasıdır. Sonbeşiyi Xocalıda dünyaya gəlib. Qızı məktəbə gedir, oğlu bağçaya. Körpəsinə isə şəhid adı veriblər - Ucardan olan şəhid Kərim Əliyevin adını. Əmisi oğlunun yaxın dostu olan Kərimin adını seçməyi təsadüfi olmayıb. Şəhidin qəhrəmanlıqları, Vətən sevgisi Nərmini və həyat yoldaşı Azadı bu seçimi etməyə sövq edib. Onlar qəhrəman şəhidimizin valideynlərinin icazəsi ilə körpələrinə Kərim adı qoyublar.

Nərminin ən böyük arzusu övladlarının Xocalıda böyüməsi, Qarabağda təhsil alması, doğma torpaqda kök salmalarıdır. O, yurda dönüş sevincini bu kövrək sözlərlə dilə gətirir: "Xocalını heç vaxt görməmişdim. Doğma torpağımı yuxularımdan, babamın və atamın xatirələrindən tanıyırdım. İlk dəfə görəndə sanki torpaq məni çağırdı. Burada mənəvi rahatlıq tapmışam. Sanki ruhum illərlə bu rahatlığı axtarırmış".

Bu gün Ballıca kəndinə həyat yenidən qayıdıb. Keçmişin ağrıları yaddaşlardan silinməsə də, doğma torpaqda atılan hər addım gələcəyə ümid toxumları səpir. Xocalının acısı xatirələrdə qalacaq. Lakin bu torpaqlarda yenidən qurulan həyat göstərir ki, xalqımızın iradəsi sarsılmazdır və yurd sevgisi ən dərin yaralara belə, məlhəm qoymağa qadirdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




# XX əsrin faciəsi - Xocalı soyqırımı



## Biz qayıtdıq, Vətən! Xocalıda bir ev var...

**Xocalıda bir ev var. İsti, rahat, işıqlı… Bu evdə Narxanım adlı yaşlı bir ana övladlarını və nəvələrini süfrə başına yığıb ötən günlərdən danışır. Xatirələr cığırına düşüb Xocalının həm xoş, həm də müsibətli günlərini xəyalən bir-bir dolaşan doğmalar gecənin çoxdan keçdiyinin, artıq dan yerinin söküldüyünün fərqində belə olmurlar... Gah üzlərə təbəssüm qonur, gah gözlərdən yaş süzülür...**

Danışılan hər söz, üzlərdə yaranan hər gülüş keçmişin acılarını xatırladır, amma onları incitmir - əksinə, bir-birilərinə daha da yaxınlaşdırır. Evdəki hər künc, hər işıq saçan bucaq onların itirilmiş illərini və yenidən dirçələn ruhunu simvolizə edir...

### "İtirdiyim doğmalarımın ruhuna burada qovuşacağımı bilirdim"

Həyat yoldaşını və iki oğlunu 34 il əvvəl Xocalı soyqırımında itirən 78 yaşlı Narxanım Məmmədova nə qədər çətin də olsa, özündə mənəvi güc tapıb yenidən Xocalıya dönüb. Hər addımda keçmişin acı xatirələri gözünün önünə gəlir, amma ürəyində bilir ki, doğma yurda qayıdış həm də burada itirdiyi doğmalarının ruhunu şad edib.

Ağbirçək ana o günləri acılarla xatırlayaraq deyir ki, 1992-ci ilin 26 fevral günü ailəsi param-parça olub, ürəyinə sağalmaz dağlar vurulub:

- Ötən illər ərzində çəkdiyim ağrı-acını sözlərlə izah etmək mümkün deyil. Amma bir ümid məni bu acılar qarşısında ayaqda saxladı. Bir gün mütləq Xocalıya qayıdacağımı, itirdiyim doğmalarımın ruhuna burada qovuşacağımı bilirdim. İllər keçdi. Mən Xocalıya qayıtdım. Ötən ilin yayında Xocalının Təzəbinə kəndində bizə də ev verdilər. İndi burada hara baxsam həyat yoldaşım Məmmədin, oğlanlarım Sərvərin, Söhbətin, Möhlətin xatirələri gözümdə canlanır. Mənimlə birgə Xocalıya dönən nəvələrimdən onların hənirlərini alıram... Bu balaların əllərindən tutub Xocalını gəzəndə elə bilirəm heç illər keçməyib, mən yenə də əzizlərimlə birlikdə 1992-ci ilin o üzündəki xoşbəxt günlərdəyəm...



### Bir ailənin faciəsi

Məmmədovlar ailəsi 1988-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalından qaçqın düşüb. Onlar erməni zülmündən baş götürüb qaçan zaman ailənin böyük oğlu 1973-cü il təvəllüdlü Sərvər çayda boğularaq şəhid olub. Ailənin digər üzvləri - Məmməd, Narxanım, Söhbət, Möhlət, Mürvət, Əhməd və Ruslan Xocalı şəhərinə pənah gətiriblər. 1992-ci ilin fevralına qədər Xocalı blokadada olanda həm ailənin başçısı Məmməd, həm də evin böyük oğlanları Söhbət və Möhlət Xocalıdakı könüllü batalyonlara qoşularaq ermənilərlə döyüşüblər.

1992-ci il fevralın 26-da dan üzü ağarmamış Möhlət evə gəlib vəziyyətin ağır olduğunu, ermənilərin Xocalıya girib evləri yandırdığını deyib və ailə üzvlərinin də tez hazırlaşıb meşədəki camaata qoşularaq qaçmalarını istəyib.

Bu zaman ermənilər onların evini mühasirəyə alır və hər tərəfdən atəşə tuturlar. Ataları Məmməd qolundan yaralanır. İçəridəkilər də ov tüfənginin və avtomatın mərmiləri bitənə qədər düşmənlə döyüşürlər. Ermənilər evin içinə əl qumbarası atırlar, Mürvət ayağından, anası Narxanım isə kürəyindən yaralanır. Qonşuları Sara və onun Natəvan adlı 3 yaşlı körpəsi dünyasını dəyişirlər. Ermənilər qapını qırıb içəri girirlər və evdə avtomatın qundağı ilə yaralı, qadın, uşaq, körpə bilmədən döyməyə başlayırlar. Sonra onları bir otağa yığırlar və istəyirlər ki, hamısını yandırsınlar. Hətta düşmənlərdən biri gedib maşından benzin gətirib, töküb onları yandırmaq istəyəndə 3 yaşlı Ruslan düşmənə deyir ki, əmi, qurban olum, məni öldürməyin...

Həmin vaxt ermənilər tərəfdən döyüşən "366-cı motoatıcı alay"ın kapitan rütbəli rus zabiti deyir ki, hətta faşist belə bu rəftarı etməzdi. Bu körpənin günahı nədir?! O, ailəni yandırmağa qoymur. Evdəki bütün qızıl zinət əşyalarını aldıqdan sonra onları çöldəki təcili yardım maşınına yığırlar.



### Soyqırımın o vaxt 14 yaşı olan şahidi

O faciəvi günü böyük ağrı-acı ilə dilə gətirən və həmin zaman 14 yaşı olan Mürvət Məmmədov danışır ki, 1992-ci il fevralın 26-sı səhər onları Əsgəran rayon polis şöbəsinə gətirirlər:

- Baxdıq ki, burada xeyli insan var. Kimisini meşədə don vurub, kimisinin yanında mərmi partlayıb qolu yoxdur, kimisinin də güllə başına girib beyninin qapağını qaldırıb can verir... İnsan naləsi hər yeri bürümüşdü, qan, irinləmiş yaraların üfunət iyindən baş çatlayırdı...

Ermənilər içəri girərək başladılar qadınların, qızların boynundan, qulaqlarından qızıl zinət əşyalarını vəhşi kimi dartıb qoparmağa. Buna dözməyən qardaşım Möhlət erməninin birini itələyərək dedi ki, onsuz da özləri nə qır-qızıl varsa, verirlər də, niyə belə vəhşilik edirsən? Bundan sonra onlar atamı, qardaşlarım Söhbət və Möhləti bizdən ayırıb harasa apardılar...

Sonra əli silah tutanları bir, yaralıları, vəziyyəti pis olanları isə - 80-90 nəfərə yaxın yaralı var idi - digər otağa yığdılar. Onların arasında mənim də ailə üzvlərim var idi. Yaralıların çoxu ölümcül idi. Uşaq idim, anlamırdım, amma görürdüm ki, qadınlar yanlarında kiminsə gözünü bağlayır, sığayır...

Ermənilər açıq nəfəslikdən avtomatı içəri salıb divarlara atəş açırdılar, oradan qopan toz-torpaq yaralarımıza dolur, yandırırdı. Vəhşilər bundan zövq alırdılar. Bir gün biz uşaqları bayıra çıxarıb sıraya düzdülər və dedilər ki, hamınız dik baxın. Xocalıda axısqa türkləri var idi, onlar da qaçqın kimi gəlmişdilər. Onlardan Əhməd adlı döyüşçünü də əsir tutmuşdular və başını kəsmişdilər. Deyirdilər ki, ona baxaq. Torpaq gətirib yedizdirir, məcbur etmək istəyirdilər deyək ki, bu torpaq onlarındır... Bizə bu cür psixoloji işgəncələr verir, mənən sındırmaq istəyirdilər... Amma biz ölsək də, vətənimizi satmadıq.

Ermənilər bildilər ki, balaca qardaşım, o zaman 11 yaşı olan Əhmədin doğum günüdür. Dedilər ki, silah versək, atarsan? O dedi ki, hə... Avtomatın lüləyini uşağın əlinin içinə qoyub güllələdilər ki, qoy bu sənə bizdən ömürlük ad günü hədiyyəsi olsun. Güllə uşağın əlinin üstünü parça-parça elədi. Çay dəmləyib içirdilər, onu götürüb Əhmədin yaralı əlinə tökürdülər ki, o daha da əzab çəksin...

Düz bir həftə Əsgəran polis şöbəsində ermənilər tərəfindən insanlığa xas olmayan işgəncələr gördük...

Bir həftədən sonra girov saxlandığımız otağın qapısını açdılar, bizi təpikləyərək çölə çıxarıb düzdülər sıraya. Orada Əsgəran rayonunun erməni sakinləri var idi, onlar əllərindəki yaba, bel, daşla bizi vurmağa başladılar...

Sonra bizi avtobusa mindirib Ağdamla Əsgəran arasındakı sərhədə gətirdilər. Orada rəhmətlik şəhidimiz Milli Qəhrəman Allahverdi Bağırovun köməyi ilə, ermənilər tərəfdən döyüşərək öldürülən muzdlu qaradərilinin meyiti ilə 80 nəfər azərbaycanlını dəyişdilər. Həmin 80 nəfərin arasında mənim də ailə üzvlərim vardı.

Sonra Ağdam rayon xəstəxanasına gətirildik. Ermənilər xəstəxanaya da raket atdılar.

Atamla iki qardaşımı isə ilk gündən bizdən ayırdıqları üçün talelərinin necə olduğunu bilmirdik... Düz 15 il atamdan, qardaşlarımdan bir xəbər almaq üçün hər yerə müraciət etdik. Qırmızı Aypara Cəmiyyətinin xətti, mətbuat vasitəsilə onları axtardıq, amma heç bir xəbər ala bilmədik. 2007-ci ildə Xocalı şahidlərinin iştirakı ilə televiziya kanallarımızdan biri sənədli film çəkirdi. Bizi də dəvət etmişdilər. O zaman bir Xocalı şahidinin dediklərindən məlum oldu ki, atamı və iki qardaşımı apararaq erməni qəbri üstündə başlarını kəsiblər... Bizim girovlara da deyiblər ki, burada bir xəndək qazın, onların üstünü basdırın...

İllər idi ki, azacıq da olsa, ümidlə atamın, qardaşlarımın yolunu gözləyirdik, amma aldığımız bu dəhşətli xəbərlə dünyamız birdəfəlik qaraldı...

Hər zaman Allahdan ən böyük arzum atamın, qardaşlarımın gəzdiyi, ruhu dolaşan torpaqları görmək olub. Sonuncu gün bir-birimizə sarılıb necə ayrılmağımız heç zaman gözümün önündən getmir...

### "Xocalıya dönüb atamın söndürülmüş ocağını yenidən yandırmışıq"

46 yaşlı Mürvət Məmmədov söylədi ki, Xocalıya qayıtması sanki bütün yaralarının üzərinə məlhəm çəkib:

- Bəli, keçmişi xatırlayıram, amma buraya gəlmək mənim üçün yenidən doğulmaq və ümidlə yaşamaq deməkdir. Biz xocalılılar girovluqda bütün işgəncələrə qatlaşdıq, amma əqidəmizdən dönmədik... Ötən illərdə heç zaman ümidimizi itirmədik, bildik ki, bir gün mütləq torpaqlarımız azad olunacaq.

Bilirsiniz, torpaqlarımızın azadlığını, şəhidlərimizin qisaslarının alınmasını dünya gözü ilə görmək biz xocalılılara Tanrının bəxş etdiyi xoşbəxtlikdir.

Xocalı qatillərinin Azərbaycan qanunları ilə öz layiqli cəzalarına çatmaları İlahi ədalətin yerini tapması deməkdir. Xocalı bizim qan yaddaşımızdır və gələcək nəsillər də bunu heç zaman unutmamalıdırlar.

Allahın bu gününə şükür, biz yenidən Xocalıdayıq. Biz bu torpaqların uğrunda şəhidlər verdik, zülmlər çəkdik. Mən üç qardaşımı, atamı itirdim. Amma dəyanətimizlə, vətən sevgimizlə düşmənə qalib gəldik. Hər nə qədər Xocalı bizdə ömür boyu ağrı-acısını unutmayacağımız xatirələri oyatsa da, eyni zamanda ürəyimizdə bir təskinlik də var ki, itirdiyimiz və qanları yerdə qalmayan doğmalarımızın ruhu dolaşan Xocalıya əbədi dönmüşük...

Allah Müzəffər Ali Baş Komandanımız İlham Əliyevi, Azərbaycan Ordusunun qəhrəman döyüşçülərini qorusun, ömür boyu onlara minnətdar olacağıq. Torpaqlarımız uğrunda şəhid olan vətən övladlarımızın ruhları qarşısında baş əyirəm, qazilərimizə şəfa diləyirəm.




Biz - şəhid ailələrinə, keçmiş məcburi köçkünlərə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hər zaman xüsusi diqqət və qayğı göstərir.

2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Xocalıya ədalət!" kampaniyası aparır, səsimizi dünyaya çatdırır. Allah xalqımıza, dövlətimizə bundan sonra belə faciəvi günlər qismət etməsin. Biz o ağrı-acıları yaşadıq, övladlarımız yaşamasın...

Dövlətimiz işğaldan azad edilən torpaqlarımızda böyük quruculuq işləri aparır. Xocalıya da həyat qayıdıb. Ailəmiz Təzəbinə kəndində evlə təmin olunub. Biz Xocalıya dönüb atamın söndürülmüş ocağını yenidən yandırmışıq.

### Dirçəliş hekayəsi

Xocalı müsibəti yaşananda Ruslan cəmi 3 yaşında olub. Buna görə də Xocalını, şəhid atasını, qardaşlarını xəyal kimi xatırlayır. Ötən müddətdə Xocalının müsibətli günlərinin dumanlı xatirələri ilə yaşayıb. Ata sevgisi nə olduğunu bilməyən körpə Ruslan anası Narxanımın, qardaşları Mürvətlə Əhmədin göstərdikləri qayğı və dəstəklə böyüyüb. Vətəninə layiqli gənclərdən biri kimi yetişən Ruslan bu gün övladları ilə bərabər Xocalıya dönüb. O, 36 yaşında yurdu ilə yenidən tanış olub, yaddaşının dərinliklərində hələ də yaşayan köhnə Xocalı ilə göz yaşları içərisində salamlaşıb: "Xocalıya qayıtmaq mənim üçün öz xatirələrimi tapmaq demək idi. Uşaqlıqda Xocalını tərk etmişdim, atam və şəhər haqqında çox az şey xatırlayıram. Amma indi buradayam və hara baxsam sanki itirdiyim xatirələrimi yenidən toplayıram. Övladlarımla birlikdə Xocalını addım-addım gəzir, onun dağlarına, meşələrinə, düzlərinə, çaylarına yenidən bələd oluram. Bu, bizim üçün fiziki yox, mənəvi qayıdışdır".



Məmmədovlar ailəsinin üzvlərinin sözlərində həm keçmişin acısı, həm də indiki həyatın sevinci əks olunub. Bu qayıdış onu göstərir ki, itirilmiş illər və xatirələr geri dönməsə də, onları anlamaq, onlarla barışmaq və öz həyatında yeni səhifə açmaq mümkündür.

Bəli, bu, bir ailənin timsalında Xocalının yenidən doğuluşunun hekayəsidir. Keçmişin ağrı-acısı buradakı hər bir yeni evin həyat hənirində sanki yumşalır, hər eşidilən gülüş, sevinc nidası, paylaşılan xatirə ürəklərdə fərəhli iz qoyur. Burada qurulan isti yuvalar Xocalının taleyində yeni bir səhifə açır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Xocalı soyqırımına obyektiv siyasi-hüquqi qiymətin verilməsi beynəlxalq ictimaiyyətin mənəvi borcudur



**1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərinə hücum edərək dinc əhaliyə qarşı misli görünməmiş vəhşilik törədib. Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız Holokost soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı faciə ilə müqayisə oluna bilər. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.**

Ulu Öndər Heydər Əliyev bu barədə deyib: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edib. Bu qərarla 26 fevral tarixi Xocalı soyqırımı günü elan edilib. Xocalı soyqırımı beynəlxalq səviyyədə də geniş şəkildə tanınıb. Bu günədək bəzi ölkələrin qanunverici orqanları Xocalı faciəsi ilə bağlı müvafiq qətnamələr qəbul edib. Bundan əlavə, Amerika Birləşmiş Ştatlarının 24 ştatı da Xocalı soyqırımını tanıyan və ya pisləyən sənədlər qəbul edib. 20 noyabr 2012-ci il tarixində Cibutidə keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında Xocalıda törədilmiş cinayətlərin soyqırımı kimi tanınmasına dair qətnamənin qəbul edilməsi beynəlxalq islam ictimaiyyətinin Xocalı həqiqətlərinə verdiyi siyasi-hüquqi qiymətin mühüm ifadəsidir. 2013-cü ilin fevral ayında Qahirədə keçirilən İƏT-in İslam Zirvə Konfransının 12-ci sessiyasında qəbul edilən Yekun Kommünikedə də üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində zəruri səylər göstərməyə çağırılıb. Bu çağırış Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və ədalətin bərpası baxımından mühüm əhəmiyyət daşıyır.



Xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə 10 abidə ucaldılıb. Bu abidələr faciə qurbanlarının əziz xatirəsinin beynəlxalq miqyasda yad edildiyini və Xocalı həqiqətlərinin dünya ictimai şüurunda öz yerini tutduğunu göstərir. 2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu həqiqətlərin dünyaya çatdırılmasında mühüm rol oynayır.

"Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik", - deyən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində Xocalı şəhidlərinin qanı yerdə qalmadı. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu Qarabağı işğaldan azad etdi. Xüsusilə 2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri nəticəsində Xocalı və digər ərazilər tamamilə Azərbaycanın suveren nəzarətinə qaytarıldı. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının dövlət bayrağını ucaltdı. Bununla da 1992-ci ildə Xocalıda soyqırım törədənlərə və işğalçılara layiqli cavab verildi. Bu zəfər bir daha sübut etdi ki, Azərbaycan heç bir haqsızlığı və ədalətsizliyi unutmur və torpaqlarının bir qarışından belə vaz keçmir. Azərbaycan öz torpaqlarına sahib çıxıb və bu ərazilərdə yenidən üçrəngli bayrağımız dalğalanır.

İşğaldan azad edilmiş Xocalı şəhəri və rayonun kəndlərində məskunlaşma prosesi mərhələli və planlı şəkildə davam etdirilir. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri nəticəsində Xocalıya həyat yenidən qayıdır, infrastruktur qurulur, sosial obyektlər istifadəyə verilir, iqtisadi fəaliyyət bərpa olunur. Xocalının inkişafı Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət başçısının Xocalıya mütəmadi səfərləri aparılan işlərin sürətini və keyfiyyətini daha da artırır. Bütün bu addımlar göstərir ki, Xocalı həm də dirçəlişin və quruculuğun simvoluna çevrilir. Dövlətin siyasi iradəsi və xalqın birliyi sayəsində Xocalıda həyat bərpa olunur, sosial-iqtisadi inkişaf təmin edilir və şəhər özünün yeni inkişaf mərhələsinə qədəm qoyur.

Xocalı işğaldan azad edilsə də, Xocalı soyqırımını törədənlərin əksəriyyəti hələ də ədalət məhkəməsi qarşısında cavab verməyib və cəzasını almayıb. Xocalı soyqırımına beynəlxalq aləmdə ədalətli siyasi qiymət verilməsi, onun insanlığa qarşı törədilən soyqırımı kimi tanıdılması və bu soyqırımı törədənlərin məsuliyyətə cəlb edilməsi istiqamətində səylər davam etdirilir. Beynəlxalq hüquq normalarına əsasən, soyqırımı cinayəti zaman aşımına məruz qalmır və bu cinayəti törədən şəxslər məsuliyyətdən yayınmamalıdır. Xocalı soyqırımına obyektiv və prinsipial siyasi-hüquqi qiymətin verilməsi beynəlxalq təşkilatların və dünya dövlətlərinin mənəvi borcudur. Bu, həm də beynəlxalq hüququn aliliyinin təmin olunmasına xidmət edir. İnanırıq ki, ədalət gec-tez zəfər çalacaq, Xocalı soyqırımını törədənlər ədalət məhkəməsi qarşısında cavab verəcəklər və öz layiqli cəzalarını alacaqlar.

*Vasif QAFAROV,*
*Milli Məclisin deputatı,*
*tarix elmləri doktoru*




# XX əsrin faciəsi - Xocalı soyqırımı



# Tarixin haqq divanı

**Azərbaycanın Vətən müharibəsindəki tarixi zəfərini tamamlayan və cəmi 23 saat davam edən antiterror tədbirləri, Qarabağda onilliklər boyu kök salmış separatizm yuvasını darmadağın edərək dövlət suverenliyimizin bərpası ilə nəticələndi. Bu qətiyyətli addım, Ermənistanın və ona havadarlıq edən bəzi qərəzli xarici dairələrin Azərbaycan torpaqlarında "ikinci erməni dövləti" yaratmaq xülyalarına sarsıdıcı zərbə vurdu. 2023-cü ilin sentyabrı xalqımıza qarşı milli düşmənçilik aparan cinayətkar rejimin birdəfəlik süqutu və illərlə qanlı cinayətlərə rəhbərlik etmiş separatçı ünsürlərin - harutyunyanların, qukasyanların, sahakyanların, işxanyanların, vardanyanların... və digərlərinin Azərbaycan ədaləti qarşısında qanunauyğun şəkildə cavab verməsi ilə müasir tariximizə hüququn təntənəsi kimi həkk olundu.**

### İki əsrin müsibəti

Düz iki əsr boyu erməni faşistləri Azərbaycan xalqına faciə ardınca faciə yaşadıb. Hələ 1992-ci il fevralın 26-na - əsrin müsibəti olan Xocalı soyqırımına qədər erməni qatilləri azərbaycanlılara qarşı ard-arda kütləvi qətliamlar törədiblər. Azərbaycanın Ermənistanla həmsərhəd olan Qazax rayonunun Bağanıs Ayrım kəndinin, keçmiş Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Ermənilərin təkcə Xocavənd rayonunun Qaradağlı kəndində törətdiyi qırğın nəticəsində kəndin hər 10 sakinindən biri şəhid olub, 104 nəfər və müdafiə dəstəsinin 15 üzvü əsir götürülüb, onlardan 80 nəfəri qətlə yetirilib. 1992-ci il fevralın 26-da Xocalıda erməni qatillərinin törətdiyi soyqırımı nəticəsində 613 nəfər qətlə yetirilib. Həmin zaman erməni vəhşiləri tərəfindən girov götürülən 1275 nəfərə ağlasığmaz işgəncələr verilib. Bu gün də həmin girovlardan 150 nəfərin taleyi məlum deyil.

Xocalı soyqırımından sonrakı dövrlərdə də Azərbaycan xalqı dəfələrlə erməni faşizmi ilə üz-üzə qalıb. Eləcə də Vətən müharibəsi dövründə savaş meydanından uzaqda yerləşən şəhər və kəndlərimizə raket zərbələri endirilərək mülki əhalimiz hədəfə alınıb. Əlləri azərbaycanlıların qanına batmış Serj Sarkisyan, Arayik Harutyunyan qatil əməllərini beynəlxalq mediaya müsahibələrində də, videokamera önündə də dünyaya etiraf etməkdən çəkinməyiblər.

### Ağrının içindən keçən illər

Bununla düşmən elə zənn edirdi ki, törətdiyi vəhşiliklər unudulacaq, Azərbaycan xalqı öz torpaqlarının itkisi və çəkdiyi soyqırımı acıları ilə barışacaq. Onlar qatillərin cəzasız qalacağına, etnik təmizləmə siyasətinin əbədi olacağına inanırdılar. Lakin bir şeyi unutdular: biz nifrətimizi də, qəzəbimizi də o faciələrin yaşandığı ilk günkü kimi saxladıq.

Düzdür, ötən onilliklər ərzində çox çarəsiz anlarımız oldu. 20 Yanvarın soyuqluğunda, 26 fevralın qanlı qarında, 18 aprelin nisgilində boğulduq... Rayonlarımız bir-bir əlimizdən gedəndə tökdüyümüz göz yaşları sadəcə kədər deyil, daxili fəryadımız oldu.

O qədər iztirab çəkdik ki...

Doğmaları gözləri önündə işgəncələrlə öldürülən xocalılılara təsəlli verməyə söz tapmadıq. Dərddən havalanıb saçlarını yolan anaları ovuda bilmədik. Ata-anasız qalan körpələrə bu amansız yoxluğu izah edə bilmədik. Amma bu sınaqlar bizi sındırmadı, əksinə, qəlbimizdəki qisas alovunu daha da körüklədi.

Xocalıda, Ballıqayada, Meşəlidə, Ağdabanda, Başlıbeldə... yaşanan müsibətləri yaddaşımıza həkk etdik. And içdik: süngülənən körpələrin, təhqir olunan, diri-diri yandırılan, basdırılan qadınların, qocaların qisasları qiyamətə qalmayacaq! Yurdundan didərgin düşən yüz minlərlə insanın ayaqyalın, başıaçıq keçdiyi o yolları bir gün qalib kimi qayıdacağımıza söz verdik.

Məhz bu müqəddəs and sayəsində qəddimizi əyən ağrı-acı, kədər yükünə dözüm gətirərək dik dayana bildik. Qəlbimizdə bir qərinə boyunca böyütdüyümüz o qisas alovu 2020-ci ildə düşmənlərimizə od vurdu. 44 günlük Vətən müharibəsində qəhrəman Azərbaycan döyüşçüsü sadəcə torpaqlarımızı azad etmədi, həm də əliyalın insanların qatillərinin nəfəsini kəsdi. Qarabağın və Şərqi Zəngəzurun ən uca zirvələrində dalğalanan üçrəngli bayrağımız şəhid ruhlarına verilən ən böyük hesabat oldu.

Zəfər tariximiz 2023-cü ilin antiterror tədbirləri ilə öz zirvəsinə çatdı. Cəmi 23 saata mənfur yuvaları darmadağın edən polad iradəli oğullarımız bizə tam suverenliyimizi bəxş etdi.

### Haqqın qələbəsi

Bu gün xalqımızın qanına susamış erməni qatillər qanun qarşısında cavab veriblərsə, bu, həm tarixin, həm də şanlı Azərbaycan Ordusunun Qarabağda yazdığı ədalət dərsi oldu.

Azərbaycan qanunları ilə mühakimə olunan Ermənistan vətəndaşlarına fevralın 5-də hökm oxundu. Bakı Hərbi Məhkəməsində aparılan məhkəmə prosesində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən şəxslər, Arkadi Qukasyan, Bako Sahakyan, Arayik Harutyunyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan, David Manukyan və digər separatçılar qanun qarşısında cavab verdilər.

Fevralın 17-də isə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyana hökm oxundu. O, 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edildi.

Müasir Azərbaycan vətəndaşları olaraq, tarixin ən şərəfli səhifələrinin təkcə şahidi deyil, həm də iştirakçısı olduğumuz üçün qürur duyuruq. Qəlbimizdə illərlə gəzdirdiyimiz o böyük əminlik artıq gerçəkliyə çevrilib: erməni cəlladlarından qisasımız alındı! Şükürlər olsun ki, Tanrı bizə o qatillərin diz çökdüyü, qorxudan tir-tir əsdiyi günü öz gözlərimizlə görməyi nəsib etdi.

Xocalıda, Meşəlidə, Ballıqayada, Ağdabanda, Başlıbeldə... soydaşlarımıza qarşı qatil əməllər törədənlər haqq divanına çəkildilər. Amma onlar üçün ən ağır cəza təkcə dəmir barmaqlıqlar deyil.

Onlar üçün ən dəhşətli cəza, işğal etdikləri, viran qoyduqları torpaqların indi cənnətə çevrilməsini görməkdir. Vaxtilə yurdlarından zorla didərgin saldıqları insanların gülə-gülə, zəfər karvanları ilə doğma el-obalarına - Xocalısına, Şuşasına, Ağdamına, Xankəndisinə... qayıtmasını izləməkdir.

"Məğlubedilməz" sandıqları separatizmin başının "dəmir yumruq"la əzilməsinə şahid olmaqdır.

Və nəhayət, Azərbaycanın tam suveren, vüqarlı və qalib bir dövlət kimi ayaqda durmasını seyr etməkdir!

Bəli, erməni faşistləri, dünya erməniliyi və onlara havadarlıq edənlər üçün bundan böyük rəzalət, bundan daha ağır mənəvi işgəncə və cəza ola bilməz. Çünki bu, sadəcə bir müharibənin sonu deyil, haqqın şər üzərindəki mütləq qələbəsidir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***




# Xalqımız Xocalı faciəsini bu gün həm də Xocalıda anır



**34 il tarix üçün böyük zaman deyil. Amma bu 34 ilin bütün ağrı-acıları, təəssüf və kədər hissləri bir neçə 34 ilin dərd-qəmi qədər ağır və dözülməzdir. Bu baxımdan, Azərbaycan xalqı 34 illik tarixi olan Xocalı faciəsini unuda bilmir. Etiraf edək ki, bu, nə qədər acı və kədərli olsa da, torpaqlarımızın işğaldan azad olunmasından sonra istər-istəməz içimizdən bir qürur hissi də keçir. Bu qürur da Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm quruculuq işlərindən doğur.**

Həm də qürurlanırıq ona görə ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və şanlı ordumuzun şücaəti sayəsində ərazi bütövlüyümüz bərpa olunub, 30 ilə yaxın işğal altında olan torpaqlarımız 44 günlük Vətən müharibəsində düşmən tapdağından azad edilib, Xocalı faciəsi qurbanları da bura daxil olmaqla, erməni vandalları tərəfindən qətlə yetirilmiş günahsız soydaşlarımızın qanı yerdə qalmayıb. 2023-cü ilin sentyabrında Qarabağda keçirilən antiterror tədbirləri zamanı tutularaq qolu qandallı Bakıya gətirilən Ermənistan Respublikasının vətəndaşları, başda əldəqayırma "respublikanın prezidenti" Arayik Arutyunyan və Rusiyadan qaça-qaça Ermənistana prezident olmaq arzusu ilə Xankəndiyə gələn milyarder Vardanyan və digərlərinin bu günlər Bakı Ağır Cinayətlər Məhkəməsində layiqli cəza almaları dediklərimizə canlı sübutdur. Kədər ovqatlı bu günlərdə həm də sevinirik ona görə ki, 30 il Xocalı həsrəti ilə yaşayan xocalılılar artıq yurdlarına qayıdırlar. Bax bizi sevindirən bu qayıdış, onların ata-baba ocağına qovuşmaq ovqatlarıdır.

34 il əvvəl qarlı-şaxtalı, tufanlı qış gecəsində mənfur düşmən çox qəddar və amansız əməlləri ilə xocalılılara arxadan zərbə vurdu. Ermənilər xislətlərinə xas olan əməlləri ilə millətimizə bağışlanılmaz xəyanət etdi. Xəyanət etmək, cinayət törətmək, adam öldürmək, torpaq işğal etmək, təcavüzkarlıq, bədxahlıq və digər zərərli əməllər ermənilər üçün çox adi haldır. Yəni gözləniləndir. Bu gözləntilər sırasında isə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda Ermənistan silahlı qüvvələri tərəfindən insanlığa qarşı törədilmiş ən dəhşətli faciənin oxşarı yoxdur. 366-cı motoatıcı alayının iştirakı ilə gerçəkləşən bu qanlı hadisə nəticəsində Xocalı şəhəri qarlı-çovğunlu qış gecəsində ölüm-dirim meydanına çevrildi, qan su yerinə axdı, günahsız insanların ah-naləsi, fəryad səsləri göylərə yüksəldi.

Ulu Öndər Heydər Əliyevin dediklərini xatırlamaq yerinə düşər: "Xocalı soyqırımı XX əsrin ən böyük insan faciələrindən biridir. Xocalıda misli görünməmiş qəddarlıqla törədilmiş bu insan qırğınının Yer kürəsinin hər hansı bir guşəsində baş verməsinin qarşısını almaq üçün Xocalı soyqırımı həqiqətləri dünya ictimaiyyətinə hərtərəfli çatdırılmalı və humanizm ideallarına sədaqət nümayiş etdirən bütün insanların bu faciəyə öz qəti, birmənalı mövqelərini bildirmələri üçün ciddi və məqsədyönlü iş aparılmalıdır".

Prezident İlham Əliyev isə bu faciə barədə danışarkən qeyd etmişdir ki, Xocalı faciəsi 200 ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir. Dövlət başçısının uğurlu xarici siyasəti sayəsində dünyanın 18-dən artıq ölkəsi bu faciəni soyqırımı kimi tanıyıb. Çünki XX əsrin sonunda törədilmiş bu qətliam təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.

Ermənilərin Xocalını hədəfə almaqda məqsədləri bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan strateji əhəmiyyətli "maneə"ni aradan qaldırmaq idisə, digər tərəfdən şəhəri Yer üzündən birdəfəlik silmək idi. Bununla da Qarabağın digər ərazilərində olduğu kimi, min illərlə burada yaşamış yerli azərbaycanlı əhalini öz dədə-baba yurdundan perik salıb, istədiklərinə çatmaq idi. Xocalı elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər olan tarix və mədəniyyət ənənələrimizi özündə əks etdirirdi. Çox təəssüf ki, erməni işğalından sonra bu ərazidə bütün maddi-mədəniyyət abidələrinin məhv edilməsi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsilə darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla, dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır.

Biz artıq 34 il əvvəlki Azərbaycan Respublikasının vətəndaşları deyilik. Biz azad, müstəqil, demokratik, dünyəvi, unitar, suveren, hüquqi bir dövlətin vətəndaşlarıyıq. Biz həm də qalib bir ölkənin zəfər çalmış sakinləriyik. 44 günlük Vətən müharibəsi ilə qəhrəman Azərbaycan Ordusu bütün dünyaya sübut etdi ki, Xocalı bizim müqəddəs tarixi yurd yerlərimizdən biridir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və ordumuzun şücaəti sayəsində doğma Xocalının qisası yetərincə alınmışdır.

İctimaiyyətdə məmnunluq doğuran həm də odur ki, dövlət başçısı İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti sayəsində işğaldan azad edilən bütün el-obalarımız, yurd yerlərimiz kimi, Xocalı da yenidən qurulur.

Ötən ilin dekabrında ilk qayıdış köçü həyata keçirilən Xocalının Ballıca kəndində artıq 460 keçmiş köçkün yerləşib. Dövlət başçısı Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, kəndə köçən bir qrup sakinlə görüşəndə Xocalının Azərbaycan üçün əhəmiyyətini xüsusi olaraq vurğulayaraq bildirib ki, Ballıca kəndi bərpa etdiyimiz və keçmiş köçkünlərin qayıtdığı 1-ci yaşayış məntəqəsidir. Hazırda kənddə 460 keçmiş məcburi köçkün yerləşib. Dövlət başçısı qeyd edib ki, Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Xatırladaq ki, 1992-ci ildə ermənilərin ən böyük terror dəstələri məhz Ballıca kəndində məskunlaşmış və burada öz çirkin əməllərini həyata keçirməyə başlamışlar.

Hazırda Xocalıda həyat yenidən qaynayır. İşğaldan azad edilən yurd yerlərimizə qayıdan, orada yaşayan insanların üzlərində sevinc, gözlərində inam, xoşbəxtlik görünür. Prezident İlham Əliyevin Xocalı rayonunun Ballıca kəndində öz doğma evlərinə qayıdan soydaşlarımızla görüşməsi və səmimi söhbət etməsi dövlət başçımızın xocalılılara olan sevgisinin nümunəsidir.

Bəli, Xocalı faciəsi və Xocalıya qayıdış unudulmaz tarixdir. 30 illik erməni işğalından azad olunan rayonlarımız, kəndlərimiz başdan-başa yenidən qurularaq mərhələ-mərhələ sakinlərinin ixtiyarına verilir. Xalqımız bu gün Xocalı faciəsini həm də Xocalıda anır.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# Xocalı faciəsi insanlığın üz qarasıdır və gənc nəsillərə unutdurulmamalıdır

**"Xocalı soyqırımının 34-cü ilindəyik. Xocalı soyqırımı insanlıq aləminin üz qarası olan ağır bir cinayətdir və bu hadisə Ermənistanın həyata keçirdiyi zülm siyasətinin son nümunələrindən biridir".**



Bunu AZƏRTAC-a açıqlamasında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin rəhbəri, professor Akkan Suver deyib.

Onun sözlərinə görə, Xocalı faciəsi sadəcə keçmişin acı xatirəsi deyil, gələcək nəsillər üçün ciddi bir tarixi dərsdir.

"Xocalını anarkən, xüsusilə, gənclərə müraciət etmək istəyirəm. İnsanlar dünənini bilməsələr, sabahlarını qura və planlaşdıra bilməzlər. Ona görə də Xocalı qətliamı, Xocalı soyqırımı gənc nəslə dərindən anlatılmalı, onların yaddaşına həkk olunmalıdır", - deyə professor vurğulayıb.

Akkan Suver qeyd edib ki, bu gün Xocalı şəhidlərini dərin ehtiramla yad edərkən eyni zamanda qürur hissi keçirir: "Artıq ürəyim rahatdır, çünki bu gün Xocalı və bütövlükdə Qarabağ torpaqları yenidən Vətən torpağıdır. Başda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev olmaqla bu torpaqları yenidən Vətən edən qəhrəman əsgər və zabitlərin hamısını hörmət və ehtiramla salamlayıram".

Professor Akkan Suver belə faciələrin bir daha təkrarlanmaması üçün bütün insanlığı səylərini birləşdirməyə çağırıb: "Bir daha Xocalıdakı kimi faciələrin yaşanmaması üçün çox çalışmalı, çox səy göstərməliyik".

# Milli Kitabxanada Xocalı soyqırımı ilə əlaqədar hazırlanmış elektron layihələr istifadəçilərə təqdim olunub

**Milli Kitabxanada Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar, Xocalı faciəsi qurbanlarının xatirəsinə həsr olunmuş "26 fevral - Xocalı soyqırımı", "Khojaly genocide" və "Khojaly tragedy - Photo Exhibition" adlı virtual sərgilər istifadəçilərə təqdim olunub.**




Kitabxanadan AZƏRTAC-a bildirilib ki, "26 fevral - Xocalı soyqırımı" adlı virtual sərgidə azərbaycanlılara qarşı apardığı soyqırım siyasəti, işğaldan azad edilmiş ərazilərdə aşkarlanan kütləvi məzarlıqlar, ağlasığmaz qəddarlıqla törədilmiş dəhşətli faciələr haqqında dövri mətbuatda çap olunan məqalələr, Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar və fotolar nümayiş olunur.

Əcnəbi istifadəçiləri Xocalı soyqırımı haqqında məlumatlandırmaq məqsədilə ingilis dilində təqdim olunan "Khojaly genocide" adlı virtual sərgidə Xocalı faciəsini özündə əks etdirən ingilis dilində kitablar və altyazılı fotoşəkillər nümayiş olunur.

Dünya ictimaiyyətini erməni qəsbkarlarının törətdiyi cinayətlərlə tanış etmək məqsədilə ingilis dilində onlayn rejimdə təqdim olunan "Khojaly tragedy - Photo Exhibition" adlı virtual sərgidə Azərbaycanın görkəmli şəxsiyyətlərinin Xocalı soyqırımı haqqında fikirləri, erməni vandalizmi, Xocalı ağrısını özündə əks etdirən fotolar nümayiş olunur.

# Leyla Əliyeva və Alena Əliyeva Quba şəhərində internat tipli ümumtəhsil məktəbini və STEAM mərkəzini ziyarət ediblər





**Fevralın 24-də Leyla Əliyeva və Alena Əliyeva Quba rayonuna səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Leyla Əliyeva və Alena Əliyeva Quba şəhərində internat tipli ümumtəhsil məktəbini və STEAM mərkəzini ziyarət ediblər.

Əvvəlcə Quba şəhər ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbinə baş çəkilib. Bildirilib ki, burada 79-u oğlan, 35-i qız olmaqla 114 məktəbli təhsil alır. Leyla Əliyeva və Alena Əliyeva internat məktəbində yaradılan şəraitlə tanış olub, uşaqlarla səmimi söhbət edib, onların məşğələ proseslərini izləyib, fotolar çəkdirib və şagirdlərə məktəbli ləvazimatları təqdim ediblər. Məktəbdə şagirdlər tərəfindən hazırlanan mədəni proqram təqdim olunub, şeirlər səsləndirilib, mahnılar ifa olunub.



Daha sonra Quba STEAM mərkəzi ziyarət olunub. Mərkəzlə tanışlıq zamanı xatırladılıb ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan məktəblərində 2019-cu ildən etibarən STEAM (Science, Technology, Engineering, Art, Mathematics) layihəsinin geniş tətbiqinə başlanılıb. Qeyd olunub ki, STEAM mərkəzi Qubada 2021-ci ildən fəaliyyət göstərir və bütün yaş qrupları üçün nəzərdə tutulub. Leyla Əliyeva və Alena Əliyeva mərkəzdə yaradılan şəraitlə yaxından tanış olub, şagirdlərlə səmimi söhbət aparıb, onların burada əldə etdikləri bilik və bacarıqların praktiki tətbiqi ilə maraqlanıblar.

Sonda uşaqlar və məktəbin kollektivi ilə xatirə şəkilləri çəkdirilib.

# Leyla Əliyeva və Alena Əliyeva Cümə məscidini ziyarət ediblər




**Fevralın 24-də Leyla Əliyeva və Alena Əliyeva Quba rayonuna səfər çərçivəsində şəhərin əhəmiyyətli tarixi-memarlıq abidələrindən olan Cümə məscidini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, ziyarət zamanı məscidin imamı Seyran Fərəczadə və məscidin dini icmasının sədri İlqar Bayramov Quba Cümə məscidi barədə ətraflı məlumat verib.

Bildirilib ki, məscid XIX əsrin unikal memarlıq nümunələrindən biri olmaqla bölgənin dini-mədəni həyatında mühüm yer tutur. Məsciddə Quran kursunun fəaliyyət göstərdiyi qeyd olunub. Leyla Əliyeva və Alena Əliyeva həmin otağa da baş çəkiblər.

Sonda Leyla Əliyeva və Alena Əliyevaya "Qurani-Kərim" hədiyyə olunub.

# Leyla Əliyeva Vətən Müharibəsi Qəhrəmanı Şahin Allahyarovun ailəsini ziyarət edib




**Fevralın 24-də Leyla Əliyeva Vətən Müharibəsi Qəhrəmanı, Dövlət Sərhəd Xidmətinin şəhid baş giziri Şahin Allahyarovun ailəsini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Leyla Əliyeva şəhidin xatirə guşəsi ilə tanış olub.

Daha sonra şəhidin anası Nərgiz Allahyarova ilə söhbət edib, onun oğlu haqqında xatirələrini dinləyib, şəhidin həyatının müxtəlif dövrlərini əks etdirən şəkillərinə baxıb, Vətən müharibəsi dövründə ailə üzvlərinə göndərdiyi videoçarxı izləyib. N.Allahyarova şəhid ailələrinə göstərilən diqqət və qayğıdan məmnunluq ifadə edib, dövlətimizin başçısına və ailə üzvlərinə minnətdarlığını bildirib, ölkəmizə sülh, əmin-amanlıq arzulayıb.

Leyla Əliyeva şəhidin ailə üzvlərinə hədiyyələr təqdim edib, onlarla şəkil çəkdirib.

Qeyd edək ki, Azərbaycan Ordusunun baş giziri Şahin Allahyarov 2020-ci ildə 44 günlük Vətən müharibəsində Füzulinin, Cəbrayılın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Noyabrın 1-də Şuşa uğrunda döyüşlər zamanı şəhid olub. Quba rayonunda dəfn edilib.

Döyüşlər zamanı göstərdiyi igidliyə görə Prezident İlham Əliyevin sərəncamına əsasən, Şahin Allahyarov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif olunub.

# Leyla Əliyeva Qubada arıçı ailəsinin qonağı olub

**Fevralın 24-də Leyla Əliyeva Quba rayonuna səfəri çərçivəsində arıçı Zəfər Əzizovu evində ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, görüş zamanı Leyla Əliyeva arıçı ailəsi ilə səmimi söhbət edib, təsərrüfatın gündəlik fəaliyyəti ilə yaxından maraqlanıb. Zəfər Əzizov arıçılıq sahəsindəki təcrübəsi və ailəsinin təsərrüfatı olan "Ballı Pətək" brendi haqqında ətraflı məlumat verib. 1997-ci ildən peşəkar arıçılıqla məşğul olmağa 2 arı ailəsi ilə başladığını bildirən Z.Əzizov hazırda onların sayının 200-ü ötdüyünü deyib. Qeyd edib ki, ailə təsərrüfatı 2010-cu ildən "Ballı Pətək" brendi ilə fəaliyyətini genişləndirərək bazara may, meşə və dağ balları təqdim edir. Z.Əzizov bal və digər arı məhsullarını əldə etmək üçün arı ailələrini Xaçmaz, Şabran, Qusar, Quba və başqa rayonlara apardığını vurğulayıb. Bildirilib ki, illik istehsal gücü 2-3 ton olan təsərrüfatda həmçinin arı südü, çiçək tozu və güləm kimi faydalı məhsullar əldə edilir. Bununla yanaşı, Z.Əzizov cins ana arı yetişdirməklə də məşğuldur.



Səmimi mühitdə keçən görüşün davamında Leyla Əliyeva ev sahibləri ilə birgə arı mumundan təbii şamların hazırlanmasında yaxından iştirak edib.

Arıçı Zəfər Əzizov və ailəsi Leyla Əliyevaya səmimi ziyarətə və diqqətə görə minnətdarlığını ifadə edib, ona hədiyyə təqdim edib.

# "Azərxalça" ASC-nin Şuşa məscidi üçün hazırladığı növbəti xalçalarının kəsim mərasimi keçirilib

## Leyla Əliyeva xalçaların kəsim mərasimində iştirak edib

**Fevralın 24-də Heydər Əliyev Fondunun, "PASHA Holding"in və "PMD Projects"in təşkilatçılığı ilə "Azərxalça" ASC-nin yaradıcı heyəti və usta toxucularının birgə zəhməti nəticəsində Şuşa məscidi üçün hazırlanan növbəti xalçaların kəsim mərasimi "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Şabran filialında keçirilib.**



AZƏRTAC xəbər verir ki, xalçaların kəsim mərasimi Leyla Əliyevanın iştirakı ilə olub. Leyla Əliyeva emalatxananın fəaliyyəti ilə tanış olub, toxucularla söhbət edib, xalçalara son ilmələri atdıqdan sonra Şuşa məscidi üçün hazırlanan xalçaların kəsim mərasimində iştirak edib.

Qeyd edək ki, Şuşa məscidinin ikinci mərtəbəsinin interyeri üçün nəzərdə tutulan xalçalar milli xalçaçılıq ənənələrinə uyğun olaraq xüsusi dizayn əsasında hazırlanıb. Hər birinin eni 12, uzunluğu 19 metr olan iki xalçanın ümumi uzunluğu 38 metrdir. Məscidin qadınların ibadəti üçün nəzərdə tutulan hissəsindən ötrü hazırlanan bu iki xalçanın toxunmasına 2025-ci il yanvarın 21-də başlanılıb. Şabranda toxunan iki xalçanın ərsəyə gəlməsində 50-yə yaxın toxucu qadın iştirak edib, onlar 50 milyona yaxın ilmə atıblar. Xalçalar Azərbaycan xalçaçılıq sənətinin yüksək peşəkarlığını və zəngin bədii irsini özündə əks etdirir. Xalçanın tam şəkildə toxunması üçün xüsusi olaraq yeni və fərqli üslubda iki dəzgah sifariş edilib. Dəzgahlar xaricdən dəvət olunmuş mütəxəssis qrupu tərəfindən məhz "Azərxalça" ASC üçün hazırlanıb.



Xatırladaq ki, Şuşa məscidinin birinci mərtəbəsi üçün hazırlanmış, diametri 22,17 metr olan və ümumdünya xalçaçılıq tarixində analoqu olmayan dairəvi əl xalçasının kəsilməsi mərasimi bu ay Leyla Əliyevanın iştirakı ilə keçirilmişdi. "Qarabağ" xalça qrupuna aid motivlər və "Xətai" ornamentləri əsasında hazırlanan həmin nadir sənət əsərinin toxunma prosesində 150 toxucu xanım iştirak edib, xalçaya təxminən 60 milyon ilmə vurulub.

# Leyla Əliyeva Qubada iftar məclisində iştirak edib




**Fevralın 24-də Leyla Əliyeva Qubada şəhid ailələri və rayon ictimaiyyəti ilə birlikdə iftar məclisinə qatılıb.**




AZƏRTAC xəbər verir ki, əvvəlcə Leyla Əliyeva "Bizim Mətbəx" layihəsinin könüllüləri ilə birlikdə yeməklərin iftar süfrəsi üçün hazırlanmasında yaxından iştirak edib. Müqəddəs Ramazan ayının mənəvi dəyərlərinin paylaşıldığı məclisdə sakinlərlə birlikdə iftar edilib, dualar oxunub.

Sakinlər təşkil olunan iftar süfrəsinə və göstərilən diqqətə görə səmimi minnətdarlıqlarını bildiriblər.



# Azərbaycanın xarici siyasətinin uğurları




## Sülh Şurası böyük gələcəyi olan institutdur



**Böyük güclərin beynəlxalq hüquqa hörmət etməməsi nəticəsində beynəlxalq təşkilatlar qlobal və regional məsələlərdə ciddi rol oynaya bilmirlər. Onlara illik üzvlük haqqı ödənilməsi belə faydasız görünür. Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında yerli televiziya kanallarına müsahibəsi zamanı demişdi: "Beynəlxalq hüquq artıq əvvəlki kimi qüvvədə deyil və bir çox ölkələr ona sadəcə məhəl qoymur. Beləliklə, yeni dünya nizamının və ya dövlətlərarası münasibətlərin yeni sisteminin formalaşması artıq qaçılmaz idi. Məsələ ondaydı ki, bu istiqamətdə ilk addımı atmaq məsuliyyətini kim öz üzərinə götürəcək. Prezident Tramp Sülh Şurasının təşəbbüsü ilə çox yaxşı iş gördü - bu, böyük gələcəyi olan bir institutdur".**

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan torpaqları işğal altında olan zaman beynəlxalq hüququn işləməməsi ucbatından problemlərlə üzləşib, 30 ilə yaxın sülh danışıqları nəticə verməyib, işğala son qoyulmayıb. ATƏT-in Minsk qrupu uğursuz olub, BMT-nin 4 qətnaməsi kağız üzərində qalıb: "Getdikcə daha çox ölkə anlayır ki, dövlətlərarası münasibətlərə, təhlükəsizlik məsələlərinə və beynəlxalq institutların fəaliyyətinə yanaşmanı yenidən nəzərdən keçirmək lazımdır. Görürük ki, Birləşmiş Millətlər Təşkilatı tamamilə iflic vəziyyətindədir və heç bir məsələyə təsir göstərə bilmir, üstəlik, alternativ də yoxdur. Dünya nizamı sivil dünya üçün yeni münasibətlər mexanizmi və beynəlxalq hüququn işlək forması üzərində olmalıdır".

Deputat qeyd edib ki, ABŞ BMT-yə alternativ, dünya ölkələrini xoş amal - "sülh" devizi altında birləşdirən çoxvektorlu şura yaradıb. Dünyada sabitliyin təşviqini, etibarlı və qanuni idarəetməni bərpa etmək və münaqişədən təsirlənən ərazilərdə dayanıqlı sülh prosesini dəstəkləyən beynəlxalq təşkilat - Sülh Şurasına Azərbaycan ABŞ Prezidenti Donald Trampın dəvəti ilə təsisçi dövlət olaraq qəbul edilib.

P.Vəliyeva bildirib ki, bu, Azərbaycanın güclü beynəlxalq nüfuzunu və qlobal güclər tərəfindən ona etimad edildiyini sübut edir: "Bu, həm də Azərbaycanın artıq yalnız regional deyil, qlobal miqyasda dialoqun və tənzimlənmənin aparıcı tərəflərindən birinə çevrildiyini göstərir. Prezident İlham Əliyevin beynəlxalq arenada şəxsi nüfuzu və liderlik keyfiyyətləri, Azərbaycanın prinsipial, müstəqil, eyni zamanda praqmatik siyasət yürütməsi dünya liderləri tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan-ABŞ münasibətlərində yeni etimad mərhələsi, birinci şəxslərin dostluq münasibətləri bu əlaqələri möhkəmləndirir".

Deputat diqqətə çatdırıb ki, Azərbaycan öz ərazisində münaqişəni bitirib, indi regional və beynəlxalq arenada sülh dialoqunun təbliğatçısı qismində çıxış edir. Azərbaycan islam dünyasını narahat edən hər bir məsələyə həssas yanaşır. Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmiz Suriya və Fələstin xalqına dəfələrlə humanitar dəstək göstərib. Azərbaycan və Suriya enerji təchizatı, infrastrukturun inkişafı və münaqişədən sonra yenidənqurma işlərinə diqqət yetirərək ikitərəfli tərəfdaşlığı gücləndirib. Gələcəkdə Qəzzanın bərpası yönündə də layihələrin icrasında iştirak istisna edilmir.

"Vaşinqton Sülh Sammiti ilə Cənubi Qafqaz regionuna sülh gətirilməsi, Azərbaycanın nüfuzunu qaldırmaqla yanaşı, onunla əməkdaşlıq etmək istəyən ölkələrin sayını da artırıb. İndi dünyada tərəfdaşlıqlar, güclü müttəfiqliklər, qarşılıqlı inam və iqtisadi fayda dövlətlərarası münasibətlərdə mühüm rol oynayır. Azərbaycan isə dəyişən dünya düzənində yürütdüyü unikal, balanslı, müstəqil xarici siyasət sayəsində öz maraqlarını qorumağı, mürəkkəb geosiyasi proseslərdən qalib çıxmağı bacarıb", - deyə deputat qeyd edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycanın sülh təşəbbüsü və Qafqazda yeni geosiyasi tarazlıq axtarışı



**"Tarixən mürəkkəb geosiyasi proseslərin mərkəzində yerləşən Cənubi Qafqaz regionu bu gün yeni siyasi mərhələyə qədəm qoyur. Qlobal güclərin maraqlarının kəsişdiyi, nəqliyyat və enerji marşrutlarının strateji əhəmiyyət daşıdığı bu coğrafiyada Azərbaycanın rolu getdikcə daha da artır. Rəsmi Bakının beynəlxalq Sülh Şurasına qoşulması ilə bağlı müzakirələr isə regionda formalaşan yeni reallıqlar fonunda xüsusi aktuallıq kəsb edir".**

Bunu AZƏRTAC-a açıqlaması zamanı türkiyəli politoloq Kadir Uğur Yılmaz bildirib.

Onun sözlərinə görə, 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə olunan Qələbə nəticəsində Azərbaycan ərazi bütövlüyünü təmin etdi və bölgədə uzun illər davam etmiş status-kvo aradan qaldırıldı. Bununla da Cənubi Qafqazda yeni siyasi və təhlükəsizlik arxitekturasının formalaşdırılması üçün zəmin yarandı.

"Postmünaqişə mərhələsində Azərbaycanın əsas prioriteti davamlı sülhün və regional əməkdaşlığın təmin olunmasıdır. Bu kontekstdə regional sülh platformalarının yaradılması təşəbbüsü ölkənin xarici siyasət kursunun məntiqi davamı kimi qiymətləndirilir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məmməd Əmin Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməz" fikri milli dövlətçilik iradəsinin rəmzi idi. Müasir mərhələdə isə həmin iradə suveren qərarların qəbulu və müstəqil xarici siyasət xəttinin davam etdirilməsi ilə ifadə olunur. Azərbaycanın sülhyönümlü regional təşəbbüslərdə iştirakı Cənubi Qafqazda inklüziv və balanslı təhlükəsizlik modelinin formalaşmasına töhfə verə bilər. Bu modelin əsasını dövlətlərin suverenliyinə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaq prinsipi təşkil etməlidir. Regionda maraqları olan iri güclər - Rusiya, Türkiyə, İran və Qərb institutları - Cənubi Qafqazı strateji məkan kimi qiymətləndirirlər. Belə şəraitdə Azərbaycanın balanslaşdırılmış və praqmatik siyasəti rəqabət mühitinin sabit əməkdaşlıq platformasına çevrilməsinə şərait yarada bilər", - deyə o vurğulayıb.

Poltoloq qeyd edib ki, Azərbaycanın sülh gündəliyinə sadiqliyi Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlarda da özünü göstərir. Kadir Uğur Yılmaz əlavə edib ki, Sülh sazişinin imzalanması, kommunikasiyaların açılması və sərhədlərin delimitasiya və demarkasiyası regionun uzunmüddətli sabitliyinə xidmət edən əsas amillər kimi qiymətləndirilir: "Eyni zamanda regional əməkdaşlıq formatlarının yaradılması iqtisadi inteqrasiyanın genişlənməsinə imkan verə bilər. Xüsusilə nəqliyyat dəhlizlərinin bərpası və yeni logistika marşrutlarının açılması Cənubi Qafqazı Avrasiya məkanında mühüm tranzit qovşağına çevirə bilər. Azərbaycan-Türkiyə münasibətləri regionda sabitliyin mühüm dayaqlarından biri hesab olunur. Enerji, müdafiə və nəqliyyat sahələrində reallaşdırılan birgə layihələr iki ölkənin strateji müttəfiqliyini daha da möhkəmləndirib.

Zəngəzur dəhlizinin açılması perspektivi isə yalnız regional deyil, qlobal miqyasda da əhəmiyyətli hesab olunur. Bu marşrut Orta dəhlizin effektivliyini artırmaqla Şərqlə Qərb arasında yükdaşımaların həcminin artmasına töhfə verə bilər. Beləliklə, Azərbaycanın mümkün beynəlxalq Sülh Şurasına qoşulması Cənubi Qafqazda yeni əməkdaşlıq mərhələsinin əsasını qoya bilər. Bu addım siyasi dialoqun genişlənməsi, iqtisadi inteqrasiyanın dərinləşməsi və təhlükəsizlik mühitinin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Mövcud geosiyasi şəraitdə Azərbaycan milli maraqlara söykənən, beynəlxalq hüquq normalarına əsaslanan və qarşılıqlı faydalı tərəfdaşlığa açıq siyasət kursunu davam etdirir. Bu yanaşma Cənubi Qafqazın sabit və dayanıqlı inkişafı üçün etibarlı zəmin yaradır".

## "Azərbaycanda həyata keçirdiyimiz layihələr üçün yükləri Zəngəzur dəhlizi ilə göndərəcəyik"



**"Rəhbərlik etdiyim şirkət Azərbaycanda bir çox işlər həyata keçirib. Bakıda və Şuşadakı hotellərin, ticarət mərkəzlərinin xəstəxana və ofislərin daxilini dizayn edir və mebel təminatını həyata keçiririk. Hazırda işğaldan azad edilən Qarabağda geniş quruculuq və bərpa işləri aparılır və biz də sifarişlər alırıq".**

Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı Türkiyənin "ROGİ-Ahsap" şirkətinin rəhbəri Aziz Özdəmir deyib.

Onun sözlərinə görə, Azərbaycan ilə Türkiyənin dost və qardaş ölkə olmaları, həmçinin hər iki dövlətin başçısının dostluq münasibətləri iş adamları və biznes strukturlarına daha sıx əməkdaşlıq əlaqələri qurmaq üçün böyük imkanlar yaradır.

"Azərbaycanın iqtisadi potensialı təkcə Türkiyə ilə deyil, dünyanın müxtəlif ölkələri ilə faydalı əməkdaşlıq əlaqələri qurmağa imkanı verir. Hazırda Azərbaycan qlobal xarakterli iqtisadi layihələrin həyata keçirilməsinə çalışır və bu işdə Türkiyə ilə birlikdə addımlayır. Orta dəhliz və onun davamı olam Zəngəzur dəhlizi iki dost və qardaş ölkə arasındakı nəqliyyat, tranzit və logistika əlaqələrini artıracaq. Orta dəhliz Mərkəzi Asiya ilə Türkiyəni Azərbaycan vasitəsilə birləşdirən layihədir ki, bu da türk dünyasının birliyinə nail olmaq deməkdir. Digər tərəfdən, bu gün dünya biznesi üçün zaman çox əhəmiyyətlidir. Orta dəhliz Asiya ölkələrindən Avropaya daşınan yükləri 20 günə deyil, 10 günə çatdıracaq ki, bu da nəqliyyat xərclərinin azalması ilə yüklərin mənzil başına tez çatdırılmasını təmin edəcək", - deyə A.Özdəmir vurğulayıb.

Şirkət rəhbərinin sözlərinə görə, Azərbaycan ilə nəqliyyat əlaqələsini məhz Zəngəzur dəhlizi vasitəsilə qurmağı planlaşdırıb: "Dəhliz hazır olduqdan sonra Azərbaycanda həyata keçirdiyimiz layihələr üçün yükləri bu marşrut ilə göndərəcəyik".

## Sülh Şurası və Azərbaycanın xarici siyasəti

**Yaxın Şərqdə baş verən proseslər təkcə regional deyil, qlobal təhlükəsizlik arxitekturasının gələcəyini müəyyən edən əsas amillərdən biri kimi çıxış edir. Xüsusilə, Qəzza zolağı ətrafında formalaşan yeni siyasi-hərbi konfiqurasiya beynəlxalq ictimaiyyətin kollektiv qərarvermə mexanizmlərinin yenidən aktivləşdirilməsinə olan ehtiyacı kəskin şəkildə gündəmə gətirib.**



Bu ehtiyac hazırda dünyada davam edən müharibələr və silahlı qarşıdurmalar fonunda özünü daha açıq göstərir. Rusiya ilə Ukrayna arasında müharibə və Qəzzada baş verən son hadisələr bir daha sübut etdi ki, mövcud beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı beynəlxalq ictimaiyyətin üzləşdiyi təhlükəsizlik və humanitar böhranları çözmək üçün kifayət qədər səmərəli fəaliyyət göstərə bilmir. Bu isə qlobal miqyasda siyasi, humanitar, iqtisadi və ekoloji çağırışlara adekvat cavab verə bilməyən mövcud beynəlxalq nizamın dərin institusional problemlərini üzə çıxarır.

Müharibələr, silahlı münaqişələr və onların yaratdığı çoxşaxəli fəsadlar fonunda hazırda qlobal miqyasda artmaqda olan problemlər dünyanın müxtəlif ölkələrinin siyasətçiləri tərəfindən BMT-də islahatların zəruriliyinə dair bəyanatların sayını əhəmiyyətli dərəcədə artırıb. BMT-nin mövcud çağırışlara operativ və təsirli cavab verə bilməməsi, beynəlxalq təhlükəsizlik sistemində yaranmış boşluqların dərinləşməsi fonunda yeni və daha çevik həll mexanizmlərinin formalaşdırılmasına ehtiyac açıq şəkildə ortaya çıxır. Məhz bu fonda, alternativ sülh və təhlükəsizlik platformasının yaradılması məqsədilə Sülh Şurası təşəbbüsü ötən ilin sonunda - Donald Trump Administrasiyası tərəfindən irəli sürülmüşdü.

Sülh Şurası konsepsiyasının praktik reallaşdırılmasına yönəlmiş ilk mühüm addım Şarm əl-Şeyx şəhərində keçirilmiş sammit çərçivəsində atılmışdı. Həmin toplantıya Azərbaycan Prezidenti İlham Əliyev də xüsusi qaydada dəvət olunmuşdu. Bu dəvət təkcə diplomatik jest deyil, həm də ölkəmizin artan beynəlxalq nüfuzunun təsdiqi kimi qiymətləndirilməlidir. Sözügedən sammitə Prezident İlham Əliyevin şəxsən çağırılması Azərbaycan dövlətinin qlobal təhlükəsizlik və sülh gündəliyində etibarlı tərəfdaş kimi qəbul olunduğunu göstərir və bu baxımdan həm dövlətimiz, həm də xalqımız üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Sülh Şurasına yaradıcı, yəni təsisçi üzv statusu ilə qoşulması isə xüsusi vurğulanmalı bir məqamdır. Bu status ölkəmizin təşkilatın ideya əsaslarının formalaşmasında, onun missiya və məqsədlərinin müəyyənləşdirilməsində aktiv rol oynadığını nümayiş etdirir. Təsisçi üzv qismində çıxış edən Azərbaycan yalnız iştirakçı deyil, həm də qlobal sülh təşəbbüslərinin konturlarını müəyyən edən subyekt kimi çıxış edir. Nəticə etibarilə Azərbaycanın Sülh Şurası çərçivəsində fəal iştirakı ölkəmizin beynəlxalq müstəvidə sülhün, dayanıqlılığın və qlobal həmrəyliyin təşviqinə yönəlik strateji xəttinin ardıcıl davamı olmaqla yanaşı, Azərbaycanın etibarlı tərəfdaş və sülhün təşviqində aparıcı aktor kimi mövqeyini daha da möhkəmləndirir.

Fevralın 19-u Sülh Şurası sammitinin gündəliyində olan əsas məsələlərdən biri Qəzza ilə bağlı xüsusi maliyyə fondunun yaradılması, eləcə də bərpa-quruculuq işlərinin və humanitar missiyaların həyata keçirilməsi idi. Bundan başqa, müzakirə mövzularından digəri, Qəzzada Sabitləşdirmə Qüvvələrinin tərkibi ilə bağlı idi. Qəzza probleminin hərtərəfli həllinə yönəlmiş 20 maddəlik planın tərkib hissəsi kimi təqdim edilən sabitləşdirici qüvvələrlə bağlı qərar Şarm əl-Şeyx konfransı zamanı verilmişdi.

Yeni təhlükəsizlik mexanizminin mahiyyəti yalnız hərbi kontingentin yerləşdirilməsi ilə məhdudlaşmır. Bu model daha çox postmünaqişə dövründə sabitləşdirmə, humanitar təhlükəsizlik və inzibati idarəetmənin bərpasına yönəlmiş kompleks yanaşmanı ehtiva edir. Belə bir yanaşma beynəlxalq hüququn əsas prinsipləri ilə yanaşı, iştirakçı dövlətlərin milli təhlükəsizlik prioritetləri ilə də uzlaşdırılmalıdır.

Azərbaycan Respublikasının adı Qəzzaya hərbi qüvvə göndərə biləcək ölkələr sırasında mütəmadi olaraq hallansa da, Prezident İlham Əliyev tərəfindən səsləndirilən prinsipial mövqe məsələyə aydınlıq gətirmişdir. Dövlət başçısının "biz kiminsə naminə azərbaycanlıların həyatını və sağlamlığını riskə atmaq niyyətində deyilik" bəyanatı yalnız cari situasiyaya operativ reaksiya deyil, həm də Azərbaycanın təhlükəsizlik siyasətinin əsas fəlsəfəsinin ifadəsi kimi qiymətləndirilməlidir. Bu yanaşma ölkənin xarici siyasətində praqmatik realizm və milli maraqların prioritetliyi prinsipinə əsaslanır.

Azərbaycanın indiki mərhələdə Qəzzada hərbi kontingentlə iştirak etməməsi strateji baxımdan rasional qərar kimi dəyərləndirilə bilər. Birincisi, Qəzzada mürəkkəb hərbi-siyasi vəziyyət və təhlükəsizliklə bağlı ciddi çağırışlar. İkincisi, Azərbaycan postmünaqişə reallığında öz təhlükəsizlik gündəliyini, xüsusilə regional sabitlik və suverenlik məsələlərini prioritet saxlayan dövlətdir. Bu mövqe Azərbaycanın xarici siyasətində məsuliyyətli yanaşma, daxili ictimai rəyin nəzərə alınması və regional prioritetlərin qorunması prinsipinə əsaslanır

Bununla yanaşı, Azərbaycan Respublikası yeni yaradılan və artıq beynəlxalq təşkilata çevrilən Sülh Şurasının qurucularından biri kimi bu platformada aktiv şəkildə iştirak etməkdədir. Bu, Bakının ənənəvi olaraq üstünlük verdiyi "siyasi praqmatizm" yanaşmasına uyğun gəlir. Diplomatik təmsilçilik vasitəsilə sülh təşəbbüslərində iştirak etmək, humanitar və siyasi dəstək mexanizmlərini gücləndirmək Azərbaycanın məsuliyyətli aktor kimi beynəlxalq imicini möhkəmləndirir.

Sülh Şurasının qurulmasından sonra Vaşinqtonda baş tutan ilk sammitdə Prezident İlham Əliyevin iştirakı Azərbaycanın qlobal təhlükəsizlik gündəliyində artan rolunu bir daha nümayiş etdirmişdir. Sammit çərçivəsində ABŞ siyasi elitasının, o cümlədən Donald Tramp və J.D.Vens tərəfindən Azərbaycan Prezidentinə yönəlik müsbət fikirlərin səsləndirilməsi Bakının beynəlxalq nüfuzunun və etibarlı tərəfdaş imicinin göstəricisi kimi interpretasiya oluna bilər. Bu, həm də Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursunun praktiki nəticəsidir.

Nəticə etibarilə, Azərbaycanın istər Yaxın Şərq, istər Cənubi Qafqaz ətrafında baş verən proseslərdə atdığı addımlar uzunmüddətli milli təhlükəsizlik strategiyasının tərkib hissəsidir. Sülh Şurasında təmsilçilik ölkənin qlobal proseslərdəki mövqeyini gücləndirir. Mövcud reallıqlar fonunda Bakı həm regional, həm də beynəlxalq müstəvidə balanslaşdırılmış, praqmatik və milli maraqlara əsaslanan siyasət yürütməklə yeni təhlükəsizlik arxitekturasında təkcə öz yerini möhkəmləndirmir, eyni zamanda Cənubi Qafqaz - Mərkəzi Asiya regionunda geosiyasi arxitekturanı özü formalaşdırır.

Sülh Şurasının tədbirində Azərbaycan ilə bağlı verilən bəyanatlar, ölkəmizə olan xüsusi yanaşma bu dəfə də beynəlxalq aləmin diqqətindən yayınmadı. ABŞ Prezidenti D.Trampın beynəlxalq tədbirlər zamanı Prezident İlham Əliyevə olan xüsusi diqqəti və münasibəti təsadüfi deyil, məhz ölkəmizin liderinin apardığı siyasətin nəticəsidir.

Azərbaycan rəhbərliyinin ABŞ-də seçki prosesi hələ başlanmamışdan əvvəl səsləndirdiyi siyasi mesajlar, xüsusilə, Donald Trampın mümkün qələbəsi ilə bağlı ifadə olunan gözləntilər Bakının Vaşinqtonla münasibətlərdə uzunmüddətli strateji perspektivi nəzərə alan yanaşmasını ortaya qoyurdu. Bu, qlobal siyasi reallıqları düzgün qiymətləndirən uzaqgörən siyasi xəttin göstəricisi idi.

Vaşinqton sazişindən sonra ABŞ vitse-prezidenti C.D.Vensin Bakıya səfəri zamanı imzalanan sazişlər iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin yeni mərhələyə daxil olduğunu göstərdi. Bu səfər diplomatik protokol xarakteri daşımırdı, siyasi dialoqun dərinləşdirilməsi baxımından əhəmiyyətli geosiyasi hadisə kimi dəyərləndirilə bilər. Tramp administrasiyası ilə formalaşan siyasi dialoq, Sülh Şurası çərçivəsində əməkdaşlıq Azərbaycan üçün təkcə diplomatik uğur deyil, həm də milli təhlükəsizlik və suverenlik baxımından önəmlidir.

Beləliklə, son dövrlər kifayət qədər həssas olan beynəlxalq proseslər fonunda Prezident İlham Əliyevin apardığı çoxvektorlu və milli maraqlara əsaslanan siyasət qlobal güc mərkəzləri ilə münasibətlərdə qarşılıqlı etimada əsaslanan yeni mərhələnin formalaşmasına şərait yaratmış, Azərbaycanın beynəlxalq sistemdə mövqeyini daha da möhkəmləndirmişdir.

***Zaur MƏMMƏDOV,***
***Dövlət İdarəçilik Akademiyası rektorunun müşaviri, dosent***

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2026-cı ilin mart ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | Əhmədov Əli Cavad oğlu | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 30 (Bakı şəhəri) | Mais Günəşov +99451 2770025<br>25sayli_sd@meclis.gov.az |
| 2. | Əsgərov Ziyafət Abbas oğlu | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>18 (Naxçıvan MR, Sədərək rayonu)<br>28 (Naxçıvan MR, Şərur rayonu) | Günay Orucova +99451641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | Qasımlı Musa Cəfər oğlu | 02 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04 (Yardımlı rayonu) 11 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | Hüseynov Rafael Baba oğlu | 03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12 (Hacıqabul rayonu) 19 (Kürdəmir rayonu) | Ceyhun Ağayev +99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | Abbasov Aqil Məhəmməd oğlu | 04, 05 (Füzuli rayonu) 18, 19 (Ağcabədi rayonu) | Fərhad Əliyev +994512303237 85sayli_sd@meclis.gov.az |
| 6. | Ağamalı Günay Fəzail qızı | 07 (Salyan rayonu)<br>14 (Biləsuvar və Neftçala rayonları) | Emin Xudiyev +99451 451 2676<br>65sayli_sd@meclis.gov.az |
| 7. | Ağayeva Ülviyyə Cavanşir qızı | 15, 29 (Tovuz rayonu)<br>16, 30 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | Ağazadə Əminə Həmid qızı | 19, 28 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050 62sayli_sd@meclis.gov.az |
| 9. | Akimova Elnarə Seydulla qızı | 10, 19 (Sumqayıt şəhəri) | Soltanov İltifat +99470 8608644 46sayli_sd@meclis.gov.az |
| 10. | Alıyev Sahib Eyvaz oğlu | 02, 16 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99451 277 3003<br>93sayli_sd@meclis.gov.az |
| 11. | Allahverənov Azər Kərim oğlu | 19, 26 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | Aran Səyyad Adil oğlu | 14 (İmişli rayonu)<br>18 (Saatlı rayonu) | Pərvin Mahmudov +99450 255 1388<br>Ağa Abışov +99450 775 7477 82sayli_sd@meclis.gov.az |
| 13. | Arpadarai Nigar Cavid qızı | 04, 18 (Bakı şəhəri) | Bəhruz Teymurov +99450 304 2112<br>7sayli_sd@meclis.gov.az |
| 14. | Aslanov Novruzəli Davud oğlu | 05, 12, 19, 26 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 15. | Badamov Azər Camal oğlu | 04, 14 (Qusar rayonu) | General Sadulov +99450 313 2962 61sayli_sd@meclis.gov.az |
| 16. | Bayramov Kamran Fərhad oğlu | 14 (Göygöl rayonu)<br>28 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 17. | Bayramov Vüqar İbad oğlu | 04, 18 (Füzuli rayonu) | EltunAğakişiyev +99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 18. | Bədəlov Bədəl Şamil oğlu | 14 (Goranboy rayonu)<br>28 (Naftalan şəhəri) | Mahyəddin Mazanov +99470 310 2733<br>96sayli_sd@meclis.gov.az |
| 19. | Bülbüloğlu Polad | 04, 18, 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Milli Məclisin qəbul otağı +99412 510 9938<br>124sayli_sd@meclis.gov.az |
| 20. | Cəfərov Kamal Xaqani oğlu | 05, 12 (Sabirabad rayonu) | Nazim Çələbiyev +99455 2746044<br>68sayli_sd@meclis.gov.az |
| 21. | Cəfərov Müşfiq Cəfər oğlu | 14 (Samux rayonu)<br>26 (Gəncə şəhəri) | Sahib Əmiraslanov +99450 255 2039<br>41sayli_sd@meclis.gov.az |
| 22. | Cəfərova Tamam Şaməmməd qızı | 04, 18 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090<br>Nigar Aslanova +99450 5963438 88sayli_sd@meclis.gov.az |
| 23. | Əfəndiyev Məzahir Cavid oğlu | 12 (Ağdaş rayonu) 19 (Göyçay rayonu) | Murad Abdullayev +99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 24. | Əfəndiyeva Günay Elçin qızı | 10, 18 (Bakı şəhəri) | Vəfa Mürşüdlü +99455 379 0095 14sayli_sd@meclis.gov.az |
| 25. | Ələkbərov Əziz Yusif oğlu | 14, 28 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355 66sayli_sd@meclis.gov.az |
| 26. | Əliyev Bəxtiyar Həmzə oğlu | 05, 19 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292 119sayli_sd@meclis.gov.az |
| 27. | Əliyeva Jalə Fazil qızı | 07, 18 (Zərdab rayonu) | Firdovsi Eyvazov +99450 331 9434 95sayli_sd@meclis.gov.az |
| 28. | Əli-zadə Arzuxan Baxşəli oğlu | 14, 30 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555<br>Mövsüm Həsənli +99451277 0067 27sayli_sd@meclis.gov.az |
| 29. | Əmiraslanov Azər Kamal oğlu | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 06, 18 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 30. | Əmiraslanov Əhliman Tapdıq oğlu | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 28 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 31. | Əsədov Heydər Xanış oğlu | 19, 27 (Şirvan şəhəri) | Arif Qasımov +99450 3195888 51sayli_sd@meclis.gov.az |
| 32. | Əsgərov Asif Yunis oğlu | 07, 14 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262 112sayli_sd@meclis.gov.az |
| 33. | Feyziyev Cavanşir Əyyub oğlu | 14, 28 (Şəki şəhəri) | Turan Salamov +99455 280 7750 / +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 34. | Fətəliyeva Sevinc Həbib qızı | 04, 16 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956 30sayli_sd@meclis.gov.az |
| 35. | Fətiyev Xanlar Nuru oğlu | 02, 16 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030 98sayli_sd@meclis.gov.az |
| 36. | Gəncəliyev Tural Babaşah oğlu | 02, 18 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431 122sayli_sd@meclis.gov.az |
| 37. | Hacıyev Sabir Kamal oğlu | 05, 19 (Göyçay rayonu) | Orxan Rzayev +99410 1100159 91sayli_sd@meclis.gov.az |
| 38. | Həmzəyev Naqif Ələşrəf oğlu | 07, 30 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438 38sayli_sd@meclis.gov.az |
| 39. | Həmzəyeva Ülviyyə Tapdıq qızı | 18 (Naxçıvan MR, Naxçıvan şəhəri)<br>27 (Naxçıvan MR, Babək rayonu) | Araz Xudiyev +99450 658 2375 5sayli_sd@meclis.gov.az |
| 40. | Həsənquliyev Qüdrət Müzəffər oğlu | 07, 14 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764 36sayli_sd@meclis.gov.az |
| 41. | Həsənov Malik Əvəz oğlu | 14, 28 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116 71sayli_sd@meclis.gov.az |
| 42. | Həsənov Nurlan Urfan oğlu | 06, 13 (Şəmkir rayonu) | Anar Quliyev +994507534433 103sayli_sd@meclis.gov.az |
| 43. | Həsənova Afət Əbil qızı | 17, 27 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286 32sayli_sd@meclis.gov.az |
| 44. | Hüseynli Əli Məhəmməd oğlu | 02 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 28 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131 53sayli_sd@meclis.gov.az |
| 45. | Hüseynov Aydın Nəsir oğlu | 04, 11 (Bakı şəhəri) | Vüsal Yusifov +99450 255 1337 / +99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 46. | Hüseynova Hicran Kamran qızı | 06 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 16 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334 42sayli_sd@meclis.gov.az |
| 47. | Hüseynova Sevinc Əmirəhməd qızı | 07, 28 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 642 0979 104sayli_sd@meclis.gov.az |
| 48. | Xasayeva Səbinə Səməd qızı | 04, 11 (Bakı şəhəri) | Bayram Məmmədov +99455 596 2134 11sayli_sd@meclis.gov.az |
| 49. | İbrahimqızı Məlahət İbrahim qızı | 12, 19 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142 21sayli_sd@meclis.gov.az |
| 50. | İbrahimli Fəzail Feyruz oğlu | 06, 14 (Masallı rayonu) | Faiq Ağayev +99450 201 5670/ +99450 277 5549<br>73sayli_sd@meclis.gov.az |
| 51. | İbrahimov Eldar Rza oğlu | 11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 13 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306 4sayli_sd@meclis.gov.az |
| 52. | İsgəndərov Anar Camal oğlu | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 28 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232 78sayli_sd@meclis.gov.az |
| 53. | İskəndərov Vüqar Yapon oğlu | 07, 21 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115 114sayli_sd@meclis.gov.az |
| 54. | İsmayılov İmamverdi İbiş oğlu | 09, 16 (Bakı şəhəri) | Məlahət Əzizova +99450 855 2026 125sayli_sd@meclis.gov.az |
| 55. | İsmayılov Şahin Əmir oğlu | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>17, 21 (Beyləqan rayonu) | Çingiz Səfərov +99455 444 3366 83sayli_sd@meclis.gov.az |
| 56. | İsmayılzadə Fariz Akif oğlu | 14, 28 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450369 7872 77sayli_sd@meclis.gov.az |
| 57. | Kərimli Azər Şəmşid oğlu | 07, 14 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363 111sayli_sd@meclis.gov.az |
| 58. | Kərimzadə Pərvin Orxan qızı | 04, 18 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 692 8685 39sayli_sd@meclis.gov.az |
| 59. | Qafarov Kamaləddin Nəsrəddin oğlu | 04, 11 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911 9sayli_sd@meclis.gov.az |
| 60. | Qafarov Vasif Vaqif oğlu | 07, 28 (Lerik rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966 80sayli_sd@meclis.gov.az |
| 61. | Qasımlı Mircəlil Xəqani oğlu | 25 (Bakı şəhəri) 26 (Şəki şəhəri) 30 (Oğuz rayonu) | Anar Əliyev +99450 3559484 123sayli_sd@meclis.gov.az |
| 62. | Qədirli Erkin Toğrul oğlu | 02, 19 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110 16sayli_sd@meclis.gov.az |
| 63. | Qəhrəmanov Göydəniz İbrahim oğlu | 04, 16 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845 17sayli_sd@meclis.gov.az |
| 64. | Quliyev Azay Əjdər oğlu | 04, 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Asəf Vəliyev +99450 578 5187 8sayli_sd@meclis.gov.az |
| 65. | Quliyev Eldar Allahyar oğlu | 15, 22 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899 28sayli_sd@meclis.gov.az |
| 66. | Quliyev Musa İsa oğlu | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 28 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 67. | Quliyev Ülvi Zahid oğlu | 04, 18 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156 15sayli_sd@meclis.gov.az |
| 68. | Qurbanlı Mübariz Qəhrəman oğlu | 06 (Bakı şəhəri) 13 (Samux rayonu) | Elnur Tağıyev +99455 212 8191 101sayli_sd@meclis.gov.az |
| 69. | Qurbanov Eyvaz Daşdəmir oğlu | 04, 18 (Oğuz rayonu) | Səxavət Kərəmov +99470 510 6968 / +99451 774 3782<br>117sayli_sd@meclis.gov.az |
| 70. | Qurbanov Sadiq Haqverdi oğlu | 06 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 28 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 71. | Mahmudov Rəşad Məmmədqulu oğlu | 07, 19 (Astara rayonu) | Həsənağa Əskərli +994775420770 79sayli_sd@meclis.gov.az |
| 72. | Məhəməliyev Nəsib Məhəmməd oğlu | 07, 21 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259 110sayli_sd@meclis.gov.az |
| 73. | Məhərrəmov Bəhruz Abdurrəhman oğlu | 07, 15 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99455 2831705 / +99470 300 1461<br>69sayli_sd@meclis.gov.az |
| 74. | Məhərrəmzadə Əlibala Səttar oğlu | 07, 14 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950 59sayli_sd@meclis.gov.az |
| 75. | Məmmədli Müşfiq Fazil oğlu | 04 (Quba rayonu) 11 (Siyəzən rayonu) | Nəsimi Əliyev +99455 887 1314 55sayli_sd@meclis.gov.az |
| 76. | Məmmədov Anar İlyaz oğlu | 06, 07 (Tərtər rayonu) 18 (Goranboy rayonu)<br>19 (Samux rayonu) | Elçin Cahangirov +99450 324 2791<br>97sayli_sd@meclis.gov.az anarmammadov@meclis.gov.az |
| 77. | Məmmədov Ceyhun Valeh oğlu | 07 (Bakı şəhəri) 14 (Biləsuvar rayonu) | Rəşad Quliyev +99455 847 5621 120sayli_sd@meclis.gov.az |
| 78. | Məmmədov Elman Camal oğlu | 04, 11 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 79. | Məmmədov Hikmət Baba oğlu | 04, 18 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219 19sayli_sd@meclis.gov.az |
| 80. | Məmmədov İlham Kazım oğlu | 14, 28 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417 52sayli_sd@meclis.gov.az |
| 81. | Məmmədov Qaya Məmməd oğlu | 04, 11 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102 31sayli_sd@meclis.gov.az |
| 82. | Məmmədov Məşhur Şahbaz oğlu | 07, 14 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641 74sayli_sd@meclis.gov.az |
| 83. | Məmmədov Soltan Teymur oğlu | 07, 14 (Bakı şəhəri) | Xətai Salmanov +99450 2551446 12sayli_sd@meclis.gov.az |
| 84. | Məmmədova Nigar Fikrət qızı | 02, 11 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99450 710 0838<br>48sayli_sd@meclis.gov.az |
| 85. | Məsimli Əli Əhməd oğlu | 14 (Qax rayonu) 15 (Şəki rayonu) | Vüsal Baxışov +99455 511 2287 113sayli_sd@meclis.gov.az |
| 86. | Mikayılova Sevil Əlirazı qızı | 09, 16 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606 58sayli_sd@meclis.gov.az |
| 87. | Mirkişili Tahir Famil oğlu | 11, 30 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211 43sayli_sd@meclis.gov.az |
| 88. | Mirzəbəyli Elçin Əbdülrəhim oğlu | 07, 14 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484 90sayli_sd@meclis.gov.az |
| 89. | Mirzəzadə Aydın Böyükkişi oğlu | 06, 27 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443 54sayli_sd@meclis.gov.az |
| 90. | Mollazadə Asim Nazim oğlu | 04, 18 (Bakı şəhəri) | Samir Quliyev +99455 2237272 22sayli_sd@meclis.gov.az |
| 91. | Möhbalıyev Səttar Suliddin oğlu | 05, 18 (Naxçıvan MR, Babək rayonu) | Rizvan Hüseynquliyev +99455 744 2537 / +99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 92. | Muradov Rövşən Şahbaz oğlu | 18, 25 (Bakı şəhəri) | Murad Həsənli +99450 319 9365 124sayli_sd@meclis.gov.az |
| 93. | Musabəyov Rasim Nəsrəddin oğlu | 03, 17 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725 18sayli_sd@meclis.gov.az |
| 94. | Musayev Elşad Nəbi oğlu | 14, 28 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 744 9919 / +99450 669 5919<br>10sayli_sd@meclis.gov.az |
| 95. | Musayev Elşən Məmmədhənifə oğlu | 07, 20 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089 116sayli_sd@meclis.gov.az |
| 96. | Mustafa Fazil Qəzənfər oğlu | 13 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>02, 10, 16 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 97. | Nağıyev Arzu Nəsib oğlu | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14 (Tovuz rayonu) 28 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 98. | Namazov Ramid Zakir oğlu | 02, 16 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +994554121986 50sayli_sd@meclis.gov.az |
| 99. | Nəbiyev Rizvan Novruz oğlu | 13, 30 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868 49sayli_sd@meclis.gov.az |
| 100. | Nəsirov Elman Xudam oğlu | 09, 16 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425 72sayli_sd@meclis.gov.az |
| 101. | Novruzov Siyavuş Dünyamalı oğlu | 11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 17 (Naxçıvan MR, Şərur rayonu) | İbrahim Orucov +99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |
| 102. | Nurullayev Razi Qulaməli oğlu | 04, 19 (İmişli rayonu) | Vüqar Süleymanov +99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 103. | Nurullayeva Könül Oruc qızı | 05, 16 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 / +99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 104. | Oruc Zahid Məhərrəm oğlu | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>06, 27 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093 33sayli_sd@meclis.gov.az |
| 105. | Paşayeva Gülşən Məmmədəli qızı | 07, 16 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607 13sayli_sd@meclis.gov.az |
| 106. | Paşazadə Cavanşir Hümmət oğlu | 05, 18 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123 76sayli_sd@meclis.gov.az |
| 107. | Rafailov Anatoliy Xaimoviç | 14, 28 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 / +99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | Rəhimzadə Vüqar Gəncəli oğlu | 04 (Naxçıvan MR, Ordubad rayonu)<br>11 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | Rüstəmxanlı Tənzilə Yolçu qızı | 05, 19 (Neftçala rayonu) | Fərman Hüseynov +99477 550 5131<br>70sayli_sd@meclis.gov.az |
| 110. | Rzayev Tahir Musa oğlu | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11, 12, 25, 26 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | Salmanova Səbinə Qədir qızı | 12, 30 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 112. | Seyidov Səməd İsmayıl oğlu | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 16 (Qazax rayonu) | Milli Məclisin qəbul otağı +99412 510 9938<br>109sayli_sd@meclis.gov.az |
| 113. | Seyidzadə Şahin Kamil oğlu | 03 (Qobustan rayonu) 12 (Şamaxı və İsmayıllı rayonları) | Elman Mikayılov +99450 288 9938<br>87sayli_sd@meclis.gov.az |
| 114. | Səfərov Nizami Abdulla oğlu | 06, 19 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767 106sayli_sd@meclis.gov.az |
| 115. | Səmədzadə Ziyad Əliabbas oğlu | 12, 26 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311 23sayli_sd@meclis.gov.az |
| 116. | Süleymanlı Mahir Tahir oğlu | 11, 25 (Şabran rayonu) | Orxan Süleymanov +994553191717<br>56sayli_sd@meclis.gov.az |
| 117. | Şükürov Zaur Ramiz oğlu | 02 (Abşeron rayonu) 16 (Sumqayıt şəhəri) | Aslan Talıbov +99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 118. | Vəliyev Ağalar İsrəfil oğlu | 02, 11 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111 57sayli_sd@meclis.gov.az |
| 119. | Vəliyev Samir Əhməd oğlu | 06, 17 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842 20sayli_sd@meclis.gov.az |
| 120. | Vəliyeva Mehriban Hidayət qızı | 05, 16 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434 44sayli_sd@meclis.gov.az |
| 121. | Vəliyeva Pərvanə Bulut qızı | 12, 30 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330 35sayli_sd@meclis.gov.az |
| 122. | Yıldırım Fatma Vidadi qızı | 04, 12 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040 99sayli_sd@meclis.gov.az |
| 123. | Zabelin Mixail Yuryeviç | 07, 14 (Bakı şəhəri) | Firdovsi Cahangirov +99450 225 2722<br>34sayli_sd@meclis.gov.az |

**Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.**

# Azərbaycan iqtisadiyyatının "yaşıl" gələcəyi

**Azərbaycan bərpaolunan enerji mənbələrinə xüsusi önəm verir və bu istiqamətdə genişmiqyaslı işlər aparır. Bu isə deməyə əsas verir ki, ölkəmizin gələcək inkişaf modelində bərpaolunan enerji mənbələrinin rolu böyük olacaq. Ona görə də indi əsas məqsəd həmin təbii imkanlarımızdan maksimum istifadə etməkdir.**

Təbiət günəş işığından yurdumuza bolluca pay verib və insan zəkası indi bunu elektrik enerjisinə çevirir. Xəzər dənizinin külək enerjisi potensialı kifayət qədər böyükdür. Dağlıq bölgələrimizin küləyi də elektrik enerjisi mənbəyidir. Artıq beynəlxalq təşkilatlar bu potensialı dərindən təhlil edib və təsdiqləyib. Ölkəmiz həmin imkanları dünya energetika aləminə təqdim edəndə qarşı tərəfin böyük marağını gördü. Beləliklə, geniş əməkdaşlığa doğru ilk addımlar atıldı və indi artıq həmin əməkdaşlığın bəhrələri göz qabağındadır.

Azərbaycanda "yaşıl enerji" mənbələrinin texniki potensialı quruda 135, dənizdə isə 157 qiqavat təşkil edir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan olunub. Bunun da əsası var. Çünki bərpaolunan enerji resurslarının texniki potensialı Qarabağ və Şərqi Zəngəzurda 10 qiqavat, Naxçıvanda isə 5 qiqavat həcmində qiymətləndirilir.

İşğaldan azad edilmiş ərazilərdən söz düşmüşkən qeyd edək ki, Prezident İlham Əliyev cari il yanvarın 13-də Ağdərə rayonunun Qozlukörpü kəndində "Qozlukörpü" Su-Elektrik Stansiyasının açılışını etdi və beləliklə, Qarabağ və Şərqi Zəngəzurda bu cür enerji obyektlərinin sayı ümumilikdə 40-a çatdı.

Bərpaolunan enerji sahəsində əsas investorumuz Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətidir. Ölkələrimizin birgə reallaşdırdığı "yaşıl enerji" layihələri xüsusi əhəmiyyət kəsb edir. Təkcə o faktı qeyd etmək kifayətdir ki, "Masdar" Bakıda Xəzər regionunun və MDB məkanının ən böyük günəş-elektrik stansiyasını tikib.



230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası 2023-cü il oktyabrın 26-da işə salınıb. Bu, ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal olunmaqla 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Stansiya 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək.

"Masdar"la sıx əməkdaşlıq əlaqələri yaranıb və bir sıra yeni layihələr də gerçəkləşməkdədir. Məsələn, 2024-cü il iyunun 4-də "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" sərgilərinin açılışı zamanı Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiyalar naziri Sultan Əhməd əl-Cabir Neftçala, Biləsuvar günəş-elektrik stansiyalarının və "Abşeron-Qaradağ" Külək-Elektrik Stansiyasının təməlini qoymuşlar. İndi bu layihələr öz icrasının müxtəlif mərhələlərindədir.

Bu il yanvarın 8-də isə Prezident İlham Əliyevin iştirakı ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılış mərasimi keçirildi.

Bu stansiyanın tikintisi üçün Abşeron rayonunda 14,2, Xızı rayonunda isə 22,6 hektar olmaqla ümumilikdə 37 hektara yaxın torpaq sahəsi bərpaolunan enerji mənbələrinin ərazisi müəyyən edilib. Layihə üzrə burada hər biri 6,5 MVt olan ümumilikdə 37, o cümlədən Abşeronda 12, Xızıda 25 turbin, həmçinin ölçü-müşahidə stansiyaları, quşların mühafizəsi sistemləri quraşdırılıb. Layihənin icrasına təxminən 340 milyon dollar xarici investisiya yönəldilib. Stansiyanın illik enerji istehsalı həcmi təqribən 1 milyard kilovat-saat nəzərdə tutulur ki, bunun da nəticəsində 220 milyon kubmetr təbii qaza qənaət olunacaq və 400 min tondan çox karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Layihənin baş podratçısı Çinin "Power China Group"un törəmə şirkəti olan "Power China Huadong Engineering Co., Ltd."dir.

Artıq Çin şirkətləri də Azərbaycanın bərpaolunan enerji layihələrinə qoşulublar. Prezident İlham Əliyevin keçən ilin aprel ayında Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığı əhatə edən çoxsaylı sənədlər imzalanıb. Təkcə "yaşıl enerji"yə aid imzalanan sənədlərin sayı 6 idi. O cümlədən Energetika Nazirliyi, "Power China Resources Limited" və "SOCAR Green" arasında 160 MVt gücündə günəş-elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsinə dair imzalanmış İcra müqaviləsi mübadilə edilib. Stansiyanın 2028-ci ildə istismara verilməsi planlaşdırılır və obyektdə illik təxminən 332 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 73 milyon kubmetr həcmində təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon emissiyalarının 160 min ton azaldılması deməkdir.

Ölkəmizdə ən böyük günəş-elektrik stansiyasını isə 30 idən çoxdur qlobal neft, qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkəti tikir. Bu, 240 meqavat gücündə olan "Şəfəq" Günəş-Elektrik Stansiyasıdır. Şəfəq" layihəsi Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsi ilə "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, Səngəçal terminalı "Azərenerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulacaq. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kV-luq elektrik yarımstansiyası inşa ediləcək. "Şəfəq"in bir özəlliyi də ondadır ki, o, işğaldan azad edilmiş Cəbrayıl rayonunda tikilir.

Bu il yanvarın 5-də yerli televiziyalara müsahibəsində Prezident İlham Əliyev bütün bunların, sadəcə, başlanğıc olduğunu demişdir. Çin və Türkiyə şirkətlərinin də bu sahəyə maraq göstərdiyini, həmçinin yerli şirkətlərin qoşulduğunu bildirmişdir: "Günəş və külək-elektrik stansiyalarının xəritəsi təsdiqlənib, həm quruda, həm də dənizdə, o cümlədən azad edilmiş torpaqlarda. Hazırda bizim əsas vəzifəmiz enerji mənbələrini qəbuletmə imkanlarını genişləndirməkdir. Çünki mövcud olan planlara görə, 2030-cu ilə qədər 6000 meqavat, 2032-ci ilə qədər isə 8000 meqavat günəş, külək və su enerjisi bizim sistemimizə daxil ediləcək. Yəni bunu qəbul etmək, həzm etmək üçün biz enerji sistemimizi gücləndirməliyik. Buna "Energy Grid" deyirlər. Bununla paralel olaraq batareya saxlanc sistemləri də qurulmalıdır".

***Flora SADIQLI,***
***"Azərbaycan"***




# Bakının "ana"sı - qapalı şəhər nümunəsi

**Bakının səs-küylü küçələrindən bir addım aralıda bir məkan var: İçərişəhər. Qala divarları arasında gizlənən dar küçələr, daş evlər və qədim məhəllələr əsrlər boyu formalaşmış şəhərsalma düşüncəsinin bu günə çatan canlı nümunəsidir. Bura təkcə tarixi abidələr toplusu deyil, həm də Azərbaycanın ən qədim və ən mükəmməl şəhərsalma modelidir. İçərişəhər Azərbaycanın şəhərsalma tarixinin başlanğıc nöqtəsi də hesab olunur.**

Orta əsrlərdə formalaşmış bu qapalı şəhər modeli müdafiə, iqlimə uyğunlaşma və ictimai həyatın təşkili baxımından mühüm xüsusiyyətlərə malikdir. Bu gün də qorunub saxlanılan dar küçələr və məhəllə sistemi İçərişəhərin tarixi əhəmiyyətini aydın şəkildə göstərir. Bakının mərkəzində yerləşən bu ərazi əsrlər boyu siyasi, iqtisadi və mədəni həyatın əsas ocağı olmuş, özünəməxsus planlaşdırma prinsipləri ilə seçilmişdir. İçərişəhərin şəhərsalma strukturu Orta əsr Şərq şəhərlərinə xas xüsusiyyətləri əks etdirməklə yanaşı, yerli coğrafiya nəzərə alınıb və sosial şəraitə uyğun şəkildə formalaşıb.

Tarixin sükuta bürünmüş səhifələrini vərəqlədikcə İçərişəhər öz möhtəşəm keçmişi ilə qarşımızda canlanır. Xəzər dənizinin sahilində yerləşən bu qədim məkan hələ Tunc dövründən insanların məskəni olub, bütün dövrlərdə həyatın, ticarətin və mədəniyyətin qaynar nöqtəsinə çevrilib. Bura XIX əsrdə neft sənayesinin inkişafı ilə əlaqədar İçərişəhər adlanmağa başlayıb. Şəhərin gözəlliyi ondan ibarətdir ki, ərazi müasir şəhərin yaşayış məhəlləsidir və buradakı qədim evlərdə insanlar indi də yaşayırlar. Bu gün 22 hektar sahəyə malik olan İşərişəhərdə 1300-dən çox ailə yaşayır. İçərişəhərin daxili quruluşu da maraqlı və diqqətçəkəndir. Küçələri, məhəllələri burada yaşayan insanların peşələrindən ad alıb, peşələrə görə bölünüb. Gəmiçilər, arabaçılar, hamamçılar və digər sənət sahibləri burada yaşayır, istehsal edir, ticarət aparırdılar. Bu bölgü şəhərin iqtisadi sisteminin nə qədər nizamlı və inkişaf etmiş olduğunu göstərirdi. Qədim şəhərin ən möhtəşəm memarlıq inciləri isə əzəmətli Şirvanşahlar sarayı və Qız qalasıdır. Şirvanşahlar sarayı dövlətçilik ənənələrinin, saray mədəniyyətinin və memarlıq zövqünün təcəssümüdürsə, Qız qalası əsrlərin sirrini öz daş yaddaşında qoruyan əbədi bir abidədir.

Bu baxımdan İçərişəhər, sadəcə, tarixi abidələr toplusu deyil, o, xalqımızın yaddaşı, milli kimliyimizin canlı şahididir. Keçmişin izlərini qoruyaraq müasir dövrə addımlayan qədim şəhər, tarixlə bu gün arasında körpü salan nadir məkanlardan biridir. Arxeoloji qazıntılar hələ VII əsrdən İçərişəhərdə yaşayış binalarının tikildiyini göstərir. Yerli şəraitə uyğunlaşdırılmış küçə şəbəkəsi, əsas binaların yerləşdirilməsində dəniz amilinin nəzərə alınması İçərişəhəri şəhərsalmada sənət nümunəsi kimi səciyyələndirir.



İçərişəhərin əsas şəhərsalma xüsusiyyətlərindən biri qapalı şəhər modeli əsasında qurulmasıdır. Şəhər ətrafdan hündürlüyü 10 metr olan qalın qala divarları ilə əhatə olunub, giriş-çıxışlar isə məhdud sayda darvazalar vasitəsilə təmin edilib. Bu model ilk növbədə təhlükəsizlik məqsədi daşıyırdı. Orta əsrlərdə tez-tez baş verən hücumlar, siyasi qeyri-sabitlik və xarici təhdidlər şəhərin müdafiəsini əsas prioritetə çevirmişdi. Qapalı şəhər strukturu həm də şəhər daxilində sosial həyatın daha sıx və nizamlı şəkildə təşkil olunmasına imkan verirdi.

İçərişəhərdə küçə şəbəkəsi müasir şəhərlərdən fərqli olaraq əvvəlcədən dəqiq plan üzrə deyil, zamanla formalaşıb. Dar, dolanbac küçələr həm iqlimə uyğunlaşma, həm də müdafiə məqsədi daşıyırdı. Bu cür küçələr yay aylarında kölgəlik yaradır, güclü küləklərin və tozun qarşısını alırdı. Üstəlik, düşmən hücumları zamanı şəhər daxilində hərəkəti çətinləşdirirdi. Şəhər məhəllə sistemi əsasında təşkil olunub. Hər məhəllə, demək olar ki, kiçik bir icma funksiyası daşıyır, burada yaşayış evləri, kiçik ibadət məkanları, su mənbələri və sosial əlaqələr formalaşırdı. Bu struktur şəhər əhalisi arasında sosial bağlılığı gücləndirirdi.

İçərişəhərin planlaşdırılmasında müdafiə amili həlledici rol oynayıb. Qala divarları, bürclər, dar keçidlər və yüksək mövqedə yerləşən tikililər şəhərin təhlükəsizliyini təmin edirdi. Şirvanşahlar Saray Kompleksinin strateji yüksəklikdə yerləşməsi də bu baxımdan təsadüfi deyil. Şəhərin planı elə qurulmuşdu ki, həm dənizdən, həm də qurudan gələn təhlükələrə qarşı nəzarət mümkün olsun.

İçərişəhərdə mühüm ictimai funksiyaları yerinə yetirən obyektlərin şəhər daxilində mərkəzləşdirilmiş şəkildə yerləşdirilməsi əvvəlcədən düşünülmüş və planlı şəhərsalma yanaşmasının nəticəsi idi. Bu, düşünülmüş və məqsədyönlü şəhərsalma siyasətindən xəbər verir. Su quyuları və kəhrizlər əhalinin gündəlik tələbatını ödəməklə yanaşı, yaşayış məkanlarının formalaşmasında əsas meyarlardan birinə çevrilmişdi. Suya yaxınlıq həm rahatlıq, həm də təhlükəsizlik demək idi. Hamamlar isə təkcə təmizlik məkanı deyildi. Onlar ictimai həyatın ayrılmaz hissəsi, insanların bir araya gəldiyi, fikir mübadiləsi apardığı, münasibətlərin möhkəmləndiyi mədəni ocaqlar idi. Burada gündəlik həyatın ritmi duyulur, şəhərin sosial nəfəsi hiss olunurdu.

Bütün bu xüsusiyyətlər Azərbaycan xalqının zəngin mədəniyyətinə, yüksək təşkilatlanma bacarığına və şəhərsalma ənənələrinin dərin köklərə malik olmasına işarə edir. İçərişəhərin planlaşdırılması, sadəcə, tikililərin düzülüşü deyil, bütöv bir dünyagörüşünün, ictimai harmoniyanın və mədəni düşüncənin ifadəsidir. Bu cür şəhərsalma modeli göstərir ki, xalqımız tarix boyu maddi və mənəvi dəyərləri vəhdətdə görmüş, yaşayış mühitini həm funksional, həm də mədəni baxımdan mükəmməl şəkildə qurmağa çalışmışdır. Məscidlər isə həm dini, həm də ictimai mərkəz rolunu oynayaraq şəhərsalma strukturunda mühüm yer tuturdu. Onların məhəllələr daxilində yerləşməsi dini həyatın gündəlik məişətlə sıx bağlı olduğunu göstərir.

İçərişəhər öz planlaşdırma quruluşu ilə Azərbaycanın tarixi şəhərsalma ənənələrinin parlaq nümunəsidir. Qapalı şəhər modeli, dar küçələr, məhəllə sistemi və müdafiəyönümlü planlaşdırma Orta əsr urbanizasiyasının əsas xüsusiyyətlərini əks etdirir. Bu gün İçərişəhərin qorunması və öyrənilməsi təkcə memarlıq irsinin deyil, həm də milli şəhərsalma düşüncəsinin gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət daşıyır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Küveyt-Azərbaycan tərəfdaşlığı möhkəm təməllər üzərində qurulub

**Dərin tarixi, mədəni, mənəvi köklərə malik olan ərəb şərqində XX əsrin 60-cı illərində parlayan Küveyt Dövləti qısa zaman kəsiyində dünyanın iqtisadi həyatında özünəməxsus yer tutdu.**



Küveyt Dövləti bu ay özünün 65-ci Milli Gününü və 35-ci Qurtuluş Gününü təntənə ilə bayram edir. Müstəqillik qazanandan bəri Küveyt hakimiyyəti dövlətyönümlü kapitalist iqtisadiyyatı xəttini davamlı surətdə həyata keçirir. Küveytin fauna və florası zəif olsa da, təbiət ona yeraltı təbii ehtiyatları, xüsusilə zəngin neft və qazı əsirgəməyib. Hazırda Küveyt dinarı dünyanın ən dəyərli valyutası sayılır. Eyni zamanda qeyri-neft sektorlarına maliyyə xidmətləri daxildir. Taleyin üzünə güldüyü bu ölkə adambaşına düşən gəlirin miqdarına görə dünyada dördüncü yeri tutur. İllik neft hasilatı təxminən 100 milyon ton, təbii qaz hasilatı isə 4,5 milyard kubmetrdən çoxdur.

Küveyt xalqı ötən əsrin 90-cı illərinin əvvəllərində hərbi təcavüzə məruz qalaraq işğalla üzləşmişdi. Dünya birliyi, o cümlədən Azərbaycan dövləti və xalqı tərəfindən qətiyyətlə pislənilən bu işğalın 1991-ci ildə aradan qaldırılmasından sonra Küveyt Dövləti olduqca az müddət ərzində dağıdılmış iqtisadi infrastrukturları bərpa etdi və yeni istehsal sahələri yaratdı. Buna görə də hər il fevral ayında Küveyt Dövlətinin yaranmasının və işğaldan azad edilməsinin ildönümləri təntənəli surətdə qeyd olunur. Hər bir ildönümü isə yeni-yeni nailiyyətlərlə yadda qalır.

Bu ölkə hər gün təxminən 2,5 milyon barel neft istehsal edir və bu da hökumət gəlirlərinə və milli ümumi daxili məhsulun miqdarına əhəmiyyətli töhfə verir. Xammalın əsas ixrac istiqamətləri Cənubi Koreya, Hindistan, Yaponiya və Çindir. Ölkənin idxal etdiyi zəruri məhsullar əsasən Çin, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri və Almaniyadan gəlir.

Küveyt dünyada səkkizinci ən böyük neft ixracatçısı və onuncu ən böyük neft istehsalçısıdır. Xam və emal olunmuş neft ölkənin ümumi ixracatının 95 faizini təşkil edir. İqtisadiyyatın onurğa sütunu ən böyük neft yatağı olan Böyük Burgan hesab olunur. Ölkədə hər il təxminən 100 milyon ton neft hasil olunur. Küveytin qızıl ehtiyatları 2025-ci ilin üçüncü rübündə 78,98 tona yüksəlmişdir. 2025-ci ildə nominal (cari) ümumi daxili məhsul 157,47 milyard dollar olmuşdur. Kommunal xidmətlər dövlət tərəfindən ödənilir. Hətta peyk televiziyası belə pulsuzdur. Küveytdə benzin içməli sudan daha ucuzdur.

Küveytin humanitar missiyaları, xüsusilə Yaxın Şərq və Şimali Afrikada (Yəmən, Suriya, Qəzza bölməsi və Sudan) münaqişə və fəlakət zonalarında təcili yardım, ərzaq dəstəyi və infrastrukturun inkişafına yönəlmiş genişmiqyaslı beynəlxalq səylərdən ibarətdir. Küveyt BMT tərəfindən "Beynəlxalq Humanitar Mərkəz", onun Əmiri isə "Humanitar Lider" kimi tanınır. Küveyt böhran bölgələrində humanitar ehtiyaclar üçün vəsait toplamaq məqsədilə mütəmadi olaraq beynəlxalq donor konfranslarına ev-sahibliyi edir.

Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra onun xarici siyasətinin prioritet istiqamətlərindən birini ərəb dünyası ilə münasibətlərin qurulması oldu. İşğaldan yenicə azad edilmiş və bərpa, quruculuq işlərilə məşğul olan Küveyt Dövləti də bənzər iqtisadiyyata malik olan Azərbaycana xoş və səmimi hisslərlə yanaşdı. Çünki iki ölkəni qədim çağlardan başlayaraq tarixi, mədəni, dini tellər birləşdirirdi. Təsadüfi deyil ki, hələ rəsmi münasibətlər qurulmamışdan əvvəl, 1992-ci ildən başlayaraq Küveyt Azərbaycanın iqtisadi inkişafına dəstək məqsədilə kreditlər ayırmağa hazır olduğunu bildirmişdi.

Belə bir şəraitdə 1994-cü il oktyabrın 7-də iki ölkə arasında diplomatik əlaqələr quruldu. Ümummilli Lider Heydər Əliyev ilə Küveyt Dövlətinin Əmiri Cabir Əl-Əhməd Əs-Sabah arasında keçirilən görüşlərdə ölkələrimiz arasında əlaqələrin bünövrəsi qoyuldu və bunun üçün möhkəm hüquqi baza yaradıldı. Təbii ki, qarşılıqlı siyasi münasibətlərin normal məcrada inkişafı həyatın digər sahələrində də faydalı əməkdaşlığın qurulmasına münbit zəmin yaratdı. Sonralar bu proses Prezident İlham Əliyev tərəfindən daha yüksək zirvəyə qaldırıldı. Tərəflər arasında həyatın müxtəlif sahələrində münasibətləri tənzimləmək və inkişaf etdirmək məqsədilə 20-dən çox sənəd, protokol, o cümlədən ticarət və turizm əlaqələri sahəsində sazişlər imzalanıb.

İki ölkənin dövlət başçıları arasında əlaqələrin yaxşı vəziyyətdə olması siyasi münasibətlərin yüksələn xətlə inkişafına münbit zəmin yaradır. İki ölkə parlamentləri arasında əlaqələrin möhkəmlənməsi digər sahələrdə əməkdaşlığın güclənməsinə təkan verdi. Hazırda Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

Qarşılıqlı münasibətlər ikitərəfli çərçivə ilə məhdudlaşmır. İki dövlət arasında müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq həyata keçirilir. Xüsusilə hər hansı bir quruma namizədliklərin qarşılıqlı dəstəklənməsi sahəsində, həmçinin BMT, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində yüksək əməkdaşlıq və koordinasiya mövcuddur. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı dövründə Küveytin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasına verdiyi dəstəyi xalqımız heç vaxt unutmur.

Bu gün siyasi əlaqələr müxtəlif səviyyələrdə uğurla həyata keçirilir. 13 fevral 2025-ci ildə Küveytdə iki ölkənin xarici işlər nazirlikləri arasında nazir müavinləri səviyyəsində siyasi məsləhətləşmələrin ilk iclası keçirildi. Məsləhətləşmələr zamanı ikitərəfli siyasi, iqtisadi, enerji, kənd təsərrüfatı, turizm, təhsil, humanitar və digər sahələrdə əlaqələrin mövcud vəziyyəti və gələcək inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparıldı.

Keçən ilin aprelində Küveytdə Xarici İşlər nazirlərinin rəhbərlik etdiyi Əməkdaşlıq üçün Birgə Komissiyanın üçüncü iclası keçirildi. Azərbaycanın iqtisadiyyat nazirinin Küveytə səfəri xüsusi qeyd olunmalıdır. Küveyt Ticarət və Sənaye Palatası ilə İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) birgə təşkilatçılığı ilə Küveyt şəhərində iki ölkənin özəl və dövlət qurumlarının iştirakı ilə "dəyirmi masa" keçirildi.

Həmçinin ötən il Azərbaycan və Küveyt arasında energetika, investisiya və bərpaolunan enerji sahələrində əlaqələrin genişləndirilməsi prioritet təşkil etmişdir. Azərbaycan uzun illərdir enerji sahəsində sabit tərəfdaş kimi çıxış edir və regionda enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Küveytin maliyyə və energetika nazirləri ilə Azərbaycanın iqtisadiyyat naziri arasında görüşlərdə investisiya qoyuluşu və iqtisadi əlaqələrin şaxələndirilməsi müzakirə edildi. "Yaşıl Enerji" və Enerji Keçidi məsələlərinə tərəflər xüsusi önəm verirlər. Belə ki, iki ölkə arasında enerji səmərəliliyi və bərpaolunan enerji sahəsində təcrübə mübadiləsi 2025-ci il üçün əsas istiqamətlərdən biri kimi qarşıya qoyulmuşdu. İnamla deyə bilərik ki, bu sahədə müsbət irəliləyişlər var. Bu əlaqələr iki ölkənin neft-qaz sektorundan kənar, xüsusilə şaxələndirilmiş enerji layihələrinə investisiya yönəltmək məqsədlərinə xidmət edir. 2025-ci ildə Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun Baş direktoru vəzifəsini icra edən Valed əl-Baharın Ərəb Koordinasiya Qrupunun nümayəndə heyəti ilə birgə Bakıya səfəri baş tutub.

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlıq üçün Birgə Komissiyanın 3-cü iclası 2025-ci ilin 30 aprel tarixində Əl-Küveyt şəhərində keçirildi. Azərbaycan Respublikası və Küveyt Dövləti bir-birinin suverenliyi və ərazi bütövlüyünü dəstəkləmək ilə bağlı öhdəliklərinə sadiq olduqlarını bir daha diqqətə çatdırdılar. Yekunda komissiyanın III iclasının protokolu, eləcə də 2025-2027-ci illər üçün əməkdaşlıq üzrə yol xəritəsi qəbul olundu. Həmçinin idman, mədəniyyət və turizm sahələrinə aid bir neçə fəaliyyət proqramı da imzalandı. Sənədlər arasında iki ölkənin mədəniyyət nazirlikləri arasında imzalanmış 2025-2027-ci illər üçün mədəni əməkdaşlıq üzrə İcra Proqramı da var. Yekunda tərəflər Birgə Komissiyanın 4-cü iclasının 2027-ci ildə Bakı şəhərində keçirilməsi barədə razılığa gəldilər.

Küveyt şirkətləri Azərbaycanda sənaye, tikinti, ticarət və xidmət sahələrində fəaliyyət göstərir, Küveyt sərmayəli şirkətlər bu sahələrdə uğurla təmsil olunur. İki ölkə arasında neft-qaz sənayesi və digər sahələrdə də əməkdaşlıq perspektivləri müzakirə edilir, SOCAR Küveyt şirkətləri ilə əlaqələri tədricən genişləndirir.

Küveyt və Azərbaycan arasında idman sahəsində əlaqələr, xüsusilə gənclər və idman nazirlikləri səviyyəsində qarşılıqlı əməkdaşlıq sazişləri və təcrübə mübadiləsi (futbol, müxtəlif idman növləri) əsasında inkişaf edir.

Küveyt və Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində, həmçinin İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq yarışlarda bir-birini dəstəkləyir. İki ölkənin futbol federasiyaları və klubları arasında qarşılaşmalar və əlaqələr mövcuddur.

Mədəniyyət və təhsil sahəsində əlaqələrin inkişafında müsbət təcrübə mövcuddur. Tələbə və təcrübə mübadiləsi, ortaq təhsil proqramlarının həyata keçirilməsi, universitetlər arasında əlaqələrin qurulması və sair yollarla bu əməkdaşlıq inkişaf etdirilir.

Əminliklə vurğulamaq olar ki, ərəb dünyasının incisi olan Küveyt Dövləti ilə Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycan arasında hərtərəfli əlaqələr davamlı inkişaf edəcək, yaxın gələcəkdə bir sıra beynəlxalq iqtisadi layihələrdə birgə iştirak edəcəklər. Qarşılıqlı faydalı əməkdaşlığın güclənməsi hər iki dövlətin qüdrətinin artmasına, hər iki xalqın rifah halının yüksəlməsinə müsbət təkan verəcəkdir.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***





# Vətən deyəndə...





**Tarix yazan oğullar**

# Qısa ömür, əbədi tale

**Hər şəhid evinə gedəndə insan ürəyində qəribə bir ağırlıq daşıyır. Qapını döyməzdən əvvəl nəfəsini toparlamalı olursan. Çünki bilirsən ki, içəridə zaman bir yerdə dayanıb. Saatlar işləsə də, divarlar ötüb keçən günün səsini saxlayır. Bu dəfə də elə oldu. Qapı açıldı və mən bir ömrün xatirəsinə doğru addımladım. Elə bir mənzilə daxil oldum ki, burada qüssəli xatirələr yaşayır…**

İçəri girəndə otağın bir tərəfindəki guşə diqqətimi çəkdi. Burada Vüsal Kazımovun şəkilləri, kitabları, əl işləri, digər şəxsi əşyaları sərgilənir. Hər əşya sanki onun nəfəsini alır, qoxusunu yavaş-yavaş otağın səssizliyinə sızdırır. Muzey eksponatları kimi səliqəli, məzmunca və görünüşcə bir-birini tamamlayan hər şəkil, hər kağız parçası, digər bir əşya gülüşü, sükutu, ötüb keçən zamanın ağırlığını saxlayır özündə. Bir anlıq dayanıb baxdım, hər əşyaya, hər şəkilə ayrılıqda göz gəzdirdim: "Nə yaraşıqlı oğlandı"?! Başımı sağa döndərdim. Ordan da Vüsalın müxtəlif zamanlarda çəkdirdiyi şəkillər boylanır. Xalası Şofizə müəllimə dedi ki, bütün otaqların divarından Vüsal "boylanır". Ürəyim sanki dondu...



Sonra yavaş-yavaş donum açıldı. Şuşada şəhid olmuş Vüsal Kazımovun anası Lalə xanımın sakit, amma dərin baxışları, atası Vüqar müəllimin səssiz



duruşu guşənin təsadüf olmadığını anlatdı. Burada hər əşya sevgi ilə seçilmiş, hər detal valideyn əllərinin titrəyişi ilə yerinə qoyulmuşdu. Bu guşə xatirə üçün deyil, dözmək üçün yaradılmışdı. Şəkillərdən boylanan Vüsalın baxışları elə bil "mən buradayam" deyirdi. Guşə yas saxlamaq üçün deyil, yaşamaq üçün qurulmuşdu. Çünki şəhid ailələri ağlamağı öyrənmir, səbir etməyə üstünlük verirlər. Hər şəkil bir xatirə, hər medal bir fəxr, hər qoxu bir geri dönməyən addımdır. Lalə xanım deyir: "Evimizin hər tərəfi, daha çox da bu hissə mənim Vüsalla dərdləşdiyim məkandır. Hərdən mənə elə gəlir ki, qapı açılacaq, oğlum boynumu qucaqlayacaq. Əlləri çiynimdə bir az ağır, bir az tələsik tonda "ana, bax, gəldim" deyəcək. Mən də heç nə soruşmayacam. Çünki ana sualı geciksə də qucağı həmişə açıqdır. Bəzən düşünürəm ki, sadəcə, gecikib, mütləq dönəcək. Oğullar itmir axı, yolları uzanır, vaxtları yavaş-yavaş keçir. Mən isə burda gözləyirəm. Evin içində, bu guşənin yanında. Gözləmək ömrümün davamıdır".

Vüsal Kazımov 2000-ci ilin isti avqust günündə doğulub. Bəlkə də ona görə istiqanlı, günəş kimi nur saçan, ətrafına istilik yayan, ümid verən bir gənc idi. Valideynləri deyir ki, uşaqlıqdan gülüşü ilə seçilirdi. Hara gedirdi özü ilə işıq aparırdı. Dostlarına sədaqəti, ailəsinə bağlılığı onun ən böyük sərvəti idi. Vətən sevgisi isə ürəyində səssiz, amma alovlu bir ocaq kimi yanırdı. Zaman keçdi, orta təhsil aldığı Namiq Məmmədov adına 9 saylı məktəbi bitirib Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnşaat-Texnologiya fakültəsinə qəbul oldu. Bakalavr təhsilini həmin fakültənin tikinti materialları və texnologiyası ixtisası üzrə başa vurdu. 2021-ci ildə universitetin məzunu oldu. Artıq vaxt çatmışdı. Vətən onu çağırırdı. Əsgəri xidmətə yollanarkən baxışlarında qəribə bir arxayınlıq vardı, sanki hara getdiyini, nə üçün getdiyini əvvəlcədən yaxşı bilirdi. Bu yol onun üçün, sadəcə, borc deyildi, şərəf idi.

Zaman o zaman idi ki, Şuşa 44 günlük Vətən müharibəsindən yenicə çıxmışdı. Zəfər qazanılmışdı, amma şəhərin sinəsində hələ də müharibənin ağır izləri vardı. Daş divarlar susqun, küçələr kədərli idi. Şuşa yaralı idi, hələ tam dirçəlməmişdi. Belə bir zamanda Tanrı Vüsalın yolunu Şuşaya istiqamətləndirdi. Bu, taleyin ona verdiyi ən böyük imtahan və eyni zamanda ən böyük şərəf idi. Hərbi xidmətə yollananda ürəyində lap çoxdan baş qaldıran gizli bir arzu vardı: müqəddəs torpaqlarda, xüsusən də azadlığın rəmzi olan Şuşada xidmət etmək. Çünki Şuşa onun üçün, sadəcə, bir şəhər deyildi. Zəfərin nəfəsi, şəhidlərin qanı ilə yoğrulmuş bir and yeri idi.

Arzusu çin oldu. Şuşada xidmətə başladı. Bu şəhər onun üçün, sadəcə, xidmət yeri deyildi, qəlbinin çağırışı, ruhunun seçimi idi. Vüsal ora çatanda qəribə bir rahatlıq tapmışdı. Sanki çoxdan gözlədiyi bir görüşə gəlmişdi. Dağların sükutu, küləyin pıçıltısı, torpağın qoxusu ona doğma idi. Bəlkə də bu doğmalıq ona ana babasının şuşalı olmasından irəli gəlirdi. Üç onillik yaralı nəfəs alan bir torpağın keşiyində dayanmaq onun üçün həm qürur, həm də məsuliyyət idi. Hərbi hissədə keçən hər gün onun üçün adi bir xidmət günü olmadı. Postda dayanarkən yalnız sərhədi yox, həm də bir tarixin, bir zəfərin, bir xalqın qürurunun keşiyini çəkdiyini hiss edirdi. Səhərin ilk işıqları dağların arxasından boylananda Vüsal baxışlarını üfüqə zilləyir, içində qəribə bir rahatlıq duyur, silahını çiyninə daha möhkəm alıb qürurla dayanırdı. İndi o, sadəcə, əsgər deyildi, azadlığın keşiyində dayanan bir Vətən oğlu idi.

Bir gün də olsun şəhidləri unutmur, bu torpağın hansı qurbanlar hesabına azad edildiyini düşünürdü. Və bu düşüncə onu



daha da mətinləşdirirdi. Çünki bu hərbi hissədə xidmət etmək təkcə əsgəri vəzifə deyildi, bir andın davamı idi. Bilirdi ki, Vətənə içdiyi and, sadəcə, sözlərdən ibarət deyil, vicdan qarşısında verilmiş bir ömürlük vəddir. Silahı əlində tutarkən anlayırdı ki, bu silah torpağın, bayrağın və xalqın etibarını qorumaq üçündür. And içdiyi gün gözlərindəki qətiyyət necə idisə, indi də eyni alovla yanırdı. Çünki Vətənə sədaqət bir günün yox, bir ömrün məsuliyyətidir. Hər kəsin taleyində bir zirvə var. Onun zirvəsi isə məhz burada - Şuşanın başı dumanlı dağlarında idi. Xidmət etdiyi günlərdə Vüsal hər addımında ayağını torpağa sevgi ilə basırdı. Bəlkə özü də hiss etmədən taleyi onu ən uca zirvəyə - şəhidlik məqamına aparırdı. İsti bir avqust günündə doğulan o ürək, Şuşanın sərin dağ havasında əbədiyyətə qovuşdu.

Uşaqlıq dostu Bagir danışır: "Telefonda Vüsalla imkan düşəndə danışırdıq, mesaj yazırdıq. Xidmətini başa vurmağa üç ay qalmış darıxmağa başladım, nədənsə ürəyim səksəkə içində idi. Onun üçün darıxdığımı söyləyəndə əvvəllər də bir neçə dəfə dediyi "bəlkə qayıda bilmədim, şəhid oldum" sözlərini təkrarladı. Sonuncu mesajında isə belə yazmışdı: "şəhid olsam şəklimi maşınının arxasına vurarsan". Elə də etdim". Bu sözlər o zaman bir duyğu kimi səslənsə də, sonradan Vüsalın qismətinə çevrildi. Zaman göstərdi ki, Vüsalın ürəyindən keçənlər, sadəcə, bir arzu deyilmiş, taleyinin yazısı imiş. Bagir də 40 gün Vüsalın şəklini avtomobilinin arxa şüşəsində gəzdirdi...

Doqquz ay idi xidmət edirdi. Vüsal çox yaxşı əsgər idi. Onu təkcə geyindiyi hərbi forma deyildi. O, ürəyi mərhəmətlə dolu, baxışlarında sədaqət olan bir oğul idi. Qorxmazlığı hay-küylü deyildi, cəsarətli və qürurlu idi. Hələ xidməti başa çatmamış haqqında yazılan qəzet məqalələrində cəsur əsgər kimi xarakterizə olunurdu. Komandanlıq tərəfindən ona iki dəfə məzuniyyətə getmək təklif olunsa da imtina edirdi. İstəyirdi ki, atasının 50 illik yubileyində yanında olsun. Vüsalın bu arzusu ürəyində qaldı. Atasının şad gününə 34 gün qalmış evə şəhid kimi döndü. 2022-ci il martın 3-də Şuşa-Laçın yolu istiqamətində hərəkət edən hərbi avtomobil qəzaya uğradı. Hərbi tapşırığı yerinə yetirib dönən Vüsal da həmin avtomobildə idi. Ağır yaralanmış Vüsal Kazımov tibb müəssisəsinə çatdırılsa da həyatını xilas etmək mümkün olmadı. Qəribədir ki, Vüsalın şəhid olacağını əvvəlcədən anası da, xalası da yuxuda görüblər. Atasının isə Vüsalın şəhid olduğu dəqiqələrdə ayaqları tutulub, addımlarını atmaqda çətinlik çəkib. Vüqar müəllim həmin anı belə xatırlayır: "İşdə idim, qəfildən ürəyim dayanan kimi oldu, sanki belim qırıldı, dizlərim sındı, ağrıdan tərpənə bilmədim. Demə o dəqiqələrdə oğlum şəhid olub, gözlərini əbədi yumub..."

Vüsal artıq bir xatirə deyil, bir anddır, bir qürurdur, bir Vətən nəfəsidir. Vüsalın ömür yolu burada yarımçıq qaldı, amma tamamlanmadı. Hələ yaraları tam sağalmayan Şuşada şəhid oldu. Bu şəhidlik təkcə bir gəncin həyatı deyil, Vətən üçün verilən müqəddəs bir and idi. Onun adı bundan sonra Şuşanın daşlarında, səmasında və xalqın yaddaşında iz salacaq. Bir də haqqında yazılmış kitablarda, dostlarının onun adına açdığı sosial şəbəkə səhifələrində və ölümündən sonra layiq görüldüyü "Hərbi xidmətdə fərqlənməyə görə 3-cü dərəcəli medal"da yaşayacaq.

Vüsal artıq yaşadığı evin otaqlarında yox, ata-anasının, bacısının, dostlarının, qohumlarının ürəyində əbədiyyət qazanıb. Adı çəkiləndə gözlər dolsa da, sinələr dikəlir. Çünki şəhid olmaq son deyil, bir xalqın yaddaşına yazılmaqdır. Adı rəmzi olaraq daşa yazılır, amma özü ürəklərə həkk olunur. Hər bayraq dalğalananda, hər himn səslənəndə onun nəfəsi, səsi qarışır küləyə. Şəhidlər torpağa tapşırılmır, torpağı bizə əmanət edirlər. Onlar gedərək yox olmur, millətin yaddaşında vicdanın səsinə çevrilirlər. Buna görə də adları çəkiləndə gözlər dolur, amma başlar əyilmir, dikəlir. Şəhid Vüsalın əşyaları sərgilənən o guşə isə bir ailənin sınmadığını, bir ananın diz çöküb yıxılmadığını, bir atanın səssizcə dağ kimi dayandığını göstərirdi. Və orada - çərçivələrin içindən gülümsəyən gənc heç bir zaman ölməyəcək, şəhid Vüsal adı ilə yaşayacaq. Hər dəfə xatırlandıqca yenidən doğulacaq, hər dua ilə bir az da ucalacaq. Çünki bəzi talelər qısa olsa da, ömürləri əbədiyyət qədər uzun olur...

Bəzən bir xalqın tarixini kitablar deyil, anaların göz yaşı yazır. Vüsalın anası üçün həyat artıq başqa cür axır. Günlər gəlir, gedir, amma heç biri əvvəlki kimi deyil. Oğlunun yoxluğu evin hər küncündə hiss olunur - boş qalan otaqda, səssiz qapıda, cavabsız qalan çağırışlarda. Ana hər səhər sanki nəyisə gözləyirmiş kimi oyanır, hər axşam isə eyni həsrətlə günü yola salır...

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

**Vətən üçün doğulanlar**

# Şəhidlik zirvədir

**Müharibələr həmişə insanlara qan-qada və göz yaşları gətirir. Şəhərlər, kəndlər dağılır, evlər yandırılır, insanlar doğma ocaqlarını tərk etməli olurlar. Torpaq, vətən qeyrəti çəkən oğullar isə silaha sarılaraq onun müdafiəsinə qalxırlar, işğalçıların hücumlarını dayandırmaq üçün böyük cəsarət və hünərlə vuruşurlar, doğma torpaqlarını göz bəbəkləri kimi qoruyurlar.**



27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda xalqımızın mərd, cəsur oğulları illərdən bəri düşmən işğalında qalmış torpaqlarımızı azad etmək üçün heç bir çağırış gözləmədən döyüşlərə yollandılar. Amma nə edəsən ki, müharibələr itkisiz olmur. Yurdumuzun müdafiəsinə atılmış cəsur oğullarımızın sırasında da Vətənin azadlığı naminə canlarından keçən şəhidlər oldu. Torpaq uğrunda şəhid olanlar isə heç vaxt unudulmur. Xalqımız onların xatirəsini həmişə dərin hüznlə anır, ehtiramla xatırlayır.



Belə oğullardan biri də Rüfət Vaqif oğlu Sadıqovdur. Rüfət çox qısa, amma şərəfli, fəxr ediləsi, qürur duyulası bir ömür yaşayıb. O, 13 noyabr 1995-ci ildə Daşkəsənin Quşçu kəndində dünyaya göz açıb. 2013-cü ildə Əli İsmayılov adına kənd orta məktəbini bitirib. Bir ildən sonra - 2014-cü ildə yaşıdları ilə bərabər ordu sıralarına çağırılıb. Böyük həvəslə, yüksək ovqatla əyninə hərbi forma geyinib. İlk gündən başlayaraq silahların, hərbi texnikanın sirlərini dərindən öyrənib. Nümunəvi xidmətilə seçilən əsgərlərdən biri olub. 2015-ci ildə Vətən qarşısındakı övladlıq borcunu layiqincə yerinə yetirərək alnıaçıq, başıuca doğmalarının yanına qayıdıb.

Əsgəri xidmətdə olarkən Rüfət Sadıqovun ürəyində doğma ordumuza olan sevgisi, məhəbbəti daha da artdı. Ürəyindən ömrünü hərbi sahəyə bağlamaq keçdi. Ürəyində baş qaldıran arzularını valideynlərinə bildirəndə onlar etiraz etmədilər, övladlarına uğurlu yol dilədilər. Valideynlərinin xeyir-duasını alandan sonra Rüfət 2016-cı ildə müddətdən artıq həqiqi hərbi qulluqçu kimi cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində xidmət etməyə başladı. İlk günlərdən üzərinə düşən döyüş tapşırıqlarını bacarıqla yerinə yetirdi. Buna görə də əsgər dostlarının və komandirlərinin hörmətini qazandı. Komandanlıq onun xidmətini layiqincə qiymətləndirdi. Nümunəvi xidmətinə görə Rüfət Sadıqov dəfələrlə fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldı.

2020-ci il sentyabrın 27-də erməni işğalçıları mövqelərimiz üzərinə hücum edəndə Rüfətgilin bölüyünü də döyüşlərə cəlb etdilər. Silaha sarılan cəsur əsgər ön sıralarda vuruşur, dəqiq atəş zərbələri ilə erməni qəsbkarlarını cəhənnəmə vasil edirdi. Atdığı güllələr hədəfdən yayınmırdı. Çavuş Rüfət Sadıqov düşmənə qarşı vuruşmağı çoxdan arzulayırdı. Artıq arzusuna çatmışdı. Əldə silah uzun illərdən bəri erməni işğalında qalmış torpaqlarımızın azadlığı uğrunda döyüşürdü. Tez-tez evlərinə zəng vurub qazandıqları zəfərlərdən danışırdı, doğmalarına, əzizlərinə şad xəbərlər verirdi.

Döyüşlər isə bir an olsun belə səngimirdi. Rüfətgilin bölüyü Kəlbəcər istiqamətində vuruşurdu. İrəliyə atılan hər addım onları qələbəyə yaxınlaşdırırdı. Başqa bölgələrdən alınan xoş xəbərlər Rüfəti çox sevindirirdi. Təəssüflər olsun ki, onun döyüş yolu uzun olmadı - 2020-ci il oktyabrın 4-də şəhidlik zirvəsinə ucaldı. Nəşini uzun müddət döyüş ərazisindən çıxarmaq mümkün olmadı. Nəhayət, dekabrın 19-da böyük çətinliklə döyüşçü yoldaşları bunu bacardılar. Çavuş Rüfət Sadıqov yaxınlarının, doğmalarının iştirakı ilə Daşkəsəndəki Şəhidlər xiyabanında torpağa tapşırıldı.

Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən göstərdiyi igidliyə və qəhrəmanlığa görə Rüfət Vaqif oğlu Sadıqov ölümündən sonra "Vətən müharibəsi iştirakçısı", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

Anası Tərifə xanım Rüfət haqqında kövrələrək danışır. Deyir ki, oğlumla fəxr edirəm: "Zəhmətim hədər getməyib, Vətənimə, xalqıma layiqli övlad böyütmüşəm. Rüfət torpağını, xalqını sevən qeyrətli bir oğul idi. Əsgərlikdən xidmətindən qayıtdıqdan sonra ordu sıralarında xidmətini davam etdirmək istədiyini bildirdi. Biz onun istəyinə qarşı çıxmadıq, yaxşı yol arzuladıq. Böyüklərin xeyir-duası ilə Rüfət xidmətə yollandı. Ən böyük arzusu torpaqlarımızın düşmən tapdağından azad olunmasını, bayrağımızın Qarabağda dalğalanmasını görmək idi. Bu gün balamın ürəyinin üstündə gəzdirdiyi üçrəngli müqəddəs bayrağımız işğaldan azad edilən kəndlərimizdə, şəhərlərimizdə dalğalanır. İndi oğlumun ruhu şaddır".

Çavuş Rüfət Sadıqov kimi cəsur qardaş itirən İradə xanım da onun haqqında danışarkən göz yaşlarını saxlaya bilmir: "Qardaşım Vətən, torpaq uğrunda şəhid olub, müqəddəs bir məqama yüksələrək ölümsüzlük qazanıb. Rüfət vətənpərvər, mehriban, qayğıkeş qardaş idi. Onunla fəxr edirəm. Qoy bugünkü və gələcək nəsillər igidliyi, qəhrəmanlığı onun kimi cəsur oğullardan öyrənsinlər".

Digər bacısı Fəridə xanım da qardaşı ilə qürur duyduğunu deyir: "Qardaş itirmək mənim üçün ağırdır, çətindir. Yeganə təskinliyimizi onda tapırıq ki, Rüfət torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Bu, bizim üçün çox qürurlu və şərəflidir. Çünki qardaşım şəhidlik zirvəsinə ucalıb. Şərəfli ölümü ilə ölümsüzlük qazanıb".

Bu gün hamımız qürurluyuq. Çünki düşmənə layiqli cavab verən igid oğulların şəhid olduğu, yaşadığı ölkənin vətəndaşlarıyıq. Qəhrəmanlığını, igidliyini bütün dünyaya göstərən bir xalqın övladlarıyıq. Şəhidlik əbədiyyət deməkdir, ölümsüzlük deməkdir. Hər birimiz şəhidləri əzizimiz bilirik, xatirələrini həmişə ehtiramla yad edirik. Şəhidlərimiz qəlbimizdədir, onlar ürəklərdə əbədi olaraq yaşayacaqlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Bakıda ağacəkmə aksiyası keçirilib

**Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə paytaxtın Nərimanov rayonunda ağacəkmə aksiyası təşkil edilib. Aksiyada BŞİH-nin rəhbərliyi, əməkdaşları və struktur bölmələrin işçiləri, RİİB-in könüllüləri iştirak ediblər.**

İştirakçılar tərəfindən aksiyanın keçirildiyi ərazi yararsız tullantılardan təmizlənərək burada Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 500 ədəd yeni ağac əkilib.

Ağacəkmə aksiyası Bakı şəhərində quraqlığa davamlı bitkilərin, yerli iqlimə uyğun ağac və kolların əkilməsi, həmçinin paytaxtda ekoloji tarazlığın bərpası və ərazinin gözəlləşməsi istiqamətində görülən işlərin davamıdır.



Qeyd edək ki, əkilən ağaclara gələcəkdə qulluq göstərilməsi üçün suvarma məsələləri həll edilib, cavabdehlər müəyyənləşdirilib.

Mövsüm ərzində Bakı şəhərinin yaşıllaşdırılması, yaşıllıqlara qulluq və abadlıqla bağlı işlərin davam etdirilməsi nəzərdə tutulub.

***"Azərbaycan"***






# Horovlu kəndində daha 30 ailəyə evlərinin açarları təqdim olunub

**Növbəti köç karvanı ilə Horovlu kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.**







AZƏRTAC-ın bölgə müxbirinin məlumatına görə, Cəbrayıl rayonunun Horovlu kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək evlərində məskunlaşıblar.

Qeyd edək ki, bu mərhələdə Horovlu kəndinə 30 ailə olmaqla, 115 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

"İşğaldan azad olunan Cəbrayıl rayonunun Horovlu kəndinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan keçmiş məcburi köçkünlər doğma yurdlarına qovuşublar.

Horovlu kəndi bu gün 30 ailə olmaqla, 115 nəfərə qucaq açıb. Ailələr yenidən qurulan kəndə sevinc göz yaşları ilə qədəm qoyub və doğma yurdlarında yaradılan gözəlliyi seyr ediblər.

Qeyd edək ki, kəndin ümumi sahəsi 248 hektardır. Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi ilə - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. 624 şagird yerlik məktəb binası, 220 yerlik körpələr evi-uşaq bağçası, ikimərtəbəli inzibati bina, bazar kompleksi, çoxfunksiyalı iaşə obyektləri, tibb məntəqəsi və idman-sağlamlıq mərkəzi tikilib. Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib. Horovlu kəndində 4,4 hektar ərazidə park kompleksi də inşa olunub. Eyni zamanda Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına qurtaran qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və can-sağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu bildiriblər. Onlar vurğulayıblar ki, bu gün doğma yurdlarında başlanan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə *abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Dünyada analoqu olmayan regional əməkdaşlıq
Azərbaycan-Türkiyə-Gürcüstan strateji tərəfdaşlığı hər üç ölkəyə siyasi və iqtisadi dividendlər verməkdə davam edir
İKİƏSRLİK CİNAYƏTLƏRİN ƏDALƏTLİ YEKUN CƏZASI
Azərbaycan-Estoniya dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək
Mədəniyyətimizin böyük hamisi
Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurun mədəni irsinin bərpasına böyük töhfələr verir
Rəqəmsallaşma zamanın tələbidir
Brüssel Bakı ilə strateji tərəfdaşlıqda maraqlıdır
Avropa İttifaqı Azərbaycanla əməkdaşlığa dair müzakirələri yekunlaşdırmaq istəyir
"Səfir Fergus Auldu baş verən bu təxribatı dayandırmaq üçün fəaliyyətə çağırırıq"
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "Mədəni irs" pərdəsi altında təxribat

## Bəziləri Azərbaycanın uğurlarını həzm edə bilmirlər

**Cənubi Qafqazda düşmənçilik səhifəsinin qapandığı, regional sabitliyin təməllərinin atıldığı və sülh sazişinin imzalanma mərhələsinə qədəm qoyduğu zamanda bəzi xarici dairələrin köhnə iddialarla çıxış etmələri təsadüfi deyil.**

Onilliklər ərzində münaqişə ocağını alovlandırmaqla siyasi-iqtisadi dividendlər qazanan pozucu qüvvələr bu gün qondarma "mədəni irs" bəhanəsi ilə Azərbaycanın suveren iradəsinə, sülh prosesinə kölgə salmağa cəhd edirlər. Ölkəmizin ərazi bütövlüyünü tam bərpa etməklə qazandığı hərbi-strateji və siyasi zəfərləri həzm edə bilməyən mərkəzlər itirilmiş təsir rıçaqlarını "humanitar missiya" və ya "mədəniyyət" pərdəsi altında canlandırmaq istəyirlər. Təbii ki, məqsəd mədəniyyət qayğısı deyil, müstəqil Azərbaycanın bölgədə diktə etdiyi yeni reallığı sarsıtmağa çalışmaqdır.

Bu günlərdə Böyük Britaniya parlamentinin bir sıra üzvləri və Beynəlxalq Vəkillər Assosiasiyasının (IBA) İnsan Hüquqları İnstitutu Azərbaycanın ərazi bütövlüyünə qarşı açıq hörmətsizlik nümayiş etdirərək, saxta məlumatlar əsasında siyasi kampaniyaya start veriblər. Sözügedən qüvvələr qondarma "Dağlıq Qarabağda erməni mədəni irsinin məhv edilməsi" iddiası ilə qərəzli sorğu başladıblar. Buna cavab olaraq, Azərbaycan Vətəndaş Cəmiyyəti nümayəndələri Britaniya İcmalar Palatasının spikeri Lindsay Hoyleyə, Lordlar Palatasının spikerinə, Beynəlxalq Vəkillər Assosiasiyasının prezidenti Claudio Viscoya və səfir Ferqus Aulda müraciət edərək, bu təxribatçı addımlara son qoyulmasını tələb ediblər.

Əvvəla vurğulayaq ki, Azərbaycanın inzibati-ərazi bölgüsündə "Dağlıq Qarabağ" adlı ərazi mövcud deyil. Qarabağ isə Azərbaycanın ayrılmaz tərkib hissəsidir və bu, Böyük Britaniya da daxil olmaqla, bütün dövlətlər tərəfindən qəbul edilib. Bu baxımdan təxribatçı sorğuda qondarma "Dağlıq Qarabağ" ifadəsinə yer verilməsi hüquqi və tarixi reallıqların kobud təhrif olunmasıdır. Bu addım ölkəmizin suverenliyinə və sərhəd toxunulmazlığına qarşı aparılan qərəzli siyasi manipulyasiyadır, hüquqi qüvvəsini itirmiş bir status-kvonu "diriltmək" cəhdidir. Qondarma terminin istifadəsi həm də BMT-nin qətnamələrinə və regionda yaranmış yeni geosiyasi reallığa ziddir.

Ermənistanla Azərbaycan arasındakı münaqişə artıq tarixə qovuşub və tərəflər sülhün bərqərar olması istiqamətində əhəmiyyətli məsafə qət ediblər. Sülh müqaviləsinin layihəsi tamamlanıb və ötən ilin 8 avqustunda Vaşinqtonda paraflanıb. Qarşıdakı dövrdə yekun sülh sazişinin imzalanacağı gözlənilir. Belə həssas dönəmdə qərəzli qüvvələrin bu cür sorğularla çıxış etməsi, süni "mədəni irs" mövzusunu qabartması tərəflər arasında yaranan kövrək etimad mühitinə zərbə vurur. Həmçinin revanşizmin stimullaşdırılmasına bəhanə verir. Britaniya parlamentinin bəzi üzvləri və Beynəlxalq Vəkillər Assosiasiyasının gorbagor olmuş separatçılığı yenidən canlandırmaq cəhdləri Azərbaycanın daxili işlərinə müdaxilə olmaqla yanaşı, beynəlxalq hüququn təməl prinsiplərinə qarşı ciddi sayğısızlıqdır.

Belə destruktiv fəaliyyət hər iki tərəflə strateji əməkdaşlığı olan və sülh danışıqlarını əvvəldən bəri təşviq edən Britaniya rəsmi dairələrinin mövqeyi ilə ziddiyyət təşkil edir. Böyük Britaniya Azərbaycanla dost və tərəfdaş ölkədir. Bu dövlət müxtəlif beynəlxalq platformalarda Azərbaycanın mövqeyini dəstəkləyib. Bu baxımdan ayrı-ayrı şəxslərin və ya qurumların qərəzli təşəbbüsləri iki ölkə arasındakı münasibətlərin ruhuna uyğun deyil. Sual yarana bilər ki, Britaniya hökuməti rəsmi səviyyədə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi halda, bəzi deputatlar niyə bu yola əl atırlar?! Böyük Britaniyada fəaliyyət göstərən erməni diasporunun müəyyən parlament üzvləri ilə sıx əlaqələri bilinən faktdır. Görünür, bəzi deputatların seçkiöncəsi dövrdə müəyyən qrupların rəğbətini qazanmaq istəyi obyektivliyi üstələyib. Bu cür pozucu addımlar Bakı və London arasındakı strateji tərəfdaşlığa xələl gətirir. Ən mühümü isə Cənubi Qafqazda sülhə deyil, gərginliyin saxlanılmasına xidmət edir. Beynəlxalq Vəkillər Assosiasiyasının İnsan Hüquqları İnstitutu isə öz vəzifəsini yerinə yetirmək əvəzinə, tamamilə başqa işlərlə, dövlətlərarası münasibətləri gərginləşdirən hüquqazidd fəaliyyətlə məşğul olur.

Ermənistanın 30 illik işğal dövründə Azərbaycanın mədəni, dini və tarixi abidələrinə qarşı törətdiyi vandalizm faktları illərdir beynəlxalq hesabatlarda sənədləşdirilib. İşğal dövründə Azərbaycanın 60-dan çox məscidinin dağıdılmasına, muzeylərin talan edilməsinə və tarixi-mədəni irsinin tamamilə silinməsinə səssiz qalanların bu gün uydurma məlumatlar əsasında "sorğu" keçirməsi siyasi riyakarlıqdır.

Daha önəmli məqam odur ki, Qarabağda, ümumiyyətlə, ermənilərin "mədəni irsi" yoxdur və heç zaman olmayıb. İşğal dövründə, yəni qanunsuz hərbi təcavüz nəticəsində inşa edilmiş hansısa separatçılıq yuvası "mədəni irs" statusu daşıya bilməz. Hərbi xunta tərəfindən tikilmiş binalar və ya sonradan uydurulmuş "tarixi nişanələr" mədəniyyət nümunəsi deyil, beynəlxalq hüququn pozulmasının sübutlarıdır. Qarabağda "erməni mədəniyyətinin nümunəsi" kimi təqdim edilən abidələrin hamısı Alban irsidir. İşğal dövründə Alban irsinə məxsus tarixi abidələrin üzərindəki epiqrafik yazılar və memarlıq üslubu sonradan erməniləşdirilib. Azərbaycan xalqına məxsus minillik mədəni irs nümunələri - məscidlər, karvansaralar, türbələr məqsədli şəkildə məhv edilib və ya "təmir" adı altında saxtalaşdırılıb. Azərbaycanın suveren torpaqlarında kənar qüvvələrin "miras" axtarışı Ermənistanın 30 illik etnik təmizləmə və vandalizm siyasətinə bəraət qazandırmaq cəhdidir. Azərbaycan tərəfi haqlı olaraq beynəlxalq ictimaiyyəti və xarici parlamentariləri erməni lobbisinin terminoloji fırıldaqçılığına uymamağa çağırır.

Diqqətçəkən məqam odur ki, son günlər Azərbaycana qarşı qarayaxma və hücum kampaniyası sanki bir mərkəzdən gələn təlimat əsasında həyata keçirilir. Proseslərin eyni vaxtda və koordinasiyalı şəkildə ortaya çıxması, bəzi xarici parlamentarilərin, media qurumlarının, beynəlxalq hüquq təşkilatlarının və sapı özümüzdən olan baltaların eyni vaxtda hərəkətə keçməsi bu hücumların planlı olduğunu göstərir. Azərbaycanın əldə etdiyi tarixi zəfərlər və suverenliyini bütün ölkə ərazisində bərpa etməsi bəzi dairələrin yuxusuna haram qatıb. Azərbaycan separatçılığın kökünü birdəfəlik kəsməklə uzun illər bu münaqişədən siyasi və iqtisadi dividend qazanan xarici aktorların təsir rıçaqlarını yox etdi. O səbəbdən bəzi dairələr "mədəni irs" bəhanəsi ilə itirilmiş təsir imkanlarını geri qaytarmağa çalışırlar.

Keçmiş xunta rejiminin rəhbərlərinin və müharibə canilərinin Bakıda məhkəmə qarşısına çıxarılması və cəzalandırılması da məkrli mərkəzlərin təşvişinə səbəb oldu. Həmin qüvvələr regionda sülhün Azərbaycanın diktə etdiyi şərtlərlə bərqərar olmasını həzm edə bilmirlər. Ancaq sifarşli təlimatlarla hərəkət edən ünsürlər anlamalıdırlar ki, artıq regionun taleyi xarici kabinetlərdə deyil, Bakıda və sülh masasında həll olunur.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Rusiya-Ukrayna müharibəsi: *4 ilin dərdləri və dərsləri*

**"Bu gün (fevralın 24-də - red.) Putinin Kiyevə üçgünlük yürüşünə başlamasından düz dörd il keçir. İşğalın başlanğıcına baxıb bu günə nəzər salsaq, deməyə hüququmuz var: müstəqilliyimizi müdafiə etdik, dövlətçiliyimizi itirmədik, Putin məqsədlərinə çatmadı", - deyə Ukrayna lideri bildirib.**



V.Zelenski həmçinin Ukrayna xalqının cəsarəti və fədakarlığından danışıb. Deyib ki, dördillik müharibənin nəticələri çox ağırdır və bir çox Avropa ölkələri Rusiya ilə mümkün qarşıdurma səbəbindən müdafiə xərclərini artırıblar. Ukrayna Prezidenti onu da bildirib ki, Kiyev və Moskva arasında ötən il ABŞ tərəfindən bərpa edilən danışıqlar indiyə qədər döyüşlərin qarşısını ala bilməyib.

Xəbər verildiyi kimi, Avropa Komissiyasının sədri Ursula fon der Lyayen, Finlandiya Prezidenti Aleksandr Stubb və İsveçin Baş naziri Ulf Kristersson da daxil olmaqla Ukraynanın müttəfiqlərinin liderləri müharibənin ildönümünü qeyd etmək üçün çərşənbə axşamı Kiyevə gəliblər. Fon der Lyayen Kiyevdə həm Ukrayna xalqına, həm də təcavüzkara aydın bir siqnal göndərmək üçün olduğunu bildirib: "Sülh bərpa olunana qədər geri çəkilməyəcəyik. Sülh Ukraynanın şərtləri əsasında olmalıdır".

Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin (CSIS) məlumatına görə, 4 il ərzində hər iki tərəfdən öldürülən, yaralanan və itkin düşən əsgərlərin sayı 1,8 milyon nəfərdir. Analitik mərkəzinin hesablamalarına görə, Rusiya 2022-ci ilin fevralından 2025-ci ilin dekabrına qədər təxminən 1,2 milyon itki, o cümlədən 325 min ölüm hadisəsi yaşayıb ki, bu da İkinci Dünya müharibəsindən bəri hər hansı bir münaqişədə ən yüksək itki sayıdır. Ukrayna isə 500-600 min arasında hərbi itki verib ki, onlardan 140 minə qədəri ölüm halıdır.

Bu arada BBC Rus Xidməti və Mediazona jurnalistləri Ukraynada 200 mindən çox rusiyalı hərbçinin öldürüldüyünü müəyyən ediblər. 2025-ci il Rusiyanın işğalından bəri ən qanlı il olub. BMT-nin Qaçqınlar üzrə Agentliyinin məlumatına görə, Rusiyanın işğalından qaçmaq məcburiyyətində qalan təxminən 5,9 milyon ukraynalı ölkə xaricində yaşayır, daha 3,7 milyon nəfər isə ölkə daxilində köçkün düşüb. Bundan əlavə, Rusiya tərəfindən Ukraynadan ən azı 20 min uşaq zorla deportasiya edilib. BMT-nin Minalardan Təmizləmə Xidmətinin (UNMAS) açıqlamasına görə isə Ukrayna ərazisinin təxminən beşdəbiri mina və ya partlamamış hərbi sursatla çirklənib. Amma müharibənin dərdləri təkcə bunlar da deyil. Dünya Bankının hesablamasına əsasən, Ukraynanın növbəti 10 il ərzində yenidən qurulması üçün təxminən 588 milyard dollar lazımdır.

ABŞ Prezidenti Donald Tramp Ağ Evə qayıtdıqdan bəri təşkil olunan bir neçə raund danışıqlar sülh razılaşması əldə etmək üçün uğursuz olub. Səbəb Kremlin Ukraynanın şərqindəki Donetsk və Luqansk bölgələri üzərində tam nəzarəti və Qərbin Kiyevə hərbi dəstəyini dayandırmasını israr etməsidir. Kiyev isə əsaslı olaraq iddia edir ki, güzəştlər konstitusiya baxımından mümkün deyil və Ukrayna cəmiyyətinin əksər hissəsi üçün qəbuledilməzdir.

Hazırda Ukrayna ərazisinin təxminən 20 faizini işğal edən Rusiya hər gün mülki obyektləri və infrastrukturu bombalayır. Bombardman işğaldan bəri ən ağır enerji böhranına səbəb olub və qışın soyuğunda insanların əzabları daha da artır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Bəzi yerlərdə hava arabir yağıntılı olacaq

**Azərbaycanda fevralın 26-na gözlənilən hava proqnozu açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-5, gündüz 7-10 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunu, nisbi rütubət 75-85 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Axşam ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Şərq küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-7, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacaq.


**Bir Kredit "Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti (əvvəlki adı ilə Birkart BOKT MMC) Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən SA-0214 qeydiyyat nömrəli, 15 fevral 2021-ci il tarixli Bir Kredit Bank Olmayan Kredit Təşkilatına verilmiş sığorta agenti fəaliyyətinə dair verilən lisenziya itdiyi üçün etibarsız sayılır.**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**
**Tiraj 3311**
**Sifariş 273**
**Qiymәti 60 qəpik**